## Günün sözü

### Prezident İlham Əliyev:

30 il ərzində binaları daş-daş söküb, daşıyıb satmışdılar. Qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Yəni, Ermənistan və erməni xalqı bu vəhşiliyə görə dünya miqyasında rəzil oldu. Biz təkcə işğalçını yox, faşistləri məhv etdik. Onların Birinci Qarabağ müharibəsində, İkinci Qarabağ müharibəsində, iki müharibə arasındakı dövr ərzində bütün əməlləri faşist əməlləridir.


Səhifə ⇨ 3

O bayrağın altından keçəcəyiniz gün uzaqda deyil, cənablar!

Səsvermə gününə 4 həftə qalmış siyasi peyzaj...


Səhifə ⇨ 10


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 79 (30195) 16 aprel 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# Bayrağımız milli kimliyimiz, qürur mənbəyimizdir



## Ona od uzadan özünü yandırar

**Biz üçrəngli, ay-ulduzlu Dövlət bayrağımızı 1918-ci ildə qaldıranda da onu qısqanclıqla qarşılayanlar, bəd niyyətlə baxanlar olmuşdu, 1991-ci ildə qaldıranda da. Həmin bədxahlıqlara baxmayaraq, biz o müqəddəs dəyərimizi dünya ölkələrinin BMT-nin Mənzil Qərargahı qarşısındakı bayraqların sırasına qoşmağı da bacardıq, digər mötəbər beynəlxalq təşkilatların mənzil-qərargahı önündə ucaltmağı da.**

Biz Azərbaycan Bayrağını BMT Təhlükəsizlik Şurasının sessiyalarına sədrlik etdiyimiz günlərdə də dünya bayraqlarının ön sırasına çıxartdıq, digər beynəlxalq təşkilatların tədbirlərində də. Biz dünyanın aparıcı dövlətlərinin kosmosdakı rabitə peykləri ilə yanaşı, fəaliyyət göstərən birinci peykimizi də Dövlət Bayrağımızın təsviri ilə yola saldıq, ikinci peykimizi də. Yəni bayrağımız Yerdə də, göydə də dünya ölkələrinin bayraqları arasındadır.

*(ardı 2-ci səhifədə)*

# İdmançılarımız Vətənə qayıtdılar



**Dünən axşam saatlarında ağırlıqqaldırma üzrə milli komandamız təyyarə ilə Tbilisidən Bakıya qayıtdı.**

Heydər Əliyev adına Beynəlxalq Hava Limanında idmançıların qarşılanma mərasimi olub. Tədbirdə Gənclər və İdman Nazirliyinin nümayəndələri, media mənsubları, azarkeşlər, ictimaiyyət nümayəndələri iştirak ediblər. Onlar İrəvanda beynəlxalq idman mərasimində Azərbaycnın Dövlət Bayrağına təcavüz aktını kəskin ittiham ediblər.

*"Xalq qəzeti"*

## Hayastanda qocalar evinin sakinləri də orduya çağırılır


Səhifə ⇨ 6


Səhifə ⇨ 7

## Zəngəzur dəhlizi bəşəri layihədir



## İrəvanda erməni ləyaqətsizliyi: Ermənistan bu ləkəni verəcəyi cəza ilə yuya bilər

Səhifə ⇨ 3

# Azərbaycan–İran münasibətləri: tarixin izi ilə keçmişdən gələcəyə gedən yol

Səhifə ⇨ 4

## Azərbaycan 171 ölkəyə qeyri-neft məhsulları ixrac edir


Səhifə ⇨ 7

## Qəssababənzər cərrahlar...


Səhifə ⇨ 8

## Özbəkistanda Natəvanın əsərlərinin təqdimatı

Səhifə ⇨ 11

## Güneyin ədəbi "nəbzi"

Səhifə ⇨ 9



## Təbiətə vurulan zərbə insanlığa açılan atəşdir

Səhifə ⇨ 6

## Ukrayna NATO-ya üzvlüyə ümid bəsləyir


Səhifə ⇨ 10

## Miniatürlərin nağıl dünyası


Səhifə ⇨ 11

# Laçın yolu xoş mərama açıqdır

Səhifə ⇨ 6

# Sahibə Qafarova Qazaxıstan Parlamenti Senatının sədri ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Sankt-Peterburqda Qazaxıstan Respublikası Parlamenti Senatının sədri Maulen Aşimbayev ilə görüşüb.

Söhbət zamanı qeyd olunub ki, dost və qardaş ölkələrimiz arasında münasibətlər uğurlu inkişaf dinamikasına malikdir. Bir çox sahələri əhatə edən əlaqələrimizin inkişafında dövlət başçılarının xüsusi rolu diqqətə çatdırılaraq, vurğulanıb ki, dövlət başçılarımızın sıx münasibətləri ölkələrimiz arasında əlaqələrə mühüm töhfə verir, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafına və daha da gücləndirilməsinə xidmət edir.

Bildirilib ki, Azərbaycan və Qazaxıstan prezidentlərinin son illər qarşılıqlı səfərləri ikitərəfli münasibətlərə müsbət təsirini göstərib. Bu kontekstdə Prezident İlham Əliyevin 2023-cü il aprelin 10-da Qazaxıstana rəsmi səfərinin əhəmiyyəti xüsusi qeyd olunub.

Görüşdə bildirilib ki, ölkələrimiz istər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edir. O cümlədən, TÜRKPA çərçivəsində əlaqələrin əhəmiyyəti diqqətə çatdırılıb.

Tərəflər dövlətlərarası münasibətlərin inkişafında Azərbaycan və Qazaxıstan parlamentlərinin roluna diqqət çəkərək, qanunvericilik orqanlarımız arasında əlaqələrin hazırki səviyyəsinin razılıq doğurduğunu vurğulayıblar. Bildirilib ki, son illərdə parlament rəhbərləri səviyyəsində mütəmadi qarşılıqlı səfərlərin həyata keçirilməsi əlaqələrin inkişafına xüsusi töhfə vermişdir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də geniş fikir mübadiləsi aparılıb.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*

# Azərbaycan və İranın XİN başçılarının telefon müzakirəsi

**Aprelin 14-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının Xarici İşlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı baş tutub.**




Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən bildiriblər ki, telefon danışığı zamanı, nazirlər Azərbaycan və İran arasında ikitərəfli münasibətlərdə mövcud vəziyyəti müzakirə ediblər.

Tərəflər danışıqların davam etdirilməsi və zərurət olacağı təqdirdə ikitərəfli səfərlərin həyata keçirilməsinin mümkün olduğunu bildiriblər.

Nazirlər, eyni zamanda, regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Bayrağımız milli kimliyimiz, qürur mənbəyimizdir

**(əvvəli 1-ci səhifədə)**

Təbii ki, həmin məqamların hamısında sevinmiş, fəxr etmiş, qürur duymuşuq. Ancaq Dövlət bayrağımızın tarixində mənim üçün ən möhtəşəm məqam Prezident İlham Əliyevin Şuşada Azərbaycan Dövlət Bayrağını ucaldığı anda o üçrəngli mənəvi dəyərimizin qarşısında baş əyməsi oldu. Həmin məqamda mən elə bilmişdim ki, Dövlət bayrağımızın qarşısında baş əyən tək Prezident yox, əlli milyonluq azərbaycanlıdır. Mən o zaman yazmışdım ki, Azərbaycanın son iki əsrdəki ən böyük uğurlarından biri məhz Şuşanın işğaldan azad edilməsi və orada Dövlət Bayrağımızın ucaldılmasıdır.

Ancaq bayraqla bağlı qürurverici anlarımız çox olub və hələ çox olacaq. Dövlət başçımız Şuşanın işğaldan azad edilməsindən səkkiz, ermənilərin məğlubiyyət sənədini imzalamasından isə cəmi altı gün sonra Füzulidə Azərbaycan Bayrağını qaldırmışdı. Sonra bayrağımız Ağdam, Laçın, Kəlbəcər, eləcə də, digər şəhər və rayon mərkəzlərimizdə dalğalandı. Ən başlıcası, Füzuli və Zəngilanda inşa edilmiş beynəlxalq hava limanlarının ərazisinə gələn qonaqları onlarca Azərbaycan Bayrağı salamlayır. Bütün bunlar Qafqaza köçürüldükləri gündən bəri Azərbaycan torpaqlarına sahib olmaqdan ötrü dəridən-qabıqdan çıxan ermənilərin ürəyini partlatmasın, neyləsin?

İşğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan Bayrağının ucaldıldığı ilk ünvan Füzuli şəhəri olmuşdu. İnanıram ki, həmin gün Dövlət televiziyasının hadisə yerindən hazırladığı materialdakı iki cümlə heç kəsin yadından çıxmayıb: " Bu görüntülər Azərbaycanın müasir tarixinin ən şanlı səhifələrindəndir. Müzəffər Ali Baş Komandan qəhrəman Azərbaycan Ordusunun işğaldan azad etdiyi tarixi torpağımızda üçrəngli bayrağımızı qaldırdı".

Xatırladaq ki, bugünkü qüdrətli Azərbaycanın Dövlət Bayrağı ilk dəfə rəsmi surətdə 1918-ci il noyabrın 9-da qəbul edilmişdir. Bunu nəzərə alaraq, o cümlədən, Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncam imzalamışdır. Bu sərəncama əsasən, hər il 9 noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

Üçrəngli bayraq ikinci dəfə 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında bərpa olunmuş və Muxtar Respublikanın Dövlət Bayrağı kimi qəbul edilmişdir. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan SSR Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul olunması haqqında qərar qəbul etmiş, onun əsasnaməsini təsdiqləmişdir.

Məlum olduğu kimi, bu tendensiya sonralar daha böyük yaradıcılıqla davam etdirilmişdir. Belə ki, Prezident İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə, 2009-cu il noyabrın 17-də isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncamlar imzalamışdır. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimi olmuşdur.

Ümummilli liderin bizə ərməğan qoyduğu müasir müstəqil Azərbaycanda onun siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin milli ideallara bağlılığı həm də üçrəngli bayrağımıza münasibətdə açıq-aydın görünür. "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında Əsasnamə"yə edilmiş əlavə və dəyişikliklərin təsdiqlənməsi, "Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" Qanunun imzalanması da bu yüksək ehtiramın ifadəsidir.

Dövlət başçımız Bayraq meydanının açılış mərasimindəki tarixi nitqində demişdir: "Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan Bayrağına! Yaşasın, Azərbaycan!"

İrəvanda Azərbaycan Bayrağına göstərilən hörmətsizlik isə ancaq yarasanın Günəşdən qorxması ilə müqayisə oluna bilər. Yarasa Günəşə neyləyə bilər ki?!

*İ.MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*

# İrəvanın bayraq rüsvayçılığı dünya idmanına da hörmətsizlikdir

**İrəvanda Azərbaycan Bayrağınaqarşı açıq təcavüzlə bağlı ölkəmizin Gənclər və İdman Nazirliyi Milli Olimpiya Komitəsi ilə birgə bəyanat yayıb. Sənəddə deyilir:**

"Ermənistanın baş nazirinin iştirak etdiyi mərasimdə belə bir barbarlıq əməlinin törədilməsi və bunun ölkə ictimaiyyəti tərəfindən alqışlanması, həmin əməli törədən şəxsin "qəhrəman" kimi qələmə verilməsi bu dövlətdə etnik nifrətin, rasizmin, ksenofobiyanın, azərbaycanofobiyanın aşkar nümunəsi olmaqla yanaşı, həm də xalqlar arasında sülhü, qarşılıqlı anlaşmanı təbliğ edən idmanın nəcib məqsəd və prinsipləri ilə tam ziddiyyət təşkil edir".

Bəyanatda daha sonra deyilir ki, idmanın belə siyasiləşdirilməsi qətiyyən yolverilməzdir. Ermənistanda belə bir nifrət mühitinin hökm sürdüyü, təhlükəsizliyin təmin edilmədiyi bir şəraitdə psixoloji təzyiqlərə görə Azərbaycan idmançılarının yarışlarda normal şəkildə iştirakı mümkünsüzdür. Bütün bunlar nəzərə alınaraq, Azərbaycan idmançılarının vətənə qayıtması barədə qərar qəbul edilib. Ermənistan onların təhlükəsiz şəkildə qayıtmasını təmin etməlidir.

Sonda bildirilir: "Biz beynəlxalq ictimaiyyəti, beynəlxalq idman təsisatlarını bu barbarlıq əməlini kəskin şəkildə pisləməyə çağırırıq. Biz həm də Avropa Ağır Atletika Federasiyasını Ermənistana qarşı sanksiya tətbiq etməyə çağırırıq. Baş vermiş bu hadisə Ermənistanın beynəlxalq idman yarışlarını keçirmək, idmançıların təhlükəsizliyini təmin etmək iqtidarında olmadığını göstərir".

*"Xalq qəzeti"*

# Bayrağımızın yandırılması ilə bağlı cinayət işi başlanıb

**Aprelin 14-də Ermənistanın paytaxtı İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində milli nifrət və düşmənçiliyin salınmasına yönəlmiş nümayişkaranə hərəkətlərlə Azərbaycan Bayrağı yandırılıb.**




Ermənistanda Azərbaycana qarşı etnik zəmində nifrət və düşmənçiliyin təcəssümü olan həmin faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 12.2, 283.2.1 (zor tətbiq edilməklə milli nifrət və düşmənçiliyin salınması), 12.2, 283.2.2 (qulluq mövqeyindən istifadə etməklə milli nifrət və düşmənçiliyin salınması) və 12.2, 324-cü (Azərbaycan Respublikasının Dövlət Bayrağı barədə təhqiredici hərəkətlər) maddələri ilə cinayət işi başlanıb.

Azərbaycan Respublikasının Baş Prokurorluğunun mətbuat xidmətindən bildirilib ki, milli nifrət və düşmənçiliyin salınmasına yönəlmiş bu cinayət əməlini törədən Aram Nikolyan və digərlərinin milli və beynəlxalq məhkəmə məsuliyyətinə cəlb edilmələri məqsədilə xarici ölkələrin müvafiq orqanlarına müraciətlərin göndərilməsi və onların cəzalandırılmaları üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi təmin olunacaq.

İstintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcək.

"Azərbaycan Respublikası "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunmuş Beynəlxalq konvensiyaya və bu qəbildən olan bütün əməllərin cəzalandırılmalı olması ilə bağlı prinsiplərə sadiqliyini bir daha nümayiş etdirir, eləcə də beynəlxalq ictimaiyyəti Ermənistanı kəskin qınamağa, o cümlədən Ermənistan tərəfindən beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl olunmasını təmin etməyə çağırır", – məlumatda qeyd edilib.

# XİN: Bayrağımızın yandırılması ölkəmizə nifrətdən qaynaqlanır

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Bayrağının Ermənistanda ağırlıqqaldırma üzrə Avropa çempionatı zamanı yandırılması ilə bağlı məsələyə münasibət bildirib.**



BU barədə XİN-in Mətbuat Xidməti İdarəsindən məlumat verilib.

Məlumatda deyilir: "Aprelin 14-də Ermənistanın paytaxtı İrəvanda keçirilən ağırlıqqaldırma üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağı yandırılıb.

Ermənistanda Azərbaycana qarşı etnik zəmində kök salmış nifrətin təcəssümü olan bu aktı qətiyyətlə pisləyirik.

Ermənistan hökuməti tədbiri təşkil edən tərəf kimi bu kimi hadisələrin qarşısını vaxtında almalı və müvafiq təhlükəsizlik tədbirləri görməli idi. Bu aktı törətmiş şəxs ilkin olaraq saxlanılsa da, sonradan təmtəraqlı alqışlarla azad edilməsi ciddi narahatlıq doğurur. Ermənistan tərəfi nifrət zəminində bu cinayəti törətmiş şəxsi dərhal məsuliyyətə cəlb etməlidir.

Beynəlxalq Ağırlıqqaldırma Federasiyası, Beynəlxalq Olimpiya Komitəsi və digər aidiyyəti beynəlxalq qurumlar tərəfindən idman yarışları üzrə qəbul edilmiş davranış qaydalarının kobud pozuntusu olan bu hərəkəti qəti şəkildə pisləməyə, qaydalar çərçivəsində təşkilatçılara qarşı müvafiq cəza tədbirlərinin görülməsinə çağırırıq".

# Azərbaycanın idman QHT-lərinin beynəlxalq ictimaiyyətə müraciəti

**İdman sahəsində fəaliyyət göstərən Azərbaycan QHT-ləri Ermənistanda Dövlət Bayrağımızın yandırılması ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb.**

Müraciətdə deyilir:

"Biz – idman sahəsində fəaliyyət göstərən Azərbaycan qeyri-hökumət təşkilatları olaraq Ermənistanın paytaxtı İrəvan şəhərində ağır atletika üzrə Avropa çempionatının açılış mərasimi zamanı baş vermiş xoşagəlməz hadisəyə beynəlxalq idman ictimaiyyətinin diqqətini cəlb etmək məcburiyyətindəyik. Tədbirin təşkilatçılarından biri Azərbaycan bayrağını yandırıb.

Biz həyatımızı bərabərlik, inklüzivlik və qarşılıqlı hörmətə xüsusi diqqət yetirməklə idmanın ümumbəşəri dəyərlərinin təşviq olunmasına həsr etmişik. İstənilən idman yarışında qalib gəlmək mühüm məsələdir, lakin vacib olan təkcə bu deyil.

Biz narahatlığımızı və qəzəbimizi ifadə etmək üçün söz tapa bilmirik. Burada söhbət təkcə hər bir xalq üçün ən müqəddəs olan Dövlət Bayrağından deyil, bütövlükdə idmanın fundamental dəyərlərinə hörmətsizlikdən gedir.

Bu həftə İrəvana səfər edən idmançılarımız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini 30 il ərzində işğal altında saxlayan ölkənin paytaxtına getdiklərini yaxşı bilirdilər. Buna baxmayaraq, Azərbaycan Ermənistanda keçiriləcək çempionatda iştirak etmək qərarına gəldi, çünki biz inanırdıq ki, idmanın əsl ruhu ölkələrimiz arasında gərgin münasibətlərin girovuna çevrilməməlidir. Yarış iştirakçılarının təhlükəsizliyinə zəmanət verən təşkilatçıların çoxsaylı bəyanatları da bizi ruhlandırmışdı.

Turnirdə normal şəraitin təmin edilməsinə məsul olan şəxsin bayrağı təhqir edən barbar hərəkəti iyrənclikdən başqa bir şey deyil. Azərbaycanın sülhü bərqərar etməyə çalışdığı bir vaxtda Ermənistanda müəyyən dairələr sülh üçün şans verməməkdə qərarlıdırlar.

Sizi idmanı öz nifrət mesajlarını çatdırmaq üçün alətə çevirmək istəyənlərə qarşı bizimlə həmrəy olmağa çağırırıq".

*"Xalq qəzeti"*



# O bayrağın altından keçəcəyiniz gün uzaqda deyil, cənablar!

**Əslində, beynəlxalq tədbirdə bayrağımızı yandırmaqla ermənilərin cılız xislətini nümayiş etdirən dizayner-dığanın bu hərəkətini kütlənin “qəhrəmanlıq” kimi qələmə verməsi, bu davranışı alqışlaması hayların sivil millət olmadığını bir daha dünyaya göstərmiş oldu.**

11 aprel təxribatının ardınca haylar Azərbaycana qarşı daha bir vandallıq aktı törədiblər. İrəvanda keçirilən Ağır Atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycanın Bayrağı yandırılıb. İdman-konsert kompleksində təşkil olunan təntənəli açılış mərasiminin gedişində tədbirin dizayneri Aram Nikolyan Azərbaycan Bayrağını idmançımızın əlindən qaparaq ona od vurub və qaçaraq zaldan çıxarıb. Oxşar təxribat zala qardaş Türkiyənin bayrağı gətirilən zaman da baş verib. Bu dəfə erməni azarkeşlər zalda fit çalıblar. Təkilatçılığına və təhlükəsizliyinə görə rəsmi İrəvanın birbaşa məsuliyyət daşıdığı beynəlxalq idman tədbirində törədilən bu vandallıq aksiyasını dünyanın 40 ölkəsindən 389 idmançı canlı, milyonlarla tamaşaçı vizual izləyib.

### Vətənsizlərdə bayraq duyğusu olmur

Nə fərd, nə də dövlət səviyyəsində torpaq və bayraq hissi olmayanın “milləti millət edən” bu atributlara barbar münasibətinə də məhz bu konteksdən yanaşmaq lazımdır. Bu həqiqəti hayların son iki yüz il ərzində “miatsum” fəaliyyəti dəfələrlə ortaya çıxarıb. Köçürüldükləri ərazilərdə erməni xaçlı daş parçası basdıran, üstündən əlli, yüz il keçəndən sonra o daşı çıxarıb özlərinə yalançı tarix uyduran, ardınca həmin əraziyə iddia edən bir qövmdə yurd, vətən duyğusu, bayraq hissi necə formalaşa bilər? Dialektikanın qanunları kimi, tarixi reallıq da bunun mümkünsüz olduğunu təsdiqləyir. Azərbaycan XİN Ermənistanda Ağır Atletika üzrə Avropa çempionatının açılışı zamanı bayrağımızın yandırılması ilə bağlı açıqlama yayıb. Məlumatda deyilir: “Ermənistanda Azərbaycana qarşı etnik zəmində kök salmış nifrətin təcəssümü olan bu aktı qətiyyətlə pisləyirik. Ermənistan hökuməti tədbiri təşkil edən tərəf kimi bu kimi hadisələrin qarşısını vaxtında almalı və müvafiq təhlükəsizlik tədbirləri görməli idi. Bu aktı törətmiş şəxs ilkin olaraq saxlanılsa da, onun sonradan təmtəraqlı alqışlarla azad edilməsi ciddi narahatlıq doğurur. Ermənistan tərəfi nifrət zəminində bu cinayəti törətmiş şəxsi dərhal məsuliyyətə cəlb etməlidir”. Ermənistan elektron mediasının yazdığına görə, 2013-cü ildən İctimai televiziyanın əməkdaşı olan Nikoyan yarışın açılış mərasiminə “mütəxəssis qismində” dəvət olunub və əvvəlcədən hazırlaşdığı hərəkətində “cinayət tərkibi olmadığından” istintaq təcridxanasından sərbəst buraxıldıqdan sonra canlı efirə çıxaraq bunları deyib: “Mən İrəvanda Azərbaycan Bayrağının dalğalanmasını istəmirdim. Və heç kim fikirləşməməlidir ki, ermənilərə hansısa şəraitə uyğunlaşmağı öyrədə bilər”. Bəli, hayları düşdükləri şəraitə uyğunlaşdırmağa ehtiyac yoxdur, çünki onlar yeni məkana və coğrafiyaya o qədər çevik adaptasiya olurlar ki, az sonra özlərini “evsahibi” kimi aparmağa başlayırlar. Eynən Qarabağda olduğu kimi.

### Erməni nazir müavininin qırmızı yalanı

Ermənistanın paytaxtı İrəvanda keçirilən Ağır Atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağının yandırılması ilə bağlı ölkəmizin Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi birgə bəyanat yayıblar. Sənəddə bildirilib ki, “Ermənistanda belə bir nifrət mühitinin hökm sürdüyü, təhlükəsizliyin təmin edilmədiyi bir şəraitdə psixoloji təzyiqlərə görə, “Azərbaycan idmançılarının yarışlarda normal şəkildə iştirakı mümkünsüzdür”. Bütün bunlar nəzərə alınaraq, Azərbaycan idmançılarının Vətənə qayıtması barədə qərar qəbul edildiyi” göstərilir.

“Caliber.Az” saytının əldə etdiyi məlumata görə, Azərbaycan yığması üçün gecə saat 2.55-də İrəvan–Antalya aviareysinə əvvəlcədən biletlər sifariş verilsə də, haylar “təhlükəsizlik” bəhanəsilə idmançılarımızı qaldıqları oteldən buraxmayıblar. Yəni, yarışda iştirakdan imtinaya görə yığmamızın üzvlərini faktiki olaraq girov saxlayıblar. Axı, beynəlxalq miqyaslı tədbirin yarıtmaz təşkilatçılığı bir yana, üstəlik, yarışın proqramının və reqlamentinin pozulmasına görə Ağır Atletika üzrə Ümumdünya və Avropa federasiyalarının prezidentləri Muhammed Calud və Antonio Konflittinin hüzurunda da biabır olublar.

Bəs, görəsən, bu mötəbər qonaqlar açılışında şəxsən iştirak və çıxış etdikləri yarışda törədilən siyasi təxribatı, biabırçılığı baş nazir Nikol Paşinyanın nəzərinə çatdırıblarmı? Bayrağımızı yandıran Aram Nikolyan polis bölməsinə aparılsa da, az sonra sərbəst buraxılıb. Təxribatçının vəkilinin ilkin ehtimalına görə, ona qarşı cinayət işi qaldırılmayacaq.

Nümunəyə baxıb ibrət götürün! Hayastan mediasının yaydığı son məlumatlara görə, ölkənin elm-təhsil, mədəniyyət və idman nazirinin müavini Karen Giloyan “Azərbaycan idmançılarının artıq Ermənistan sərhədini keçdiklərini” bildirib. Azərbaycan tərəfinin bu qərarının “idman etikası nöqteyi-nəzərindən anlaşılmazlığa səbəb olduğunu” deyən nazir müavini, bu həyasızlığı azmış kimi, utanmazcasına İrəvanın yarışda təhlükəsizliyin bütün standartlarına riayət etdiyini diqqətə çatdırır: “İrəvana gələn idmançıların heç bir problemi yaranmayıb və yarana da bilməzdi”. Əgər Hayastanın nazir müavini kameranın gözünə baxa-baxa qıpqırmızı yalan danışırsa, deməli, onun təmsil etdiyi kabinetin başında duran da eyni düşüncənin sahibidir. Hesab edək ki, baş nazirləri siyasətdə piyada olduğu kimi, etika və mədəniyyət sarıdan da kasaddır. Bəs nümunədən görüb-götürməyə nə deyəsən? 2015-ci ildə Bakıda təşkil olunmuş Birinci Avropa Oyunlarında boks yarışında ikinci pilləyə qalxmış Ukrayna yığmasının erməni əsilli idmançısına gümüş medalı Prezident İlham Əliyev şəxsən təqdim etdi və qalibin əlini sıxdı. İdmandan siyasi məqsədlər üçün istifadənin nə vaxtsa kiməsə dividend gətirdiyini görən olmayıb. Erməni dığası bayrağımızı yandırmaqla, daşnak tör-töküntüləri onu alqışlamaqla nəyə nail olacaqlar? Bəlkə sualı: Bu, nəyin göstəricisidir? – şəklində qoyaq? Əlbəttə ki, bu, etnik nifrətin, erməni rasizminin, Azərbaycanofobiyanın aşkar nümunəsidir.

*Ekspert rəyi*



**Rasim MUSABƏYOV, politoloq:**

– İstənilən ölkədə hansısa işi görməyə həmişə hazır olan insanlar var. Amma burada ən vacib məqam ondan ibarətdir ki, Ermənistan bu yarışla bağlı öz üzərinə müəyyən məsuliyyət götürüb. Belə xoşagəlməz hadisələrin, təxribatların baş verməməsi üçün zəruri təhlükəsizlik tədbirlərinin görülməsi də İrəvanın borcu idi. Onlar buna ciddi yanaşmayıblar. Yarışın açılış mərasimində hansısa yaramaz bayrağımızı götürüb yandırması ilə Azərbaycana nə edə bildi? Heç nə! Əgər nəsə edibsə, o da ermənilərin özlərinə qarşı yönəlib. Yənu bununla o, beynəlxalq tədbirin təşkilatçılarının məsuliyyətsizliyini, bacarıqsızlığını nümayiş etdirmiş oldu. Küçədə, polis idarəsinin qarşısına toplaşan ermənilərin bu hərəkətə reaksiyası həm də onu göstərdi ki, haylar, özlərini təqdim etməyə çalışdıqları kimi, heç də sivil millət deyillər. Onların əksəriyyəti həmin yaramazın tayıdır.

Bütün hallarda bu hadisə onu göstərir ki, Ermənistan nə bir dövlət, nə də ki, cəmiyyət kimi sağlam deyil, xəstədir. Özlərini mədəni, kübar kimi qələmə verməyə çalışmaları isə, sadəcə, imitasiyadır. İndi hansısa yaramaz o hərəkətilə Azərbaycana heç nə etməyib. Nə edibsə, özlərinə edib.

Ölkələr, xalqlar arasında sülhə, xoşməramlı anlaşmaya xidmət edən idmanın nəcib missiyasını, təməl prinsiplərini miskin hay xisləti ilə bulaşdıra bilməzsiniz. Qapalı idman zalında alovlanan o bayraq indi Ermənistanla sərhədimizdəki bütün yüksəkliklərdə, həm də uzaqdan udquna-udquna baxdığınız Şuşa qalamızın zirvəsində dalğalanır. Üçrəngli, ulduzlu-ayparalı, dövlətimizin və qürurumuzun rəmzi olan bayrağımızın altından sual işarəsinə dönüb, boynunuzu əyərək keçəcəyiniz günlər uzaqda deyil. Heç uzaqda deyil.

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

# İrəvanda erməni ləyaqətsizliyi: Ermənistan bu ləkəni verəcəyi cəza ilə yuya bilər

**Ermənistanın paytaxtı İrəvanda keçirilən ağırlıqqaldırma üzrə Avropa çempionatının açılış mərasimində, ssenariyə uyğun olaraq, meydana gətirilən Azərbaycan Bayrağının yandırılmasından söz açacağıq.**



Əvvəla, onu deyək ki, sözügedən hadisə Ermənistan cəmiyyətində ölkəmizə münasibətdəki düşmənçilik mövqeyinin, belə demək mümkünsə, parlaq təzahürüdür. Əlbəttə, buna təəccüblənmədik. Düşmənçiliyi isə xüsusi vurğulamağımızın səbəbi var. Məsələ burasındadır ki, Ermənistan hakimiyyətinin təmsilçiləri, o cümlədən, baş nazir Nikol Paşinyan müxtəlif beynəlxalq platformalardakı çıxışlarında ölkəmizdə ermənilərə qarşı düşmən münasibətin olduğunu qabardır, öz aləmlərində xal qazanmağa çalışırlar, bizi gözdən salmaq yolu tuturlar. Paşinyan buyurub öz ölkəsindəki hadisəyə nəzərən “xal” qazana bilər!

Bəli, erməni təbliğat maşını hər zaman azərbaycanlıların, guya, barbar olduqlarını dünyaya nümayiş etdirir və çalışırlar ki, “fikirləri” beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunsun. Məsələni, hətta, xüsusi strategiya halına da gətiriblər. Mövcud fonda ermənilərin, guya, sivil, dünya mədəniyyətinə töhfələr vermiş bir xalq obrazı yaradılır, təqdimatı aparılır. Ermənistan dövləti və siyasiləri də buyurub mötəbər yarışda Azərbaycanın Dövlət Bayrağına həqarətin, nə dərəcədə sivillik olduğuna aydınlıq gətirsinlər...

Təbii, biz demirik ki, Azərbaycanda Ermənistan bayrağı yandırılmayıb. 44 günlük müharibə zamanı ölkənin bayrağını, az qala, hər kəs öz avtomobilinin arxasına bağlayıb yollarda sürüyürdü. Ancaq bu hərəkətlər, ümumən, müharibənin ruhundan irəli gəlirdi. İndi müharibə yoxdur. Ancaq Ermənistanda Azərbaycan Bayrağı yandırılır. Özü də beynəlxalq idman tədbirində. Yəni siyasətə daxil olmayan bir müstəvidə. Azərbaycanda isə erməni idmançılara qarşı heç vaxt belə münasibət göstərilməyib. Bu baxımdan, 2015-ci ildə keçirilmiş I Avropa Oyunları ən yaxşı nümunədir. O vaxt Azərbaycan Prezidenti İlham Əliyev fəxri kürsüdə yer almış Ermənistan idmançısının əlini sıxmış, ona medal təqdim etmiş, habelə, əl hərəkətləri ilə zaldakı ajiotajı sakitləşdirərək erməni idmançının da alqışlanmasını təmin etmişdi. Dövlətimizin başçısı idmanla siyasətin qarışdırılmamasının örnəyini göstərmişdi.

Bəli, hansısa erməninin Azərbaycana və azərbaycanlılara, bütövlükdə, türklərə nifrət bəsləməsi mümkündür. Hər nə qədər olsa, bizə qarşı hiddət və qəzəb hissi ermənilərin xislətindən, tipik xəstəliyindən irəli gəlir. Belə bir deyim var: “Erməni anaları öz övladlarına türklərin düşmən olduğunu beşikdəcə anladırlar”. Heç şübhəsiz, İrəvanda bayrağımızı yandıran da beşikdə “tərbiyə” görmüş dığalardan biridir. Anası tərbiyə verib. Ailədə ata olmayanda və ya atanın kimliyi bilinməyəndə vəziyyətin belə mürəkkəb şəkil almasında təəccüblü heç nə yoxdur...

Ancaq Ermənistanda dövlət adlı bir şey var. O dövlət, prinsip etibarilə, bütün məqamları hesablamalıdır. Onun düşünən beyin mərkəzi olmalıdır. Düşünməlidir ki, nüfuzlu idman yarışında Azərbaycan Bayrağının yandırılması, eləcə də Türkiyə Bayrağı meydana gətiriləndə fitə basılması, hay-küy qoparılması, ilk növbədə, təşkilatçının özü üçün zərərlidir. Hər halda, Ermənistanın müvafiq qurumu əvvəldən bildirməliydi ki, hazırkı vəziyyətlə əlaqədar Azərbaycan idmançıları İrəvana gəlməsinlər. Yəni, bu müstəvidə müəyyən əsaslandırma aparılması mümkün idi. Dünya dağılmazdı. Bir idman yarışına qatılmasaq da olardı. Ancaq indi, ölkəmizin idmançıları Ermənistandadır və onların gözü qarşısında dövlətimizin bayrağı yandırılır. Sual yaranır: azərbaycanlı atletlərin İrəvana gəlmələrinə etiraz olunmamışdı ki, onlara təmsil etdikləri dövlətin bayrağının yandırılmasını izlətdirsinlər?!

Məsələni belə kateqorik qoymağımızın səbəbi var. Əlbəttə, Ermənistanın aidiyyatı hakimiyyət orqanı dünyaya xoş gəlməməsindən çəkinib deməzdi ki, Azərbaycan idmançıları yarışa qatılmasınlar. Ancaq o zaman, təşkilatçılar, mütləq qaydada, auditoriyanı nəzərə almalı idilər. Bilməli idilər ki, açılış mərasiminin keçirildiyi zalda anasından azərbaycanlılara və türklərə nifrət bəsləmək tərbiyəsi görmüş insancıqlar toplaşıblar. Yəni, hər an fors-major yarana bilər. Bu, ciddi şəkildə nəzərə alınmırsa, deməli, Azərbaycan Bayrağının yandırılması planlaşdırılmış hadisədir. Heç şübhəsiz ki, məhz belədir.

Aydın görünürdü ki, hansısa atasından bixəbər məxluq asanlıqla səhnəyə daxil oldu, bayrağı götürdü və ona od vurdu. Ardınca, guya, mühafizəçilərdən kiminsə onu neytrallaşdırmaq istəyi, arxasınca qaçması səhnəsi. Xeyri yoxdur, çünki həmin zat öz işini gördü, “şousunu” göstərdi.

Düşünülə bilər ki, bu “şou”nun Ermənistan dövlətinə zərəri var? Əlbəttə, zərəri var. Ən azı, ağırlıqqaldırma üzrə beynəlxalq qurumlar və turnirin xaricdən olan təşkilatçıları məsələni nəzərə alacaqlar. Azərbaycan tərəfi də mövcud istiqamətdə müvafiq işlər aparacaq və çalışacaq ki, hadisə pislənilsin, Ermənistana hansısa məhdudiyyətlər tətbiq edilsin və sair. Ancaq nəzərə alsaq ki, olay planlaşdırılıb və bu, gün kimi aydındır, o zaman verilən mesaj üzərində dayanaq. Onu da nəzərə alaq ki, açılış mərasimində baş nazir N.Paşinyanın özü də iştirak edirdi. Deməli, “mesaj” onun gözü önündə verilirdi. Tam mümkündür ki, “ssenari” baş nazirin aparatında hazırlanıb. Nə qədər olmasa da, iqtidara küçələrdə iğtişaşlar, yanğınlar törətməkdən gəliblər. Yəni, bu işdə “ustadırlar”.

Bəli, Ermənistan dövləti dünyaya göstərmək istəyir ki, ermənilər azərbaycanlılara qəzəb hissi ilə yanaşırlar. Nəticə: Qarabağ ermənilərinin Azərbaycanın yurisdiksiyası altında yaşamaları mümkün deyil. Həm də ona görə mümkün deyil ki, onların, xüsusən, Ermənistandakı soydaşları azərbaycanlılara nifrət bəsləyirlər. Qarabağ erməniləri isə fikirlərini ötən il bildiriblər. Bu mənada, Xankəndidə Paşinyan iqtidarı tərəfindən Azərbaycana qarşı təşkil olunmuş etiraz mitinqlərini yada salaq...

Sonda bir məqama da diqqət yetirək. Vurğuladığımız kimi, baş nazir N.Paşinyan da Azərbaycan Bayrağına həqarətli yanaşmanın baş verdiyi məlum açılış mərasimində idi. O, toplantıda çıxış da etdi və bildirdi ki, ağırlıqqaldırma üzrə Avropa çempionatının Ermənistanda təşkili ölkənin üzərinə düşən ağırlıqları qaldırmaq əzminin nümayişidir.

Bəli, nümayiş Azərbaycan Bayrağının yandırılması idi və bunun ağırlığı, heç şübhəsiz, olacaqdır. Ermənistan hakimiyyəti Azərbaycanla münasibətlərin normallaşmasına, Cənubi Qafqazda sülhə əngəl törətməklə, qeyri-konstruktiv mövqe tutmaqla, üzərinə çox böyük ağırlıqlar götürməkdədir. Xüsusən də son dövrlərdə. Həmin ağırlıqların üstünə bayraq insidenti də gəldi. Görünür, Paşinyan və onun “vələdüzzina” Ermənistanı ağırlıqların altından çıxa bilməyəcəyinin fərqində deyil. Söhbət idmandan və ağırlıqqaldırma üzrə Avropa çempionatından gedirsə, o zaman, obrazlı desək, bu idman növündəki daşların Paşinyanın başına düşəcəyi qaçılmazdır.

***Ə.RÜSTƏMOV,***
***“Xalq qəzeti”***

# AAAF idmançılarımıza tam həmrəylik və dəstək ifadə edib




**Avropa Ağır Atletika Federasiyası ötən gün Ermənistanın paytaxtı İrəvanda atletika üzrə Avropa çempionatının açılış mərasimi zamanı Azərbaycan Bayrağının yandırılmasını qəti şəkildə pisləyib. Bu barədə federasiya bəyanat yayıb.**

Bəyanatda bildirilib: “Avropa Ağır Atletika Federasiyası son dərəcə ciddi və təəssüf doğuran bu jesti idman dəyərlərinin bütövlüyünə və ədalətli oyunun universal prinsiplərinə dair hücum kimi nəzərdən keçirir.

Avropa Ağır Atletika Federasiyası bu hadisəyə dərhal reaksiya verib, təşkilat komitəsinə mövqeyini bildirib. Federasiya daim Azərbaycan Respublikasından olan nümayəndə heyətinə, idmançılara, məşqçilərə və vəzifəli şəxslərə tam həmrəylik və dəstək ifadə edir".

Federasiya Təşkilat Komitəsindən təcili tələb olunan əlavə tədbirlərin həyata keçirilməsini izləyəcək.

Avropa Ağır Atletika Federasiyası baş verənlərə təəssüf edib. Qeyd edilib ki, federasiya üzvləri Azərbaycan idmançıları Ermənistanı tərk edənə qədər heyət üçün bütün təhlükəsizlik şəraitinin təmin olunmasında birbaşa iştirak edib.

***“Xalq qəzeti”***

# Azərbaycan–İran münasibətləri: tarixin izi ilə keçmişdən gələcəyə gedən yol

**Yaşadığımız müasir dövrdə olduqca ciddi siyasi-iqtisadi proseslər cərəyan edir. Bir çoxları baş verənləri dünyanın yeni nizamının formalaşması, beynəlxalq münasibətlər sisteminin yenidən inşa olunması ilə izah edirlər və qlobal güclərdən tutmuş kiçik ölkələrə kimi bütün dövlətlərin bu nizamda mümkün qədər əlverişli mövqelərə sahiblənmək istədiklərini düşünürlər. Ölkələrin daxilində baş verən kataklizmlər bəşər övladı üçün təəccüb doğurmayan proses olsa belə, qısa tarixi mərhələdə dövlətlərarası münasibətlər kontekstində baş verən sürətli dəyişikliklər siyasi analitika və proqnozlaşdırma üçün, sözün əsl mənasında, başağrısına çevrilib. Çünki son bir neçə ildə əski düşmən dövlətlər arasında nəzərəçarpacaq yaxınlaşma və hətta tərəfdaşlıq münasibətlərinin formalaşması bir tərəfdən, keçmiş müttəfiqlərin, hətta qardaş xalqların isə bir-birinə qənim kəsilməsi isə digər tərəfdən bir o qədər də asan izah olunan məsələlər deyil.**

Vaxtilə yaxın dost və mehriban qonşular olan Azərbaycanla İran arasında münasibətlərin gərginlik dövrünə qədəm qoyması da bu qəbildən olan hallardan biridir. Rəsmilərin sərt bəyanatları, hərbçilərdən tutmuş deputatlara və ekspertlərədək, mediadan tutmuş sosial şəbəkələrdəki fəallara qədər geniş arealda müşahidə olunan qarşılıqlı ittihamlar heç də xoşagələn hal deyil.

AZƏRTAC Azərbaycan–İran münasibətlərinin tarixinə və bu tarixin izi ilə keçmişdən gələcəyə gedən yola nəzər salır.

Bir neçə gün öncə Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov ilə iranlı həmkarı Hüseyn Əmir Abdullahian arasındakı telefon danışıqlarında da bəhs etdiyimiz problemlər müzakirə edilib, situasiyadan çıxış yolları aranıb. Bəli, rəsmilər də yaxşı dərk edirlər ki, ölkələrimizin mehriban qonşuluq və əməkdaşlıqdan savayı seçimi yoxdur: bu, tarixi, siyasi, iqtisadi və s. baxımından zərurətdir. Səbəb sadədir: Azərbaycanla İran dünya coğrafiyasında və siyasi münasibətlər arealında biri-biri ilə tarixi, mədəni və s. bağlara malik dövlətlərdir.

Tarixin izi ilə gedərkən, biz İranın dövlətçilik ənənələrinin formalaşmasında, ölkənin inkişafında və qüdrətlənməsində, mədəni tərəqqisində azərbaycanlıların, həqiqətən də, böyük rol oynadığının şahidi oluruq.

Azərbaycanlıların müasir İran ərazisində hələ İslamın qəbulundan əvvəl yaşamış əcdadları IV əsrdən başlayaraq yaşayış məntəqələri formalaşdırmaqla yanaşı, hakimiyyətin və dövlətçiliyin də əsasını qoymağa başlamışdılar. Fars tarixçiliyində və ədəbiyyatında Əfrasiyab şah kimi qeyd edilən xaqan Alp Ər Tunqa ("Təbakəti Nəsəri" və "Divanı Lügatit-Türk") müasir İran ərazisində ilk azərbaycanlı hökmdar olub. Onun nəslindən olan sacilər, qəznəvilər və səlcuqlar sonradan İranla yanaşı, qonşu ölkələri də idarə ediblər. Daha sonra isə Atabəylər, Elxanilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular dövlətləri yaranıb ki, onları idarə edən azərbaycanlı hökmdarlar İranın hakimi-mütləqləri olublar.

İranın çiçəklənmə dövrü Sultan Mahmud Qəznəvinin hakimiyyəti illərinə düşür. Sultan Mahmud Hindistana 17 dəfə yürüş edərək, nəhayət, onun fəthinə nail olub. Qara Yuluq Osman bəydən sonra taxta oturmuş Uzun Həsənin dönəmində isə Ağqoyunlular Xorasandan Anadoluya, Qafqazdan Ərəbistan dənizinə qədər böyük bir ərazinin sahibi olublar.

1501-ci ildə Şah İsmayıl Xətainin başçılığı ilə yerli tayfaların Anadolu ətrafında birləşməsi və Ağqoyunlu dövlətinin dağılması ilə Təbrizdə elan olunan Səfəvilər sonradan xanədana çevrildi, 1736-cı ilədək ölkəni idarə etdi. Həmin sənədə Əfşarlar sülaləsinin yetirdiyi böyük azərbaycanlı Nadir şah səltənətinin sərhədlərini Hindistanın Dehli şəhərinədək genişləndirmişdi. Məhz Nadir şah Dehlinin fəthindən sonra əldə etdiyi nəhəng xərac sayəsində ölkəsində tam üç il ərzində vergiləri faktiki olaraq ən aşağı səviyyəyə endirmiş, İranın ağır yaralarını sağaltmışdı.

1747-ci ildə Nadir şahın öldürülməsindən sonra hakimiyyət uğrunda davam edən uzun mübarizədən sonra taxta çıxan Ağa Məhəmməd şah Qacar 1796-cı ildə paytaxtı Tehran olan Qacarlar dövlətini qurmuşdu. Qacarlar ta 1925-ci ilədək – Pəhləvi sülaləsi hakimiyyətə gələnədək İranı idarə ediblər.

Ümumiyyətlə, tarixə nəzər salsaq və məxəzlərə üz tutsaq (məsələn, Əbubəkr əl Tihrani əl İsfəhaninin "Kitabi Diyarbəkiyə"si) müasir İranda yaşayan azərbaycanlıların əcdadlarının indiki Şimali və Cənubi Azərbaycanla yanaşı, Ön Asiyanın ən qədim sakinlərindən olduqlarını görərik. Səccadilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər və s. dönəmlərini də yada sala bilərik.

İranda İslam inqilabına qədər silahlı qüvvələrdən tutmuş, ucqar əyalət bələdiyyələrinədək praktiki olaraq dövlət ərkanının bütün səviyyələrində, cəmiyyətin bütün tabanlarında soydaşlarımız əhəmiyyətli şəkildə təmsil olunublar. İranın sonuncu hökmdarı Məhəmməd Rza şahın xanımı, tarixə "Fərəh Diba" kimi düşmüş Fərəh Təbatai Pəhləvi də əslən azərbaycanlıdır.

Azərbaycanlıların İranın siyasi, mədəni və sosial həyatında əlahiddə genişmiqyaslı rolu olub və bu rol indi də həddən ziyadə ciddidir. Təbii ki, çağdaş İranın yerləşdiyi ərazinin etnokultural və antropoloji məcazları ümumi bəşər mədəniyyəti ilə tarixinin inkişafında əhəmiyyətli yer tutub.

İranın İsfahan şəhərinin mərkəzindən axan Zayəndə çayının üzərində tarixi "Si o se pol" körpüsü var. Bu körpü yerli insanlarla yanaşı, İrana gələn turistlərin də diqqətini cəlb edir. ("Si o se pol" "33 tağı olan körpü" kimi tərcümə edilir). İsfahanın mühüm tarixi abidəsi və insanların sevimli istirahət yeri olan bu körpü ölkədə çox məşhurdur. Lakin İranda çox az adam bilir ki, bu körpü XVII əsrdə Səfəvi dövlətinin şahənşahı II Şah Abbasın vəziri Azərbaycan əsilli Allahverdi xan tərəfindən tikilib. Körpünün inşasına 1599-cu ildə başlanılıb və 1602-ci ildə başa çatdırılıb. İtalyan səyyah Petro Della Valle bu körpünü Romadakı məşhur körpülərlə müqayisə edib. Bildirib ki, "Allahverdi xan" körpüsü həm uzunluğuna, həm də eninə görə Romadakı körpülərdən bir neçə dəfə böyükdür. Körpü quruluşuna görə çoxfunksiyalı xarakter daşıyır. Burada şah üçün xüsusi yer ayrılmışdı. Şah əlamətdar günlərdə burada əyləşərək şəhərdəki mərasimləri seyr edirmiş.

İran mədəniyyəti ilə sivilizasiyasının formalaşmasında, indiki modeli almasında hələ "Avesta"da adı keçən "İranşəhər" və ya "İranvic" coğrafi arealının böyük qismini təşkil edən, sonradan bəşər tarixinə "azərbaycanlıların torpağı" kimi düşən məkanın önəmini təkzib etmək mümkün deyil.

Azərbaycanın İranın sənətinə və mədəniyyətinə təsiri genişmiqyaslı olduğu qədər, dərin və hərtərəflidir. İndiki İranda muğam ifaçılığının inkişafında və professional şəkil almasında məhz şəhərlərimizdə yaradılmış ədəbi və musiqi məclisləri böyük rol oynamışdı. Onlardan ən məşhuru Şuşada "Məclisi-Fəramuşan", "Məclisi-Üns", Musiqiçilər Cəmiyyəti, Şamaxıda "Beytüs-səfa" və Mahmud ağanın musiqi məclisi, Bakıda "Məcmə-üş-şüəra", Gəncədə "Divani-hikmət", Ordubadda "Əncümən-üş-şüəra", Lənkəranda "Fövcül-füsəha" və s. Olublar. Əslən azərbaycanlı olan, İranda ilk dəfə müasir təlim-təhsil üsullarını tətbiq etmiş Hacı Mirzə Həsən Mehdi oğlu 1888-ci ildə Təbrizdə "Mədrəseyi-Rüşdiyyə" adlı təhsil müəssisələrini (İranın ilk müasir təhsil müəssisələri) təsis edib. Bu münasibətlə farsdilli "Çehrenoma" qəzeti 1906-cı il 10 oktyabr tarixli sayında Rüşdiyyənin şəklini çap edib və altında belə yazmışdı: "İranda məktəb açmış birinci böyük şəxsiyyət Rüşdiyyədir".

Azərbaycanlı sənət dühaları Əbdülqadir Marağayi və Səfiyyəddin Urməvi fars musiqi mədəniyyətinin güclənməsində danılmaz xidmətlərə malikdirlər. Fars nəzminə və nəsrinə, habelə elminə gəldikdə, Nizami Gəncəvi və İmadəddin Nəsimidən başlayaraq Cəlil Məmmədquluzadə və Hüseyn Cavidədək azərbaycanlı nəsr və nəzm ustadlarının yaradıcılıqlarının, əsərlərinin təsir miqyasını hesablamaq mümkün deyil. Əmir Xosrov Dəhləvi, İmad Kirmani, Əbdürrəhman Cami, Əlişir Nəvainin yaradıcılıqlarına Nizami Gəncəvi dühasının təsiri nə qədər böyük olubsa, Firdovsi, Sədi Şirazi, Əlişir Nəvai, Rudəki də azərbaycanlı nəzm titanlarından bir o qədər təsirləniblər.

Yaxud Nəsim Şamalın, Mirzə Əli Şəbüstərinin, Məhəmməd Hüseyn Şəhriyarın fars poetikasına təsirini inkar etmək, sadəcə, reallığa göz yummaq olardı. İran poeziyasını dünyaya tanıdan Məhəmmədhüseyn Şəhriyarın ilk şerlər kitabı 1931-ci ildə Tehranda həmin dövrün tanınmış alim və şairləri Məlikşura Bəharın, Sədi Nəfisinin və Peyman Bəxtiyarinin müqəddimələri ilə nəşr olunub. İranın farsdilli alimləri azərbaycanlı şairin yaradıcılığına böyük qiymət verib və onun əsərlərinin bu ölkədə ədəbi mühiti formalaşdırdığını etiraf ediblər. İranın keçmiş mədəniyyət və islami irşad naziri Əli Cənnəti Şəhriyarı xarakterizə edərək deyib: "Şəhriyarın azərbaycanlı olması və fars dilini farslardan yaxşı bilərək şeirləri ilə İranı dünyaya tanıtması İranın mənəvi zənginliyinin göstəricisidir". Qeyd edək ki, Məhəmmədhüseyn Şəhriyarın şeirləri 30-dan çox dilə tərcümə olunub.

Orta əsrlərdə azərbaycanlı əşar və nəsr ustalarının, həmçinin alimlərin əsərlərini fars dilində qələmə almaları tarixi zərurət idi. Şərq tarixinə səthi də olsa bələd olan istənilən şəxs bilir ki, bəhs edilmiş dövrlərdə yaşamış şairlər və nasirlər, alimlər və tədqiqatçılar müasirliyimizdən fərqli olaraq, xalqların etnolinqvistik mənsubiyyət baxımından fərqləndirilmədiyi, "ümmə", "xilafət", "səltənət", "bəylərbəyliyi" və s. ifadələrin inzibati idarəetmədən tutmuş, dövlət siyasətinədək bütün sahələrə sirayət etdiyi zamanda ömür sürüblər. Dehlidə, Ürgəncdə, Xarəzmdə, hətta İstanbulda belə fars dilindən istifadə olunub. Ancaq bu, heç bir halda Qanq sahillərindən Mərmərə dənizi sahillərinədək nəhəng arealın farslara məxsus olması anlamına gələ bilməz. Həmin dövrdə təkcə azərbaycanlılar deyil, özbək, türkmən, ərəb mütəfəkkirləri də fars dilində yazıblar. Görkəmli özbək şairi Əlişir Nəvai də əsərlərini fars dilində yazıb.

Bütün bunlarla yanaşı, Səfəvilər dövründə İran ərazisində dövlət dili Azərbaycan dili olub. Saraydakı bütün yazışmalar Şah İsmayıl Xətainin xüsusi sərəncamı ilə Azərbaycan dilində aparılırdı. Xətainin günümüzə gəlib çatmış "Dəhnamə" əsəri buna əyani sübutdur. İngilis səyyahı və taciri Antoni Cenkinson yazır ki, Şah Təhmasiblə ziyafət süfrəsi arxasında görüşü zamanı Şah onu Azərbaycan dilində "xoş gəldin" sözü ilə salamlamışdı. XVII əsrin birinci yarısında Şərqə səfər etmiş italiyalı səyyahı Petra della Valle də yazırdı ki, Şah Abbas onu qəbul edərkən türk dilini bilib-bilmədiyi barədə soruşub və müsbət cavab aldıqdan sonra "xoş gəldi, səfa gəldi" söyləyib. Saray əyanları isə Şaha "qurban olum, başına dönüm" kimi ifadələrlə müraciət edirdilər.

Eyni sözləri "Azərbaycanın UNESCO-ya verdiyi mədəniyyət nümunələri fars mədəniyyətinin tərkib hissəsi" olması ilə bağlı bəzi iddialara da şamil edə bilərik. Azərbaycandan UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına 19 nümunə daxildir. Bunlardan 17-si Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına, 2-si isə Təcili Qorunmağa Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Siyahıda yer almış nümunələrin heç birinin fars mədəniyyəti, etnoqrafiyası, tarixi və s. ilə hər hansı formada bağlılığı, kökü və ya əlaqəsi yoxdur.

Həmçinin xüsusi vurğulanmalıdır ki, dahi Azərbaycan bəstəkarı urmiyalı Səfiəddin Urməvinin (1217-1294) yaratdığı alətlər bu gün dünya musiqisində istifadə olunur. Filosof-alim Şəhabəddin Sührəverdinin (1145-1234) "İman nəsihətlərinin inşası və yunan qəbahətlərinin ifşası", "Rəşf ən–nəsaih əl–imaniyyə və kəşf əl–fədaih əl–yunaniyyə", "Doğru yolu bildirmək və möminlərin əqidəsi", "İlam əl–hüda və əqidət ərbab ət–tüqa", "Quranın təfsirinə dair bəyanın pis əməli", "Nüğbət əl–bəyan fi təfsir əl–Quran", "Fəqirliyə dair traktat" – "Risalə fi-l-fəqr", "Ariflərin məqamları", "Məqam əl–arifin" və digər əsərləri dünyanın 30-dan çox kitabxanasında və əlyazma arxivlərində saxlanılır.



Sadalanan məqamlara istinad edərək deyə bilərik ki, xalqımızın bəşər mədəniyyətinə, elminə və tarixinə verdiyi ən böyük töhfələrdən biri qonşu etnoslar və dövlətlərlə ümumi tarix, adət-ənənələr və mədəniyyət formalaşdırmağımızdır.

Son statistik məlumatlara əsasən, 80 milyonluq İran əhalisinin təxminən yarısı azərbaycanlılardan ibarətdir. Azərbaycanlıların böyük əksəriyyəti Təbriz, Xorasan, Tehran, Kərəc, Şiraz, İsfahan, Kirman, Ərak, Qum, Qəzvin, Həmədan və digər bölgələrdə, hətta fars tayfalarının olduğu regionlarda da yaşayırlar. Bugünkü İran coğrafiyasında tarixən müxtəlif türk dövlətlərinin paytaxtı olmuş doqquz şəhər (Nişapur, Rey, Sultaniyə, Marağa, Ərdəbil, Təbriz, İsfahan, Qəzvin və Tehran) var. Şübhəsiz ki, bu şəhərlərin arasında birinci yerdə azərbaycanlı əhalinin zəngin mədəni irsi ilə tanınan Təbriz şəhəri dayanır. Bu illər ərzində, xüsusilə də orta əsrlərdə Azərbaycanın cənubu dünya mədəniyyətinə əvəzsiz incilər bəxş edib. Bu günə qədər gəlib çatan tarixi və memarlıq abidələri, kitabələr və əlyazmalar, rəssamlıq məktəbləri, elm və mədəniyyət sahələri məhz Azərbaycanın, bilavasitə onun cənubunun adı ilə bağlıdır. Keçmişdə İranda dilimizin saray və ordu dili kimi nə qədər işlək olduğu günümüzə qədər gəlib çatan əsərlərdən aydın görünür. Bu əsərlərin böyük bir qismi dövlət adamlarına, şahlara, padşahlara təqdim edilib və ya onların adına yazılıb.

Marağa, Urmiya, Xoy və digər şəhərlərdə musiqi, incəsənət, nəqqaşlıq, memarlıq, astronomiya, kitab nəşri, xalçaçılıq, miniatür sənəti tək-tək inkişaf etdiyi halda, bütün bu elm və mədəniyyət sahələri Təbrizdə cəmləşmişdi. Təbriz orta əsrlərdə mədəniyyətin beşiyi sayılırdı. Mətbəə, qəzet-jurnal nəşri, uşaq bağçası, teatr, telefon qovşağı, kar və korlar məktəblərinin İranda ilk olaraq Təbrizdə açılıb inkişaf etməsi də şəhərin ticarət mərkəzi olmasının və mədəni zənginliyinin göstəricisidir.

Əcdadlarımız qədimlərdə sərhədləri xalqları ayıran yox, birləşdirən ünsür hesab edərək birgəyaşayış, tərəfdaşlıq və əməkdaşlıq məsələlərinə böyük önəm veriblər, homogen kulturoloji mühitin formalaşdırılmasına can atıblar. Xalqımız və dövlətimiz öz maraqlarını, mənafeyini və təhlükəsizliyini təmin etməyə istiqamətlənmiş siyasət yürütməklə yanaşı, qonşu ölkələrin də istəklərini nəzərə alır və bu səbəbdən də həmin dövlətlərdən analoji davranışı gözləyir.

Azərbaycan dövləti, azərbaycanlılar heç bir region dövləti və illah da ki, qonşu ölkələrdən hər hansı biri ilə münasibətləri gərginləşdirməyə, siyasi merkantilizm prinsiplərinə əsasən öz məqsədlərini reallaşdırmağa çalışmayıb və çalışmır. Biz bütün qonşularımızla, hətta dövlət sərhədimizin delimitasiya olunmadığı, ərazilərimizin 20 faizini 30 il işğalda saxlamış Ermənistanla belə normal münasibətlərin bərqərar olunmasına can atırıq. Baxmayaraq ki, Azərbaycan ərazisinin 20 faizini 30 il müddətində işğal altında saxlayan Ermənistan azərbaycanlılara qarşı soyqırımı, etnik təmizləmə siyasəti həyata keçirib. İşğal altında olan torpaqlarımızda Azərbaycan xalqına məxsus bütün maddi-mədəni irsimiz məhv edilib, məscidlərimiz dağıdılıb, dinimiz təhqir olunub. Bu faktlar aparıcı beynəlxalq təşkilatların, o cümlədən İslam Əməkdaşlıq Təşkilatının çoxsaylı qərar və qətnamələrində öz əksini tapıb və pislənilib.

1991-ci ilin sonlarından başlayaraq 2020-ci ilin sentyabrınadək davam edən işğal dövrü gündən-günə harınlayan Ermənistana və onun işğalçılıq siyasətinə dəstək verən güclərə qarşı tam təcrid vəziyyətində mətanətlə direniş göstərən Azərbaycan xalqı üçün tarixi sınaq dövrü oldu. Amma xalqımız əyilmədi, sınmadı, ayaq üstə durmağı, yeni güclü dövlət qurmağı, təcriddən qurtularaq beynəlxalq aləmdə çoxsaylı tərəfdaş və böyük nüfuz qazanmağı bacardı. 1990-cı illərin əvvəllərində dünyanın bir çox siyasi dairələrində artıq aqibəti həll edilmiş hesab olunan ölkəmiz 30 ilə toparlanaraq, BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına icra etməyi bacaran, işğala son qoyan və ərazi bütövlüyünü bərpa edən bir gücə çevrildi.

44 günlük İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan bölgədə yeni reallıqların təməlini qoydu. İşğalçı Ermənistanın kapitulyasiyası bölgədə on illərdən bəri gözlənilən sülh və sabitliyin bərqərar olmasını şərtləndirməli idi, lakin İrəvandakı hakimiyyətin aqressiv-şovinist siyasətdən hələ də əl çəkməməsi bu prosesi ləngidir.

Ermənistan indi də Cənubi Qafqazda sülh və sabitliyə başlıca təhdid olaraq qalır, kənar qüvvələrin bölgəyə ayaq açmasına zəmin yaradır. Avropa İttifaqının uzunmüddətli missiyasının bölgəyə gəlməsi təkcə Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması prosesinə mənfi təsir göstərmir, həm də hazırda Qərblə qarşıdurma vəziyyətində olan Rusiyanın, Qərbin sanksiyalarına məruz qalmış İranın maraqlarını təhdid edir.

Ermənistan uzun illərdir yürütdüyü fitnəkar siyasətini indi də davam etdirir və bu, İranla Azərbaycan arasında münasibətlərdə özünü bilavasitə büruzə verir. Tarixi, dini bağlılığı olan bu iki ölkə arasında münasibətlərin gərginləşməsi kimin maraqlarına xidmət edir, kim bundan daha çox sevinir? Əlbəttə ki, Ermənistan. Zamanında bəzi ölkələr Ermənistanın və onun havadarlarının əsl niyyətini aydın gördülər, rəsmi İrəvanla diplomatik münasibətlər belə qurmadılar və 30 il bundan əvvəl olduğu kimi, indi də Azərbaycanı dəstəkləməkdə davam edirlər. Azərbaycan xalqı İranı da bu cərgədə görmək istəyirdi və buna haqqı da çatır.

Rəsmi İrəvan iki müsəlman dövləti olan Azərbaycan və İran arasında yaranan gərginlikdən istifadə edərək, bunu bütün dünyada təbliğ edir və İslamı beynəlxalq ictimaiyyətin gözündən salmağa çalışmaqla, əslində, ona daim qucaq açan İranla dostluğa da xəyanət edir. Avropa İttifaqının uzunmüddətli missiyasının Ermənistanda olmasını həm də bu aspektdən qiymətləndirmək faydalı olardı. Ermənistan buna müsəlman dövlətlərinin əhatəsində olduğunu və müsəlmanlar tərəfindən guya təzyiqlərə məruz qaldığını Qərb dairələrini inandırmaqla nail olub.

İran Azərbaycanın yaxın qonşusudur və ölkəmiz bölgənin istisnasız olaraq bütün dövlətləri kimi, İranla da səmərəli əməkdaşlığı davam etdirməkdə maraqlıdır. Hətta kollektiv Qərbin ciddi sanksiyalar tətbiq etdiyi, ətrafında "təzyiq həlqəsi" qurmağa çalışdığı vaxtlarda belə Azərbaycan İrana münasibətdə daim düşünülmüş, rasional siyasət yeridib. Azərbaycan çox azsaylı region ölkələrindən biridir ki, ərazisindən üçüncü dövlət tərəfindən İrana hücum məqsədilə istifadə olunmasına əsla imkan verməyəcəyini dəfələrlə bəyan edib və bu gün də öz sözünün ağasıdır. Təbii ki, bütün bunlar İrana münasibətdə kimin dost, kimin xəyanətkar olduğunu açıq şəkildə ortaya qoyur.

Hələ 2007-ci ildə Ermənistanın prezidenti Serj Sarkisyanın Tehrana səfəri zamanı iki ölkə arasında dəmir yolu əlaqəsinin yaradılması barədə müqavilə imzalandı. Həmin dövrdən ötən illər ərzində bu istiqamətdə irəliyə doğru bir addım da olsun atılmadı. Çünki Çindən dəvət olunan sərmayədarlar texniki əsaslandırma apardıqdan sonra yolun tikintisinə investisiya yatırmaqdan imtina etdilər. Məsələnin mahiyyəti ondan ibarət idi ki, bu dəmir yolu səmərəli deyildi. Lakin Azərbaycanın iqtisadi inkişafı və regiondakı coğrafi mövqeyi onu daha cəlbedici edir. Təsadüfi deyil ki, bu gün Azərbaycan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında aparıcı dövlətlərdən biridir.

Azərbaycan-İran dövlət sərhədinin uzunluğu 765 kilometr təşkil edir. Bu da qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsinə imkan yaradır. Asiya ilə Avropanı birləşdirən bu dəhlizə daxil olan avtomobil, dəmir yolları Azərbaycan və İran ərazisindən keçir. Bu isə İran ilə Azərbaycanın beynəlxalq yükdaşımalarda tranzit potensialını və rolunu artırır. İranın Oman dənizindəki Çabahar, Fars körfəzindəki Bəndər Abbas limanlarına Cənub-Şərqi Asiya və körfəz ölkələrindən daxil olan yüklər Azərbaycan ərazisindən daşına bilər. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Avropanın 800 milyona yaxın əhalinin yaşadığı 40-dan çox ölkəsi ilə 2 milyarddan çox əhalisi olan Cənub Şərqi Asiya ölkələrini birləşdirir. Bu böyük bazarlar arasındakı nəqliyyat əlaqəsinin Azərbaycan və İran üzərindən qurulması hər iki ölkənin iqtisadi inkişafına böyük töhfə verə bilər.

Beynəlxalq ekspertlərin hesablamalarına görə, yaxın 10 il ərzində Asiya ilə Avropa arasındakı ticarət dövriyyəsinin həcmi trilyonlarla dollar həcmində ölçüləcək. Bu böyük məbləğ dəyərindəki yüklər də milyardlarla ton həcmində ölçüləcək. İki qitə arasında daşınacaq yüklərin 15 faizi bu dəhliz vasitəsilə həyata keçirilsə, Azərbaycanla İran külli miqdarda gəlir əldə etmək imkanı qazanacaqlar. Dəhlizin əsasını təkli edən Qəzvin-Rəşt-Astara (İran) – Astara (Azərbaycan) dəmir yolu xəttinin Qəzvin-Rəşt hissəsi artıq istismara verilib. Rəşt-Astara hissəsində isə işlər gecikir. Layihə çərçivəsində Azərbaycan tərəfi üzərinə düşən vəzifələri yerinə yetirib. Astara stansiyasından İran dövlət sərhədinə qədər birxətli 8,3 kilometr dəmir yolu çəkilib və Astara çayı üzərində dəmir yolu körpüsü tikilib. Eyni zamanda, Astarada (İran) dəmir yolu stansiyasının tikintisi və yük terminallarının inşası yarımçıq qalıb.

Vətən müharibəsində Qələbədən dərhal sonra kommunikasiya xətlərinin açılması istiqamətində fəal iş aparmağa, Zəngəzur dəhlizinin açılması ilə Asiya ilə Avropa arasında körpü salmağa və Naxçıvan Muxtar Respublikasının ölkəmizin əsas ərazisi ilə nəqliyyat əlaqəsini bərpa etməyə çalışan Azərbaycanın bu təşəbbüslərinə region dövlətləri, o cümlədən də İran daha fəal qoşularsa, bölgədə əməkdaşlığın inkişafına mühüm töhfə verə bilər. Çünki bu kommunikasiya xətlərinin açılması İranı da beynəlxalq nəqliyyat-logistika qovşağı zəncirində mühüm halqaya çevrilmək imkanı qazandırır. Qeyd edək ki, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 2022-ci martın 11-də Bakıda keçirilən 15-ci iclasında Azərbaycan hökuməti ilə İran hökuməti arasında İran ərazisindən keçməklə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu imzalanıb. Rəsmi məlumatda qeyd olunurdu ki, Anlaşma Memorandumunun imzalanmasının Azərbaycanla İran arasında diplomatik əlaqələrin yaradılmasının 30 illiyinə təsadüf etməsi xüsusi əhəmiyyət kəsb edir. Memoranduma əsasən Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla, ümumilikdə dörd körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur.

Azərbaycan Prezidenti işğaldan azad olunan ərazilərə səfəri zamanı İran–Azərbaycan sərhədini dostluq və qardaşlıq sərhədi adlandırdı. Azərbaycan işğaldan azad olunan sərhəd bölgəsində körpü salıb gömrük-keçid məntəqəsi açmaq istəyirdi. Qarabağın bərpasında da İran şirkətlərinin iştirakına etiraz olunmadı. Bütün bunlar Azərbaycanın İrana qarşı xoşməramlı münasibətinin göstəricisidir. Bunların müqabilində ölkəmizin Tehrandakı səfirliyinə qarşı terror aktının törədilməsi, səfirlik əməkdaşının qətlə yetirilməsi, əlbəttə ki, insanlarımızı məyus etməyə bilməz. Azərbaycan terror aktının araşdırılmasını, günahkarların cəzalandırılmasını, terrorun səbəbinin müəyyənləşdirilməsini istəyir.

Beləliklə, əsrlər boyu böyük dövlətlərin kəsişən maraqları nəticəsində müharibələrin, münaqişələrin, gərginliklərin yaşandığı bu bölgəni artıq sabitliyin, əmin-amanlığın, dostluq və əməkdaşlıq mühitinin hökm sürdüyü çiçəklənən, inkişaf edən regiona çevrilməsi üçün çox gözəl şərait yetişib. Azərbaycan bu yolda bütün bölgə ölkələrinin ümumi rifahına töhfə verəcək nəhəng layihələrin reallaşdırılması istiqamətində təşəbbüslər göstərməkdə davam edir. Təbii ki, regionun ümumi inkişafı Azərbaycanın təşəbbüslərinin bölgə ölkələri tərəfindən dəstəklənməsi və birgə əməkdaşlıq şəraitində mümkündür.

Azərbaycan və İran prezidentlərinin 2021-ci il noyabrın 28-də Aşqabadda görüşü zamanı iki ölkə arasında tarixi bağların və əməkdaşlığın önəmi haqqında danışıldı. Deməli, İran ilə Azərbaycan arasında tarixi dostluq münasibətlərinin ölkələrimizin və bölgənin ümumi inkişafına töhfələri nəzərə alınaraq, bu əlverişli şəraitdən istifadə edilməlidir.



# Azərbaycanın ilk oftalmoloq akademiki

**Azərbaycan oftalmologiya elmini beynəlxalq aləmdə tanıdan, oftalmologiya sahəsi üzrə ilk qadın akademik, tibb elmləri doktoru, professor Zərifə xanım Əliyevanın elmi tədqiqatları, təsirli müalicə üsulları ilə yanaşı, pedaqoji fəaliyyəti, peşəkar elmi kadrların yetişdirilməsindəki xidmətləri də danılmazdır. Fəaliyyəti müddətində hər zaman ciddi problemlərə toxunmuş, göz xəstəliklərinin qarşısını almaq və onları ən effektiv yolla müalicə etmək üçün çalışmışdır. Alimin bu gün də aktual olan elmi araşdırmaları və əldə etdiyi nailiyyətlər bir daha onun uzaqgörənliyini, böyük hədəflərə nail olduğunu sübut edir. Zərifə xanımın fəaliyyətində elmi bilikləri gənc alimlərə çatdırması böyük əhəmiyyət kəsb edir.**

Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmiş və Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşdırma kursu keçmişdir. 1953-cü ildə aspiranturanı bitirdikdən sonra 1957-ci ilədək Azərbaycan Elmi–Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, böyük elmi işçi, 1967-ci ildən isə Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının və oftalmologiya kafedrasının müdiri (1982–1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanım Əliyevanın “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. O, elmi işini dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində – H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda müdafiə edərək, 1977-ci ildə tibb elmləri doktoru alimlik dərəcəsi almışdır.

Onun Azərbaycanda oftalmologiya elminin inkişafında xidmətləri ölçüyəgəlməzdir. Görkəmli alim vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, xüsusilə, kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatlar aparmışdır. Eyni zamanda, “Terapevtik oftalmologiya”, “İridodiaqnostikanın əsasları” kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi idi.

Zərifə xanım Əliyevanın rəhbərliyi ilə gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəsli yetişmişdir. Görkəmli alim tələbələrinə zəngin həyat təcrübəsini öyrətmiş, onlara diqqət və qayğı ilə yanaşmışdır.

O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, “Vestnik oftalmologii” (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə – görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə, professor Z. Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata – SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax Mükafatına layiq görülmüşdür. Qeyd etmək lazımdır ki, professor Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk qadın olmuşdur.

Apardığı elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətləri layiqincə qiymətləndirilərək, 1983-cü ildə Zərifə xanım Əliyeva Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilmişdir. O, fəal ictimai xadim kimi orden və medallarla təltif olunmuş, Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

…Onun həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, fəaliyyətinə nəzər salarkən, bu dahi insanın genişmiqyaslı şəxsiyyət olmasına qənaətinə gəlmək olur. Zərifə xanımın fitri istedada malik novator alim, pak və nadir bir insan kimi yaşadığı dərin mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Onun elmi, tibbi və pedaqoji fəaliyyəti, hər kəs üçün nümunə olan yüksək mənəvi keyfiyyətləri haqqında çoxsaylı məqalə, kitab və əsərlər yazılmış və bundan sonra da yazılacaqdır. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələridir.

Akademik oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparmış, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən, Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf etmiş, xəstəliyin müxtəlif mərhələlərinin öyrənilməsi və müalicə metodlarının axtarılması yollarında dəyərli elmi-tədqiqatlar aparmışdır. Alimin elmi fəaliyyətinin istiqamətlərindən biri gözün oftalmoloji, histomikroskopik və histokimyəvi tədqiqinə həsr edilmişdir.

Zərifə xanım Əliyevanın elmi fəaliyyətinin digər sahələrindən biri klinik diaqnostik istiqamətdə apardığı tədqiqatlardır. Bu tədqiqatların nəticələri həkimlər üçün yazılmış dərs vəsaiti və monoqrafiyalarda cəmlənmişdir. “Kəskin virus konyunktivitləri”, “Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar”, “Qlaukoma və gözün hipertenziyası”, “Görmə orqanının zədələnməsi”, “Göz yaşı axmasının fiziologiya və histologiyası”, “Şəkərli diabetdə göz xəstəlikləri”, “Gözün mikrocərrahiyyəsi”, “Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası” və s. xüsusi qeyd edilməlidir. Alim göz yaşı xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi “Yaşaparıcı yolların fiziologiyası”, “Yaşaparıcı yolların cərrahi müalicəsi”, “Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları” və digər əsərləri ilə Azərbaycan lakrimologiyasının əsasını qoymuşdur.

Bunlarla yanaşı, akademik nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya – “İridodiaqnostikanın əsasları” və “İridodiaqnostika”nı hazırlamışdır. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazmışdır.

Görkəmli alimin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də peşə oftalmologiyasına həsr edilmişdir. Alim dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni bir istiqamətin – “peşə oftalmologiyası”nın əsasını qoymuşdur. Oftalmologiyada peşə xəstəlikləri probleminin öyrənilməsi Zərifə xanım Əliyevanın adı ilə bağlıdır. Oftalmologiyanın sənaye ilə bağlı problemlərinin öyrənilməsinə həsr etdiyi fundamental tədqiqatları alimə böyük şöhrət gətirmiş və onu dünya oftalmologiyası məkanında məşhurlaşdırmışdır.

Böyük alim elmdə ilk dəfə olaraq yod və şin sənayesi işçilərinin görmə orqanında yaranan peşə xəstəliklərini öyrənmiş və bu xəstəliklərin profilaktikası tədbirlərini işləyib hazırlamışdır. Onun bu istiqamətdə apardığı elmi-tədqiqat işləri dünya ədəbiyyatında bənzəri olmayan nadir tədqiqatlar sırasındadır. Böyük alim uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində genişmiqyaslı elmi-tədqiqat işləri aparmışdır. Bu elmi-tədqiqat işlərinin nəticələri alimin “Şin istehsalatında gözün peşə patologiyası”, “Xronik yod intoksikasiyası zamanı oftalmologiya” və “Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası” kimi qiymətli monoqrafiyalarında öz əksini tapmışdır.

Ülvi keyfiyyətlərə malik olan Zərifə xanım öz elmi fəaliyyətində etika və tibbi deontologiya məsələlərinə xüsusi yer vermişdir. Onun bu mövzuya dair baxışları oftalmoloji ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmış və “Yüksək əqidə – həkimin yüksək vəzifəsi” və “Oftalmologiyanın aktual problemləri” adlı monoqrafiyalarında ətraflı işıqlandırılmışdır. Zərifə xanım Əliyevanın mənəvi zənginliyi, vəzifə borcuna, tibbi etika və deontologiyaya dair baxışları onun “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri” əsərində daha ətraflı şəkildə əks olunmuşdur.

Alim həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə həkiminin diaqnostika və müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin deyil, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. O, həkim–xəstə münasibətlərinə toxunaraq, insanlar arasında ən incə, yaxın və həssas münasibətlərin məhz həkimlə xəstə arasında olduğunu göstərmiş və “Həkim xəstənin ən doğma adamıdır” – demişdir. Zərifə xanım Əliyevanın tibbi etika və deontologiyaya dair məqalə və əsərləri ilə yaxından tanış olduqda, onun bu sahəyə dair işlərinin daha genişmiqyaslılığı və təkcə səhiyyədə deyil, bütövlükdə cəmiyyətdə insanlar arasında münasibətlərə həsr edildiyi məlum olur.

Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan idi. O, eyni zamanda, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin– ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olmuşdur.

Bütün həyatı boyu ona pənah gətirənlərin gözlərinə şəfa verən Zərifə Əliyevanın alim kimi xidmətlərində daha bir məqam diqqəti xüsusilə cəlb edir. O da malyariya və traxomaya qarşı fədakarlıqla mübarizə aparan atası Əziz Əliyevin yolunu bacarıqla davam etdirməsi, oftalmologiya elminə çox böyük töhfələr verməsidir.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək Fəxri xiyabanda, atasının məzarı yanında dəfn olunmuşdur. Lakin görkəmli alim, xeyirxah insan, qayğıkeş ananın adının xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəllidir. Biz onu sevir, onunla fəxr edirik.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında dəyərli fikirlər söyləyiblər. Görkəmli oftalmoloq, akademik A.Nesterov deyib: “Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi”. Akademik N.Puçkovskaya “Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi”,– deyərək, onun yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulayıb. Professor A.Brovkina onu “nəciblik və mənəvi paklıq timsalı” adlandırıb. Professor V.V.Şmelyeva demişdir: “Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu “Əvəzolunmaz insan haqqında povest” adlandırardım”.

Ruhu şad olsun!

***Yağ ül ABDIYEVA,***
***Azərbaycan Oftalmoloqlar Cəmiyyəti sədrinin müavini, tibb üzrə fəlsəfə doktoru***

# Göyçayda yubiley tədbirləri





**Göyçayda Azərbaycan Şahmat Federasiyası və Dövlət Sosial Müdafiə Fondunun birgə təşkilatçılığı ilə Heydər Əliyevin 100 illiyinə həsr edilmiş Şahmat turniri keçirilib.**

Rayon icra hakimiyyəti başçısının müavini Zivər Zeynalova qonaqları salamlayaraq ümummilli liderin həmişə idmanın inkişafına böyük diqqət ayırdığını qeyd edib, ölkəmizdə şahmata olan maraqdan və şahmatçılarımızın beynəlxalq yarışlardakı uğurlarından söhbət açıb.

Rayon Şahmat Məktəbində keçirilən seçim mərhələsində Ucar, Ağdaş və Göyçayda yaşayan pensiyaçı və sosial müavinət alan şəxslər iştirak edərək qruplara bölünüb və turnir dairəvi sistem üzrə keçirilməklə qaliblər müəyyən edilib.

Birinci yeri tutmuş iştirakçı respublikanın əməkdar müəllimi, “Tərəqqi” medalı, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Ramiz Mikayılov final mərhələsinə vəsiqə qazanıb, qalib olan ikinci və üçüncü yerlərin sahibləri Mehdi Məmmədov və Famil Abdullayev diploma təltif olunublar.

***

**Göyçay rayon Heydər Əliyev Mərkəzində Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş konfrans keçirilib.**

Akademik Zərifə Əliyevanın zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçdiyi, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr verdiyi vurğulanıb. Qeyd edilib ki, onun Azərbaycanda oftalmologiya elminin inkişafında xidmətləri ölçüyəgəlməzdir.

Natiqlər Zərifə Əliyevanın həyat və fəaliyyəti haqqında ətraflı məlumat verərək onun nurlu xatirəsinin qəlbimizdə əbədi olaraq yaşayacağını bildirmişlər.

Sonda Zərifə xanım Əliyevanın həyat və fəaliyyətinə həsr edilmiş qısa videoçarx nümayiş olunmuşdur.

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***




# Ulu öndər gürcü xalqının da sevimlisidir

**Müasir müstəqil Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyev təkcə Azərbaycan xalqı üçün deyil, gürcü xalqı üçün də çox böyük işlər görüb.**

Bu sözləri Gürcüstan parlamentinin deputatı Zaur Dərğalli Tbilisidə “Heydər Əliyev və milli-mənəvi dəyərlər” mövzusunda keçirilən konfransdakı çıxışı zamanı söyləyib. Onun sözlərinə görə, Heydər Əliyevin Azərbaycan dövlətini yenidən qurması, milli-mənəvi dəyərləri inkişaf etdirməsi Gürcüstanda yaşayan azərbaycanlıların da öz milli-mənəvi, dini dəyərlərinə sahib çıxmalarına və inkişafına səbəb olub.

Deputat deyib ki, Prezident İlham Əliyev ümummilli liderin siyasi kursunu uğurla davam etdirir. Azərbaycan Prezidenti işğaldan azad olunmuş ərazilərə səfər edərkən erməni vandalları tərəfindən dağıdılmış dini, mədəni, tarixi abidələri ziyarət edir, onların bərpası üçün mühüm işlər görür. Bu, bir daha sübut edir ki, Azərbaycan dövləti dini etiqadımızın, tarixi abidələrimizin, bir sözlə milli-mənəvi dəyərimizin qorunmasına və inkişafına xüsusi diqqət yetirir.

***AZƏRTAC***

*Ekoaksiyanın gündəliyi*

# Laçın yolu xoş mərama açıqdır




**Dünya tarixinə, bəlkə də, ən ədalətli və uzunömürlü aksiyalardan biri kimi daxil olacaq Azərbaycan ekofəallarının Laçın–Xankəndi yolundakı etiraz aksiyası tarixi missiyasına daha bir addım yaxınlaşdı. Xalqımızın öz ərazilərində erməni vəhşilərinin ekoloji terrorunu dayandırmaq üçün etiraz səsini ucaltması xoşməramlılığı ilə diqqət çəkir. Ekoloji təmiz dünyanın bir parçası olaraq təbiətimizi viran qoyan, onu tamamilə məhv edərək yer üzündən silməyə cəhd göstərən düşməni dayandırmaq istəyirik. Bununla belə, dinc əhali üçün heç bir problem yaratmadan, hətta kömək belə lazım olarsa yardım əlimizi uzatmaqla aksiyanı davam etdiririk.**

Aksiyanın 125-ci günündə də Rusiya sülhməramlılarına və Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus avtomobillərin Xankəndidən Laçın istiqamətinə və əksinə sərbəst hərəkəti təmin edilib. Humanitar məqsədlər üçün yol açıq olub. Dünya mətbuatında da ekoaksiyaçılarımızın məramı, eləcə də aksiyanın keçirildiyi ərazilərdə humanitar məqsədlər üçün heç bir məhdudiyyətin olmaması ilə bağlı fikirlər əksini tapmaqda davam edir.

Ötən aylar ərzində Azərbaycanın vətəndaş cəmiyyətlərinin üzvlərinin, könüllülərin, tələbə gənclərin iştirakı ilə keçirilən aksiyada hərəkət azadlığı və digər məsələlərlə bağlı heç bir neqativ faktın, hadisənin baş verməməsi cəmiyyətimizin hansı amala xidmət etdiyini açıq göstərir. Regionda sülhün, əmin-amanlığın əsas qarantına çevrilən Azərbaycanda dövlətçilik ənənələri o qədər güclüdür ki, sanki hər bir şəxsin iliyinə qədər işləyib. Hər bir hərəkətimiz və əməlimizlə dövlətimizin imicini qoruyub, nüfuzunu qaldırmağa çalışırıq.

Sabitliyə, sülhə zərbə vurmaq üçün təxribatları davam etdirən düşmənin isə Azərbaycan əsirinə qarşı etdiyi vəhşilikləri və onu qəsdən yaymasının ardınca, İrəvanda ağırlıqqaldırma üzrə Avropa çempionatı zamanı Dövlət Bayrağımızı yandırması bu millətin xislətini bütün çılpaqlığı ilə göstərdi. Həmçinin dünyaya açıq mesaj verdi ki, bu millət üçün müqəddəs heç nə yoxdur.

Xalqımıza məxsus olan ən ali dəyərləri özündə birləşdirən vətəndaşlarımız isə çox çətin şəraitdə, ən sərt havalarda belə bir an da olsun aksiyanı dayandırmaq barədə düşünmürlər. Bu, cəmiyyətimizin bütövlüyünün, ana təbiətə bağlılığımızın göstəricisidir. Dünyaya açıq olan, sülhə, əmin-amanlığa böyük töhfələr verən Azərbaycan ərazilərində ekoloji terror törətməkdə davam edən ermənilərə dünya ictimaiyyəti tərəfindən təpki göstərilməsini gözləyir.

**Leyla QURBANOVA,**
**"Xalq qəzeti"**

# Hayastanda qocalar evinin sakinləri də orduya çağırılır

**"Azadlıq" radiosunun erməni xidmətinin Dığdan hazırladığı reportajda haylar hər gün kənddən azərbaycanlıları gördüklərini bildiriblər.**



Aprelin 11-də Hayastanın qəsdən törətdiyi təxribatı nəticəsində şərti sərhəddə baş verən silahlı toqquşma Dığ kəndinin erməni sakinləri arasında əməlli-başlı təşviş yaradıb. Dığlılar ərazini tərk edəcəkləri barədə daha ucadan danışmağa başlayıblar. Bu barədə "Azadlıq radiosu"nun erməni xidmətinin kənddən hazırladığı reportajda məlumat verilir.

Oxucularımıza xatırladaq ki, yeni Laçın yolu istifadəyə veriləndən sonra sərhədin Laçın istiqamətində mövqe dəyişikliyi aparılıb. Bunun nəticəsində Dığ sakinlərinin işğal illərində əkin və otlaq sahələri kimi istifadə etdikləri ərazilər ordumuzun tam nəzarətinə keçib. Hazırda şərti sərhəd zolağında nəzarət-keçid postlarının qurulması işləri başa çatdırılıb.

* * *

Yaxın tarixə nəzər yetirərək və onu da bildirək ki, adı çəkilən ərazilər işğal dövründə Ermənistan tətəfindən qanunsuz olaraq irəli çəkilən dövlət sərhədinə aiddir. İndi Azərbaycanın müvafiq qurumlarının əlimizdə olan mövcud xəritəyə uyğun şəkildə apardığı dəqiqləşmə işlərinin nəticəsində Dığ kəndinin sakinləri otuz ildən artıq müddətdə istismar etdikləri əkin sahələrindən məhrum olublar. Yaranmış vəziyyət Dığ erməniləri arasında kəndi tərk etmək istəyini artırıb, 11 aprel silahlı toqquşması isə onların bu istəyini daha da gücləndirib.

Dığ kəndində yaşayan ermənilərdən biri "Azadlıq" radiosunun əməkdaşına bunları söyləyib: "Burada yaxşı heç nə yoxdur, vəziyyət getdikcə daha da pisləşir. Vəziyyət çox ciddidir".

Radioda efirə verdiyi reportajında o, qeyd edir ki, Azərbaycan və Ermənistan bu ərazidə fəal şəkildə mühəndis-istehkam işlərini həyata keçirirlər. Dığ kəndindən olan deputat Davit Danielyan bildirib ki, silahlı insident bir mövqe üzərində baş verib.

Kəndin başqa bir sakini Yura Qalstyan isə hesab edir ki, Azərbaycan tezliklə bütövlükdə Zəngəzura nəzarəti öz əlinə alacaq: "İndi mövqelərini möhkəmləndirən azərbaycanlılar məqamı gələndə kəndi, daha sonra Zəngəzuru götürəcəklər. Hər gün kənddən azərbaycanlıları müşahidə edirik. Onların qarşısını alacaq gücümüz yoxdur".

* * *

Radioreportajda daha sonra danışılır ki, Dığ kəndinin bəzi sakinləri silahlanmaq üçün hökumətə müraciət ediblər. Bu barədə "Azadlığın" müxbirinə ehtiyatda olan kapitan Andranik Manuçaryan məlumat verir: "Yerli qubernatora, hökumətə, məsul şəxslərə müraciət etmişik ki, bizi silahlandırsınlar. Amma indiyə qədər səs-soraq yoxdur".

Bu arada Hayastan Müdafiə Nazirliyi qocalar evinin sakinləri olan yaşlı kişiləri məcburi qaydada Azərbaycanla şərti sərhəddə hərbi xidmətə göndərir. Bununla bağlı "Bez Tormozov" Teleqram kanalı videogörüntü yayıb.

"Azadlıq" radiosunun reportajı əlavə şərh tələb etməsə də, yalnız onu deməyi vacib sayırıq ki, Azərbaycan müharibə istəmir, Bakı hayları sülhə dəvət edir. Yox, əgər rəsmi İrəvan başıpozuq revanşist daşnakların fitvasına uyub, 3-cü Qarabağ müharibəsinə xeyir-duasını versə, onda elə Dığdan başlayıb Ermənistanın hər kəndində qəbirlərini qazmağa başlasınlar.

**İ.HƏSƏNQALA,**
**"Xalq qəzeti"**

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabındakı paylaşımında Türkiyənin ticarət naziri Mehmet Muş ilə görüşü çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Preferensial Ticarət Sazişi"nə Dəyişiklik Haqqında Protokol parafландığını, qarşılıqlı ticarətdə güzəşt tətbiq olunacaq yeni məhsul siyahılarının razılaşdırılmasının ticarət tərəfdaşlığının daha da güclənməsinə töhfə verəcəyini bildirib.**

# Türkiyə ilə işbirliyi daha da genişlənir



İqtisadiyyat Nazirliyinin səfərlə bağlı yaydığı məlumatda isə qeyd edilir ki, nazir Mikayıl Cabbarovun başçılıq etdiyi nümayəndə heyəti Türkiyədə səfərdə olarkən bu ölkənin ticarət naziri Mehmet Muşla görüşündə dövlət başçılarının siyasi iradəsinin, dostluq və qardaşlıq münasibətlərinin, verdikləri tapşırıqların icrasının əlaqələrin inkişafına mühüm təsir göstərməsinin əhəmiyyəti vurğulanıb. Eyni zamanda, tərəflər arasında uğurlu investisiya əməkdaşlığının həyata keçirildiyi, respublikamızın xarici ölkələrdəki investisiya həcminə görə Türkiyənin ilk yerdə qərarlaşdığı diqqətə çatdırılıb. Bununla bərabər, düşməndən təmizlənən ərazilərimizdə quruculuq işlərinin həyata keçirilməsində Türkiyə şirkətlərinin fəallıq göstərdikləri də bildirilib.

Görüşdə ölkələrimizin strateji müttəfiqliyi də xatırlanaraq Azərbaycan–Türkiyə işbirliyinin daha da gücləndirilməsi istiqamətlərinə toxunulub.

Tərəflər kiçik və orta biznes tərəfdaşlığı, nəqliyyat, turizm, əczaçılıq sahələrində əməkdaşlığın gücləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Türkiyə Respublikasının energetika və təbii sərvətlər nazirinin müavini Alparslan Bayraktar ilə keçirilən görüşdə İqtisadiyyat naziri Mikayıl Cabbarov enerji tərəfdaşlığını diqqətə çatdırıb, SOCAR tərəfindən Türkiyədə həyata keçirilən layihələri, "Petkim Külək Enerji Stansiyası"nın bərpaolunan enerji təchizatının artırılması üçün uğurlu model olduğunu qeyd edib.

Türkiyə Sığorta Birliyinin sədri Atilla Benli ilə görüşdə isə sığorta sahəsində ikitərəfli əlaqələrin gücləndirilməsinin iqtisadiyyatın inkişafındakı rolu qeyd olunub, Türkiyənin sığorta şirkətlərinin Azərbaycanın sığorta bazarına investisiya yatırmaq imkanları barədə fikir mübadiləsi aparılıb.

**"Xalq qəzeti"**

*Ekoloji fəlakət*

# Təbiətə vurulan zərbə insanlığa açılan atəşdir

## *Udduğumuz havanın çirklənməsi bir neçə dəfə artıb*

**Müasir dövrdə bəşəriyyət insanların praktiki fəaliyyətinin nəticəsi olaraq qlobal ekoloji böhranla üz-üzə qalıb. Bu barədə qəzetimizə açıqlama verən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü İslam Mustafayev bildirdi:**



– Hazırda qlobal çirklənmə dünyanı düşündürən ən ciddi məsələlərdəndir. Xüsusən, havanın çirklənməsi və radioaktiv fonun yüksəlməsi əsaslı təhlükə yaradır. Qloballaşma dövründə ətraf mühitin çirklənməsinin ən böyük səbəbi insanların praktiki fəaliyyəti ilə bağlıdır. Atmosferə buraxılan karbon qazı, metan və digər qaz tullantılarının artan həcmi də bu fəaliyyətdən bəhrələnir.

Böyük təbiət alimlərindən biri deyib ki, ətraf mühiti qorumağa ehtiyac yoxdur, o özü özünü qoruya bilir. Amma mühit davamlı olaraq çirkləndikcə, o nəinki özünü qoruya bilir, əksinə, bizi də xəstələndirir. Ona görə də insanlığın borcudur ki, ətraf muhiti çirkləndirdiyi kimi onu təmizləməyin də qayğısını çəksin. Çünki gündən-günə artan istehsal, atmosferə atılan qazlar, neftin ətraf mühitə dağılması ilə suların, torpağın çirkləndirilməsi, istərsə də müxtəlif radiasiya mənbələrinin bu sahədəki rolu və sair amillər ətraf mühitə zərbə vurmaqla insanlıq üçün dözülməz şərait yaradır.

Nəfəs aldığımız havanın keyfiyyəti sürətlə pisliyə doğru dəyişir. Havadakı zəhərli maddələr bitkilər vaitəsilə insanın qida zəncirinə daxil olur. Bu çirklənmələr insanı zəhərləyir. Məsələn, Bakı şəhərində hava çirklənməsi normadan 3–4 dəfə artıqdır. Dəm qazı, azot, kükürd oksidlərinin çoxluğu ətraf mühiti davamlı olaraq zəhərləyir. Ətraf mühitin çirklənməsi yüksəldikcə xəstəliklər artır, insanların iş əmsalı və həyat səviyyəsi aşağı düşür.

***– Bunun qarşısını almaq mümkündürmü?***

– Ətraf mühitin çirklənməsinin qarşısının alınması üçün, ilk növbədə, yeni texnologiyaların tətbiq olunması vacibdir. Eyni zamanda, tullantıların düzgün idarə olunması da önəmlidir. Məsələn, avtomobillərdən ətraf mühitə buraxılan havanı çirkləndirən zəhərli qazların katalizatorlar vasitəsilə tutulması faydalı ola bilər. Və yaxud bərk tullantıların yandırılması mümkün üsüllardan biridir. Neftlə çirklənməyə gəlincə, modern texnologiyalar tətbiqi ilə hasilat, buruq sularının idarə olunması və başqa işlər çirklənməni azalda bilər. Onu da qeyd edim ki, bu işdə hər bir sahənin özünəməxsus tədbirləri var və onların səmərəli tətbiqi ətraf mühitin normallaşdırılmasına töhfə verə bilər.

***– İnzibati tədbirlər, cərimələr, cəzalar necə?***

– Cərimələr indi də tətbiq edilir. Bu inzibati metodun ətraf mühitin çirklənməsinin qarşısının alınmasında müəyyənköməyi olur. Amma insanların maarifləndirilməsi, onlara lazımı bilik və informasiyaların verilməsi əsas metod olmalıdır. Mühit çirkləndikcə xəstəliklər artır. Hər bir halda, insan başa düşməlidir ki, ətraf mühitin qorunması sağlamlığın qorunmasında mühüm amildir. Çirklənmənin qarşısı alınmazsa, onun fəsadlarının öhdəsindən gəlmək çətin olar, çoxalan infeksiyalar xəstəliklərin yaranmasına və yayılmasına münbit şərait yaradır.

Çirklənmənin artması təbiətə böyük zərbədir. Hesab edin ki, ətraf mühitdə baş verən deqradasiya bitki aləmini məhv edir. Qida, o cümlədən, meyvə, tərəvəz qıtlığı yaranır, olanlar da zəhərlidirsə, onun fasadlarından can qurtarmaq çətinləşir. Ona görə də ətraf mühitin çirklənməsini dayandırmaq insanlığın bir nömrəli hədəfidir. Cəzadan çox, maarifləndirmə və məlumatlandırma əsas metod olmalıdır.

**Söhbəti hazırladı:**
**Nəzrin SALMANOVA,**
**BDU jurnalistika fakültəsinin tələbəsi**

# COVID-19: 79 yoluxma

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 79 yoluxma faktı qeydə alınıb, 72 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında operativ qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 6 nəfər vəfat edib.

İndiyədək ölkədə, ümumilikdə, 830 min 780 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 820 min 94 nəfər müalicə olunaraq sağalıb, 10 min 212 nəfər vəfat edib. Aktiv xəstə sayı 474 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1298, bu günə qədər isə ümumilikdə 7 milyon 575 min 517 test icra olunub.

**"Xalq qəzeti"**

# "AzstateNet" zərərli keçidləri bloklayıb

**Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) dövlət qurumlarının informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə cari ilin birinci rübündə gördüyü işlərlə bağlı statistik məlumatları açıqlayıb.**




XRİTDX-nin mətbuat xidmətindən bildiriblər ki, rüb ərzində "AzstateNet" dövlət şəbəkəsində 148 milyon 130 min zərərli keçid yeni nəsil mühafizə avadanlıqları, 906 min 600 zərərverici virus mərkəzləşdirilmiş antivirus sistemi vasitəsilə bloklanıb. Həmçinin, virus tərkibli 29 min 700 sənədin xüsusi mühafizə sistemləri vasitəsilə aşkarlanaraq dövlət qurumlarına göndərilməsinin qarşısı alınıb.

**"Xalq qəzeti"**

# Zəngəzur dəhlizi bəşəri layihədir

## Bu yol beynəlxalq iqtisadi əməkdaşlığa və bölgədə sülhə töhfə verəcək

**Vətən müharibəsində əldə edilən tarixi qələbədən sonra imzalanan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda Ermənistanın Azərbaycanın Qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyini reallaşdırmalı olduğu bildirilib. Başqa sözlə, ölkəmizin Qərb hissəsi ilə Ermənistanın ərazisindən keçərək nəqliyyat əlaqələrinin yaradılması müvafiq şəkildə tarixi Zəngəzur dəhlizinin aktuallığını ortaya çıxarıb. Bununla da sözügedən dəhliz Mərkəzi Asiya və Cənubi Qafqaz, Avropa və Asiya arasında olan iqtisadi əlaqələrin yaranmasında və inkişaf etdirilməsində həlledici rolu şərtləndirib.**

Prezident İlham Əliyev çıxışlarının birində Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyətindən danışaraq deyib: “Təkcə Orta Asiya ölkələrinin yükgöndərmə potensialını və oraya Avropa istiqamətindən gedən yükləri nəzərə alsaq görərik ki, hətta biz bütün bu layihələri icra etsək və genişləndirsək, yenə də çatmayacaq. Ona görə Zəngəzur dəhlizinin iqtisadi səmərəsi heç kimdə şübhə doğurmamalıdır”.




Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyətindən danışarkən bir məqama toxunmaq istərdik. Bunun üçün əvvəlcə Orta Dəhlizin fəaliyyətinə nəzər salaq. Hesablamalar göstərir ki, Çindən Avropaya gedən yük qatarı bu dəhliz vasitəsilə 12 gün ərzində 7 min kilometr məsafə qət edir. Bu da Asiya ilə Avropa arasında qlobal ticarətdə adıçəkilən infrastrukturun nə qədər sərfəli və təhlükəsiz olduğunu göstərir. Halbuki eyni qatar Cənub Dəhlizi üzrə Süveyş kanalı üzərindən gəmi ilə 20 min kilometr yol qət edir. Bu mənada Azərbaycan reallaşmasına töhfə verdiyi Orta Dəhliz öz imkanları ilə şübhəsiz ki, region ölkələrinin koordinasiyalı əməkdaşlığı sayəsində dünya ticarətinin ən mühüm həlqələrindən biri kimi diqqət çəkir.

Zəngəzur dəhlizinin də Orta Dəhlizə inteqrasiya ediləcəyi nəzərdə tutulur. Belə halda Azərbaycan ərazisindən illik təxminən 35 milyon ton yükün daşınmasına imkan yaranar.

Ötən ilin yekunları göstərir ki, respublikamızın ərazisindən daşınan yükün həcmində 30 faizdən çox artım qeydə alınıb. Bu da regiona, o cümlədən yükdaşımalar baxımından Azərbaycana marağın artmasından xəbər verir. Region nəqliyyat habına çevrilir, Azərbaycan isə burada aparıcı ölkədir və Zəngəzur dəhlizinin istifadəyə verilməsi respublikamızın beynəlxalq yükdaşımalarda mövqeyinin gücləndirilməsi baxımından vacibdir.

Zəngəzur dəhlizinin digər bir iqtisadi əhəmiyyəti isə Mərkəzi Asiya ölkələrinin bu yeni nəqliyyat dəhlizindən gələcəkdə istifadəsi ilə bağlıdır. Başqa sözlə, Zəngəzur dəhlizi “Aşqabad müqaviləsi” adı ilə tanınan anlaşmaya qoşulan ölkələrinin Avropaya reinteqrasiyası üçün yeni perspektivləri şərtləndirir. Belə ki, sözügedən müqavilə Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafını gerçəkləşdirmək məqsədi daşıyır.

Yeri gəlmişkən, adları çəkilən ölkələr vasitəsilə həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizindən Avrasiya bazarlarına çatdırılması Qarabağ regionunun iqtisadi potensialının artmasında xüsusi rol oynaya bilər.

Beləliklə, 123,8 kilometrlik Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd, 70 kilometrlik Xudafərin–Qubadlı–Laçın, 73 kilometrlik Kəlbəcər–Laçın, 13 kilometrlik Füzuli–Hadrut və 45 kilometrlik Bərdə–Ağdam yollarının inşası Qarabağ regionunun, o cümlədən Azərbaycanın nəqliyyat dəhlizlərinə çıxışını çoxşaxəli etməklə bu coğrafiyadan keçəcək xətlərin önəmini də artıracaq.

Ötən ay Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin Milli Məclisə illik hesabatında Zəngəzur dəhlizinin formalaşması istiqamətində aparılan işlər barədə danışaraq Horadiz–Ağbənd yolunun 38, Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd yolunun isə 74 faizinin tikildiyini və bu yolların 2025-cü ildə istismara veriləcəyinin planlaşdırıldığını bildirib.

Yeri gəlmişkən, hazırda bu infrastrukturun nəzərdə tutulduğu vaxtda tamamlanması məqsədilə tikinti layihələri sürətlə gerçəkləşdirilir. Kür çayı üzərində, Ələt–Osmanlı mənzilində Ələt–Horadiz–Ağbənd dəmir yolu xəttini birləşdirən ikinci dəmir yolu körpüsünün tikintisinin artıq yekunlaşması da qarşıya qoyulan vəzifənin diqqət mərkəzində saxlanıldığını nümayiş etdirir.

Xatırladaq ki, yaxın günlərdə körpünün istismara verilməsi gözlənilir. Bu gün körpüdə dəmir yolu xətti quraşdırılır, ətraf ərazilər abadlaşdırılır və yenilənir.

Körpüdən keçən dəmir yolu xəttində həm böyük həcmli yükdaşımalar, həm də sərnişindaşıma həyata keçiriləcək. Bu, Naxçıvan və Türkiyə istiqamətində intensiv iqtisadi əlaqələrin yaranmasına öz töhfəsini verəcək. Ən əsası isə 30 il iqtisadi blokadada qalan Naxçıvanın iqtisadi inkişafına, insanların gediş-gəlişinə əlverişli imkan yaradacaq.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

### *Ekspert rəyi*

**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**



Zəngəzur dəhlizinin istismara verilməsi ilə, ilk növbədə, Naxçıvan Muxtar Respublikası iqtisadiyyatı milli iqtisadi proseslərə inteqrasiya olunacaq. Bu, Naxçıvanda istehsal edilən sənaye və kənd təsərrüfatı məhsullarının istər ölkəmizin paytaxtına, istərdə də digər regionlara maneəsiz, eyni zamanda, vaxt itkisi olmadan çatıdırlmasını şərtləndirəcək. Bununla yanaşı, respublikamızın digər bölgələrində fəaliyyət göstərən iş adamlarının naxçıvanlı sahibkarlarla ortaq istehsal və biznes layihələrinin həyata keçirilməsinə əlverişli şərait yaranacaq.

Dəhliz Asiya ilə Avropa arasındakı əlaqələndirici imkanların təşəkkülündə mühüm rol oynayacaq, region dövlətləri, eyni zamanda dünya ölkələri arasında iqtisadi-ticari əlaqələrin şaxələnməsinə təminat yaradacaq. Bütün bunlarla yanaşı, Azərbaycan və Türkiyə dövlətlərinin dostluq və qardaşlıq münasibətlərinin yeni perspektivlər əsasında inkişafına, daha yeni layihələrin reallığa çevrilməsinə, ölkəmizin ərazi bütövlüyünün daha da möhkəmlənməsinə, respublikamızın müəllifi olduğu layihələrin meqaiqtisadi əhəmiyyətinin daha da artmasına müsbət təsir göstərəcək, yeni prioritetlər müstəvisində turizm mobilliyini gerçəkləşdirəcək.

Göründüyü kimi, Zəngəzur dəhlizi böyük iqtisadi əhəmiyyət daşımaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, eləcə də Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın inkişafını müsbət təsir göstərməklə bərabər, ölkəmizin yerləşdiyi regionun, o cümlədən Asiya və Avropanın iqtisadiyyatına inteqrasiyanı sürətləndirmək gücündədir.

Bu coğrafiyada belə bir kommunikasiyanın–dəhlizin fəaliyyətə başlaması, ümumiyyətlə, region ölkələrinin–Azərbaycan, İran və Türkiyənin də sosial-iqtisadi yüksəlişinə əsaslı töhfə verəcəyi heç bir şübhə doğurmur. Dəhlizin Qərb ilə Şərq arasında olan iqtisadi əlaqələrin dərinləşməsinə, yaranan ticarət həlqəsinə əlavə dəyər vermesinə önəmli təsir göstərəcəyi də böyük əhəmiyyət daşıyan bir faktdır.

Transregional önəmə malik olan Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında ticarət əlaqələrinin diversifikasiyalaşmasına xidmət edəcək. Bir sözlə, regional əməkdaşlığın gücləndirilməsi və region ölkələrinin iqtisadi təhlükəsizliyin artırılması fonunda adıçəkilən dəhliz layihəsinin icrası nəzərəçarpacaq dərəcədə dəyişikliyə gətirib çıxaracaq.

Beləliklə, Zəngəzur dəhlizinin işə düşməsi ilə iqtisadi əlaqələrin genişlənməsi təkcə iqtisadi mənfəətin qazanılması ilə nəticələnməyəcək, həm də regionun təhlükəsizliyinə, bölgədə sülhə töhfə verəcək. Dayanıqlı iqtisadi inkişaf və sülh isə gələcəkdə təhlükəli millətçi düşüncələrin yayılmasının, regionda yeni münaqişələrin yaranmasının qarşısını alacaq.

# “Azərsu” rəhbərliyi Naftalanda vətəndaş qəbulu keçirib



**Mərkəzi icra hakimiyyəti orqanlarının, digər idarəetmə qurumlarının rəhbərlərinin 2023-cü ilin aprel ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsini müvəqqəti icra edən Köçərli Həsənov 2023-cü il aprelin 14-də Naftalanda Naftalan şəhəri, Goranboy və Xocalı rayonlarından olan sakinləri qəbul edib.**

Qəbuldan əvvəl “Azərsu” ASC-nin sədri vəzifəsini müvəqqəti icra edən Köçərli Həsənov və Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Novruzov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstəsi düzərək ulu öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Naftalan şəhəri Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Naftalan şəhəri, Goranboy və Xocalı rayonlarından olan 29 nəfər iştirak edib. Vətəndaşların müraciətləri içməli su təchizatı və tullantı sularının axıdılması xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub. Müraciətlərin araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib.

***“Xalq qəzeti”***



# Azərbaycan 171 ölkəyə qeyri-neft məhsulları ixrac edir

**Xarici ticarət dövriyyəsi, idxal-ixrac əməliyyatları ölkələrarası münasibətlərin, iqtisadi əlaqələrin inkişafında mühüm amillərdəndir. Məhz buna görədir ki, dövlət başçıları, eləcə də nümayəndə heyətləri arasında keçirilən görüşlərin, danışıqların əsas mövzularından birini də məhz xarici ticarət dövriyyəsinin artırılması təşkil edir. Elə Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin ötən dövründə dünyanın bir sıra ölkələrinin dövlət və hökumət başçıları ilə keçirdiyi görüşlər zamanı da ticarət əlaqələrinin mövcud vəziyyəti və perspektiv imkanları barədə geniş fikir mübadiləsi aparılıb.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatına görə, 2023-cü ilin ilk rübündə Azərbaycan dünyanın 171 ölkəsi ilə 11 milyard 771 milyon 190 min dollarlıq idxal-ixrac əməliyyatı aparıb ki, bu da ötən illin eyni dövrünə nisbətən 7,3 faiz çoxdur. Xarici ticarət dövriyyəsinin 7 milyard 741 milyon ABŞ dolları ixracın, 4 milyard 30 milyon ABŞ dolları isə idxalın payına düşüb. Göründüyü kimi, hesabat dövründə Azərbaycanın xarici ticarət dövriyyəsində 3 milyard 711 milyon 470 min dollarlıq müsbət saldo yaranıb.

Ən diqqətçəkən məqam isə ondan ibarətdir ki,cari ilin ilk rübündə Azərbaycanın qeyri-neft ixracı 23,2 faiz artaraq 912,2 milyon ABŞ dolları səviyyəsinə çatıb. Bu da ölkəmizin apardığı ixrac əməliyyatlarının tarixində ilin birinci rübü ərzində əldə olunmuş ilk belə uğurdur.

Ötən illərdən fərqli olaraq qeyri-neft ixracının əsas hərəkətvericini qüvvəsini elektrik enerjisi təşkil edib. Belə ki, cari ilin ilk rübündə elektrik enerjisi istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 551,7 milyon kilovat-saat, yəni 7,7 faiz artaraq 7 milyard 756,2 milyon kilovat-saat təşkil edib ki, bunun da 16,6 faizi ixraca yönəlib. Bütövlükdə isə, birinci rübdə elektrik enerjisinin ixracı 6,1 dəfə və ya 234,7 milyon artaraq 281,1 milyon ABŞ dollarına çatıb.

Yeri gəlmişkən, 2022-ci ilin qeyri-neft ixracının strukturunda 6-cı mövqedə qərarlaşan elektrik enerjisinin ticarət gəlirləri 121,6 milyon ABŞ dolları təşkil etdiyi halda, cari ilin elektrik enerjisi ixracı ötən ilin yekun ixrac dəyərindən 2,3 dəfə çoxdur. Ən diqqətçəkən məqam isə ondan ibarətdir ki, təkcə bu ilin mart ayında ölkəmizdə elektrik enerjisi istehsalı 11,7 faiz, ixracı isə 22 dəfə artıb.

Elektrik enerjisi ixracının əhəmiyyətli səviyyədə artımı Türkiyəyə həyata keçirilən ixracın sürətli artımı ilə əlaqədardır. Belə ki, 2023-cü ilin yanvar–fevral ayları ərzində Azərbaycanın Türkiyəyə qeyri-neft ixracı 78,7 faiz artaraq 273,9 milyon ABŞ dolları təşkil edib. Təkcə fevral ayında qardaş ölkəyə ixracın dəyəri iki dəfə artaraq 167,2 milyon ABŞ dolları səviyyəsinə çatıb. Bu sahədə əhəmiyyətli artımın əsas səbəbi isə məhz elektrik enerjisinin ixracı ilə bağlı olub.

Onu da qeyd edək ki, 2023-cü ilin yanvar-mart ayları ərzində yeyinti məhsullarının ixracı 5,7 faiz artaraq 169,9 milyon ABŞ dolları təşkil edib. Bu göstərici qeyri-neft ixracının 18,6 faizini təşkil etməklə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 bənd daha azdır. Hesabat dövründə aqrar və aqrar-sənaye məhsullarının ixracı 3,4 faiz artaraq 178,9 milyon ABŞ dolları təşkil edib. Bu sahədə artımın əsas hərəkətverici qüvvəsi ötən illərdən fərqli olaraq kənd təsərrüfatı ilə bağlı sənaye istehsalı ilə əlaqədardır. Bütövlükdə isə, ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkmizdən aqrar-sənaye məhsullarının ixracı 19,6 milyon ABŞ dolları və ya 56,3 faiz artıb. Yeri gəlmişkən, sənayenin istehsalının artımı emal edilən heyvan mənşəli məhsullar, eləcə də alkoqollu və alkoqolsuz içkilər hesabına baş verib.

Göründüyü kimi, Azərbaycanda strateji məhsulların idxalında və ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının təmin olunması, daxili bazarın marketinqinin düzgün müəyyən edilməsi, gömrük əlaqələrinin sadələşdirilməsi, eləcə də əlverişli biznes mühiti və s. amillər, heç şübhəsiz, ölkəmizin xarici ticarət dövriyyəsində qeyri-neft sektorunun payının daha da artmasına səbəb olacaq.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***

### *Ekspert rəyi*

**Təbriz YADİGAROV,**
**Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi şöbəsinin aparıcı elmi işçisi**



Son illər iqtisadiyyatın dekarbonlaşdırılması Azərbaycan üçün əsas prioritet istiqmətlərdən birinə çevrilib. Bu da uzunmüddətli inkişaf planının bir hissəsi kimi karbohidrogen ixracından asılılığı mərhələli şəkildə azaldaraq iqtisadiyyatın şaxələndirilməsinə imkan yaradır.

2023-cü ilin ilk rübündə neft-qaz sektorunda əlavə dəyər 3,9 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 4,9 faiz artıb. Ötən üç ayda xarici ticarət dövriyyəsinin əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,9 faiz artması da bunun nəticəsidir.

Cari ilin ilk rübündə xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə neft-qaz sektoruna daxil olmayan malların ümumi ixracatda payı 11,8 faiz olmaqla 912 milyon 193 min dollar təşkil edib. Bu isə 2022-ci ilin müvafiq dövrünə nisbətən 25 faiz və yaxud 185 milyon dollar çoxdur. Həmin malların 90,9 min tonunu və yaxud 115 milyon dollarını tərəvəz və meyvələr təşkil edir ki, bu da ümumi ixracın 1,48 faizi deməkdir. Müqayisə üçün qeyd edək ki, əvvəlki ilin ilk üç ayında ölkəmiz 125 milyon dollar dəyərində 97 min ton meyvə tərəvəz ixrac edib. Bununla yanaşı, cari ilin birinci rübündə Azərbaycandan xaricə 180,2 ton çay, 2677 ton bitki və heyvan mənşəli piy və yağlar, 13 min 538 ton şəkər, 6120 ton emal edilmiş tərəvəz və meyvələr göndərilib.

Hesabat dövründə hazır və klinker formasında sement ixracı 130 min 229 ton təşkil edib. Elektrik enerjisinin neft-qaz sektoruna daxil olmayan malların ixracatda payı 30,8 faiz, ümumi ixracda isə 3,6 faiz olmaqla daha yüksəkdir. İlin ilk rübündə ölkəmizdən, ümumilikdə, 208 min 473 ton kimya sənayesi məhsulları ixrac edilib ki, bunun da 99 min 634 tonunu metanol, 93 min 618 tonunu azot gübrəsi, 132 min 847 tonunu isə plastmas və onlardan hazırlanan məmulatlar təşkil edib.

Statistik məlumatlar göstərir ki, Azərbaycan dünya ölkələri ilə assosiativ fəaliyyətini daim genişləndirərək idxal sahəsində siyasətini daha çox balansladırmağa yönəldib. Bu isə dünya ölkələrinin Azərbaycanın xarici siyasətinə ciddi təsir etməsinin qarşısını almağa imkan verən çox mühüm göstəricidir. Bütövlükdə isə, ölkəmizdə qeyri-neft sektorunun inkişafı üçün yaradılan münbit şərait və əlverişli nəqliyyat dəhlizi layihələrinin reallaşdırılması, xarici ticarətin inkişafında və iqtisadiyyatın şaxələndirilməsində mühüm rol oynayaraq qeyri-neft-qaz sektorunun inkişafını daha da sürətləndirəcək.

# Dünən Bakının 533 küçəsi yuyulub

**Bakı Şəhər İcra Hakimiyyətinin qərarına uyğun olaraq, dünən Bakı şəhərində təmizlik və abadlıqla bağlı növbəti ümumşəhər daxili iməciliyi keçirilib.**

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətindən verilən məlumata görə, iməcilik zamanı 533 əsas küçə və prospektlərin yuyucu maddələrlə yuyulması təmin edilib, təmizlik və abadlıq işləri həyata keçirilib.

Bu gün paytaxtın küçə və prospektləri, park və bağları təmiz və baxımlı vəziyyətdədir. Bu hal sakinlərimiz və paytaxtın qonaqları tərəfindən xüsusi olaraq qeyd edilir. Dünən keçirilən iməcilik Bakımızın daha da abadlaşmasına və gözəlləşməsinə töhfə olub.



# Orduda növbəti buraxılış mərasimi



**Əlahiddə Ümumqoşun Orduda növbəti zabit təkmilləşdirmə, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarının uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.**

General-mayor Məhəmməd Həsənov çıxış edərək bildirib ki, ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev daim Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi məsələsini diqqət mərkəzində saxlayır.

O, kursları uğurla başa vuran məzunların onlara etibar olunacaq hər bir vəzifənin məsuliyyətini dərindən dərk edəcəklərinə, bundan sonra da hərbi bilik və bacarıqlarını artıraraq Əlahiddə Ümumqoşun Ordunun silahlanmasına yeni qəbul olunmuş müasir silah, texnika və qurğuları peşəkarlıqla idarə edəcəklərinə inandığını bildirib.

Sonda məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Kurs birinciləri xatirə lövhələrinə buraxılış emblemlərini vurduqdan sonra tribuna önündən təntənəli keçid olub.

# Xızıda sursat partlayıb

**APA xəbər verir ki, hadisə Yaşma yaşayış ərazisində qeydə alınıb.**

Məlumata görə, iki mülki şəxs ölüb, bir mülki şəxs xəsarət alıb. Xəsarət alan şəxs xəstəxanaya yerləşdirilib. Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları cəlb edilib, araşdırma aparılır.




# İran vətəndaşları tərəfindən narkokuryerliyə cəlb edilən daha 18 nəfər saxlanılıb

**Nərimanov Rayon Polis İdarəsinin 16-cı Polis Bölməsinin əməkdaşlarının son bir ay ərzində həyata keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsini və satışını təşkil edən ümumilikdə 18 nəfər saxlanılıb. Onlardan 5 kiloqrama yaxın narkotik vasitə, psixotrop maddə, eləcə də elektron tərəzilər götürülüb.**

Həmin şəxslər – Tamerlan Əliyev, Nurlan Aqdamifar, Amid Nəbiyev, Orxan Axundov, Elçin Cəfərov, Ramil Məcnuni, Sultan Rzayev, Kahin Məmmədov, Ağasəf Xurşidov, Vüsal Əzizov, Rəşad Aslanov, Feyruz Cavadov, Rahil Qəniyev, Əminə Səfərova, İlyas Xudadatzadə, Rövşən Abdulov, Rövşən Vəliyev və Gülnar Ağayeva barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb. Saxlanılan şəxslərin bir neçəsi narkotik vasitələri qanunsuz dövriyyəsi ilə məşğul olan İran vətəndaşından Bakı şəhərində satmaq məqsədilə aldıqlarını bildiriblər.

Nərimanov rayonu ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin ifşa edilməsi istiqamətində əməliyyatlar davam etdirilir.

*Biz deməsək – düz deməsək...*

# Qəssababənzər cərrahlar...

## *qazanc virusuna yoluxmuş həkimlər*

**Ərəbcədən dilimizə keçmiş qəssab və cərrah sözləri peşə bildirən eyni qəlibdən çıxsa da mənaları çox fərqlidir. Biri bıçaqla heyvan kəsib-doğrayıb satana, o birisi isə insanın bədənini yarıb sağaldana deyilir.**



Amma zaman dəyişəndən sonra bu peşələrin məzmunca da oxşar cəhətləri qabarıq şəkildə üzə çıxdı. Məsələn, qəssab aldığı danaya baxıb ölüstü bilir ki, qazancı nə qədər olacaq. Cərrah da onun kimi, yanına gələn xəstəliyə görə qazancını hesablayır. Qəssab heyvanı alandan sonra arın-arxayın gətirib bağlayır ət dükanın qabağına. Cərrahın isə xəstənin əldən çıxmaması üçün "təcili kəsilməlidir, yoxsa lap pisləşər" deyib onu tələsdirir. Belə tələsikliyin nəticəsində hətta sağ ayağın yerinə sol ayağın kəsilməsi halı, ağrılı diş əvəzinə sağlam dişin çıxarılması halları da olub.

Cərrahların belə tələskənliyi başadüşüləndir: Birdən xəstə əməliyyatdan qaçar, yaxud başqa cərrah tapar. Bir var ki, xəstəni müalicə ilə sağaltmaq üçün həftələr, aylar keçə, haqqını günlər sonra alasan; bir də var ki, uzağı, bir neçə saata kəsib-doğrayıb haqqını alasan. Qoy, oxucular düşünməsinlər ki, bunları özümdən uydururam. Yox gördüklərimi, anladıqlarımı söyləyirəm. Atalar demişkən, başına gələn başmaqçı olar. Konkret misal istəyirsinizsə, onu da deyim.

Bir neçə ay əvvəl boğazım məni çox incidirdi. Həkim qonşum limfa düyünü əmələ gəlməsindən şübhələnib məni cərrah-endokrinoloq tanışının yanına göndərdi. Analizlərdən sonra laboratoriyada bildirdilər ki, düyün var, amma, əməliyyata ehtiyac yoxdur. Cərrah isə mənə müalicə yazmaq yerinə ciddi şəkildə dedi: "Canının birdəfəlik qurtarmasını istəyirsənsə, gəl vəzilərini kəsib, götürək". "Yox", – deyib çıxıb getdim.

Başqa bir misal. Ayaqlarımdakı varikoz genişlənməsini lazer əməliyyatı ilə götürmək üçün ötən ilin elə bu vaxtında paytaxtın sağlamlıq mərkəzində adı çıxmış bir professorun yanına getdim. Analizləri verəndən sonra həkimlə söhbət edirdim ki, köməkçisi hay-haşirlə xəbər verdi ki, bəs sabah səhər əməliyyat olunacaq xəstə gəlməyəcək. Elə bu vaxt professor məni göstərib arxayınlıqla dedi:

– O olmasın, bu olsun. Müəllimi əməliyyata hazırlayın.

Məcbur olub bildirdim:

– Professor, mənim kardeoloji analiz cavablarım sabah hazır olacaq.

Həkim isə artıq qərarını vermişdi:

– Əşşi, eybi yoxdur. Əməliyyatdan qabaq baxarıq.

Məsələ aydın idi. Cərrahı düşündürən əsas məsələ əməliyyat edəcəyi daha bir xəstə, ondan alacağı məbləğ idi.

Qəzəb qarışıq təəccüblə soruşdum:

– Birdən ürəyimə görə məni əməliyyat etmək olmazsa, necə?!

Əlqərəz, birtəhər bu başabəla professordan canımı qurtarıb evə qaçdım.

"Korona"dan qabağın söhbətidir. Yaxın bir dostumun başına gələnlər həm gülməli, həm də ağlamalı idi... Onun ayağında ziyil əmələ gəlmişdi. Həkimlər demişdilər: "Xərçəngdir, qıçını kəsmək gərəkdir, qiyməti də filan qədərdir. Kəsməsək, öləcəksən".

Təbii ki, o, nə ölməyə, nə də ayağının kəsilməsinə razı idi, müalicə olunmaq istədi. Növbəti dəfə xəstəxanaya yarasının sarıtmağa gedəndə, başqa bir həkim, guya, onun halına acıyaraq demişdi:

– Görürəm, pensiyaçısan. Deyilən məbləğə gücün çatmır. Sabah mincə mənat gətir, özüm kəsəcəm.

Bu melodramın sonu belə qurtardı:



Dostumun qızı xəstəlik haqqında bütün məlumatları qardaş Türkiyədəki tanışına göndərdi, oradan cavab gəldi ki, xəstəni gətirin, müalicə edək. Bir sözlə, Türkiyədə onu sağaldıb geri yola saldılar.

Mən bizim həkimləri aşağılamaq istəmirəm. Yaxşı həkimlərimiz də çox olub, hələ də yox deyil. İndi bacarıqlı doktorlarımız daha çoxdur. Bir çoxu da Türkiyədə uzmanlıq qazanıb gəlib. Sadəcə işləri korlayan vaxtında gəlməmiş kapitalizmdir. Sosializmin pulsuz səhiyyəsini indinin özəl, pullu təbabəti əvəz edib. Tibbi sığorta da hələ gözlənən səmərəni vermir.

Belə bir şəraitdə Hippokrat andını, vicdan, insaf haqqında dədə-baba nəsihətlərini və İslam ehkamlarını unutmuş əksər həkimlərimiz tibbi alverə, indiki anlama desək, biznesə çevirmişlər. İşbaz özəl xəstəxana sahibləri tibbi haram qazanc virusu ilə yoluxdurmuşlar. Dərman alış-verişini qazanclı ticarət sahəsinə çevirmişlər. İstehsalçı şirkətlərlə dilbir olub, qiymətini aşağı salmaq üçün dərmanların tərkibini dəyişdirirlər. Odur ki, belə dərmanların xəstələrə təsiri olmur. Bunu çoxları deyir. Xəstələrimiz çalışırlar ki, dərmanı xaricdən gətizdirsinlər, onu da gömrükdə əngəlləyirlər.

Bəli, viruslara yoluxmuş xəstələri sağaltmalı olan qəssababənzər cərrahlar özləri haram qazanc virusuna yoluxmuşlar. Onlar özləri bu virusu məhv etməlidirlər. Söhbət xalqın sağlamlığı kimi ciddi məsələdən gedir.

***Fazil GÜNEY,***
***yazıçı-publisist***

# Qorxaqlıqdan doğan qəddarlıq!

**Dumanlı hava şəraitidə yolunu azaraq Ermənistan ərazisinə keçən əsgərimiz – Axundov Hüseyn Əhliman oğluna qarşı ermənilərin dözülməz işgəncələr verərək sosial şəbəkələrdə onu yayımlaması təkcə Azərbaycanın yox, bütün sivil dünyanın ciddi qınağına səbəb olub. Faktla bağlı açıqlama verən ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu bildirib ki, "Ermənistanda azərbaycanlı hərbçiyə qarşı aşkar pis rəftarın görüntüləri dərin narahatlıq doğurur".**

Bəyanatda, həmçinin baş verən olayın araşdırılmasının və onu törədənlərin məsuliyyətə cəlb edilməsinin vacibliyi qeyd olunub.

Azərbaycan xalqı ATƏT və digər beynəlxalq təşkilatların verdiyi oxşar bəyanatları dəstəkləsə də, bu bəyanatların praktiki müstəvidə hansısa konkret nəticələr verəcəyinə cəmiyyətin ümidi azdır. Buna səbəb ermənilərin son iki əsrdir ki, xalqımıza qarşı həyata keçirdikləri silsilə qətliamlara və ağır cinayətlərə görə hələ də beynəlxalq təşkilatlar tərəfindən məsuliyyətə cəlb olunmamasıdır. Maraqlıdır ki, beynəlxalq təşkilatlar bəzi hallarda erməni vəhşiliyini etiraf etmək və qınamaq məcburiyyətində qalsalar da, bu günə qədər heç bir beynəlxalq qurum törətdiyi vəhşiliklərə görə Ermənistana hər hansı sanksiya, yaxud digər məhdudlaşdırıcı addım atmayıb. Məhz bu səbəbdən də Azərbaycan xalqı hesab edir ki, beynəlxalq təşkilatların növbəti erməni vəhşiliyi ilə bağlı verdiyi bəyanatların ardından rəsmi İrəvana konkret təzyiq göstərilməyəcəksə, bunların özlüyündə heç bir mənası yoxdur.

### Zorakılığın arxasında nələr dayanır?

Ermənistanın beynəlxalq konvensiyalara zidd olaraq köməksiz vəziyyətdə olan Azərbaycan əsgərinə amansız işgəncələr verməsi bir sıra amillərlə bağlıdır. Bunlardan ən başlıcası zülm və işgəncə verməyin erməni xislətinin ayrılmaz tərkib hissəsi olması ilə əlaqədardır. Ermənilər əsgərimizə hər şeydən öncə ona görə işgəncə veriblər ki, onlar başqa cür davrana, öz mahiyyətlərinin, yaradılışlarının fövqündə dayana bilmirlər. Yəni, ilan və əqrəbin elə ilk fürsətdə insanı sancması, onu zəhərləməsi nə qədər təbiidirsə, ermənilərin digər xalq və millətlərə münasibətdə bu cür amansızlıq sərgiləməsi də bir o qədər təbii və gözləniləndir. Əslində, onları sadəcə Azərbaycan xalqı üçün deyil, bütün region xalqları üçün təhlükəli edən ən başlıca amil də məhz budur.

Əsgərimizə verilən işgəncənin səbəblərindən biri də Ermənistanın 44 günlük Vətən müharibəsindəki məğlubiyyəti heç cür həzm edə bilməməsi, dövlət və xalq olaraq uğradıqları bu məğlubiyyətin "əvəzini" köməksiz vəziyyətdə ələ keçirdiyi tənha Azərbaycan əsgərinə işgəncə verməklə çıxmağa çalışmasıdır. İrəvan 44 günlük Vətən müharibəsindəki rüsvayçı məğlubiyyətin doğurduğu bütün qəzəb və çarəsizliyi əsir əsgərimizə qarşı püskürməklə təsəlli tapmağa, mənən və ruhən rahatlanmağa çalışır. Ermənistan insanlıqla bir araya sığmayan bu cür vəhşiliklə özünü inandırmağa çalışır ki, guya, müharibədən sonra da mübarizə aparmağa, düşməndən qisas almağa qadirdir.

### Bu, həm də doğma yurduna, soydaşlarımıza hədə mesajıdır

Əsir əsgərimizə verilən dəhşətli işgəncələrin arxasında, həm də Qarabağa – işğaldan azad edilmiş tarixi Azərbaycan torpaqlarına qayıtmağa başlayan insanlarımızı qorxutmaq, onlarda vahimə yaratmaq niyyəti dayanır. Ermənistan hesab edir ki, azərbaycanlı əsirlərə nə qədər qorxunc işgəncə verərsə, bu, işğaldan azad edilmiş ərazilərdə soydaşlarımızın məskunlaşmasının qarşısını almaq baxımından bir o qədər effektiv ola bilər. Buna görə də Ermənistan əsirimizə verilən işgəncələri nümayişkaranə surətdə ictimailəşdirmiş, bunu "qəzəbli erməni xalqının azərbaycanlı əsirə göstərə biləcəyi ən humanist davranış" kimi qələmə vermişdir.

Xatırladaq ki, Qərbi Azərbaycan İcması da işgəncə faktı ilə bağlı yaydığı bəyanatda məlum reallığa toxunur, ermənilərin bunu xof yaratmaq məqsədilə gerçəkləşdirdiyini bildirir: "Vaxtilə azərbaycanlıların çoxluq təşkil etdiyi və zorla qovulduğu Zəngəzur torpağı azərbaycanlıların Ermənistan tərəfindən işgəncəyə məruz qalmasına növbəti dəfə şahid olub. Bu amansız cinayəti təşkil edənlər xalqlar arasında nifaqı daha da dərinləşdirməyi və qorxu mühiti yaradaraq azərbaycanlıları oraya qayıtmaqdan çəkindirməyi hədəfləyirlər".

Göründüyü kimi, Ermənistan qorxaqlığından irəli gələn qəddarlığını "Böyük qayıdış" əngəlləyə biləcək arqument hesab edir. Halbuki, bunun sadəcə ermənilərə olan bəşəri nifrəti artıran növbəti cinayət olduğu göz qabağındadır. Bu cinayətə görə Azərbaycanın atacağı yeganə addım isə Ermənistanı cəzalandırmaq olacaq.

***Seymur ƏLİYEV,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*



**Nil UOTSON,**
**britaniyalı jurnalist, politoloq**

Böyük Britaniyanın vətəndaşı, beynəlxalq hüquqa inanan birisi və, nəhayət, humanist insan kimi, mən erməni əsirliyinə düşən azərbaycanlı əsgərlərə qarşı ingəncələr verilməsini qəti surətdə pisləyirəm.

Videoda əks olunan kadrlardan aşkar göründüyü kimi, ermənilər azərbaycanlı əsirlərlə qəddarcasına rəftar ediblər. Bu, Ermənistan dövləti tərəfindən imzalanmış Cenevrə konvensiyasının, digər mühüm beynəlxalq qanunların kobud surətdə pozulması deməkdir.

Hesab edirəm ki, rəsmi İrəvanın beynəlxalq hüququ təpiklər altına salaraq bu cür ağır cinayət əməlləri törətməsinin və bunu özünə rəva bilməsinin əsas səbəblərindən biri odur ki, Ermənistan və onun iki böyük tərəfdaşı – İran və Rusiya sülh razılaşmasının bağlanmasında maraqlı deyillər.

Rusiya və İranda qeyri-sabitlik zəminində zorakılıqlar baş alıb gedir, lakin onların hər ikisini Ermənistanla Azərbaycan arasında düşmənçiliyi daha da gücləndirmək niyyəti yaxınlaşdırır. Təəssüf ki, Ermənistan tərəfinin hərəkətləri yaxın gələcəkdə sülh müqaviləsinin imzalanacağına və sərhədlərin delimitasiyasının həyata keçiriləcəyinə olan kövrək ümidləri azaldır.

Yalnız danışıqlar vasitəsilə Ermənistan ilə Azərbaycan arasında ziddiyyətlərin nizamlanmasına nail olmaq olar. Mənim fikrimcə, bu məsələdə irəliyə doğru real addım o halda ola bilər ki, ya Brüsseldə, ya da ABŞ-da şəxsi marağı və qərəzi olmayan üçüncü bir tərəfin iştirakı olmadan danışıqlar aparılsın.

Qəlbinin dərinliyində Paşinyan başa düşür ki, o, sülh razılaşmasını imzalamalıdır, amma, o, göründüyü kimi, beynəlxalq erməni diasporunu, eləcə də Rusiya və İranı sakitləşdirmək üçün bu məsələni sonsuzluğa qədər uzatmaq istəyir.

Bununla bərabər, Paşinyan özündə güc tapıb düzgün qərar qəbul etməli və Azərbaycanla sülh müqaviləsini imzalamalıdır. O, ya özünü kişi kimi aparıb düzgün hürəkət etməli, ya da onu əvəz edəcək xələfinin sülh imzalayacağına ümid bəsləmək ümidilə istefa ə r-məlidir. Bununla da, o, Ermənistanın daxilində və erməni diaporu arasında özünə inamı və dəstəyi qoruyub saxlamış olar.

# Güneyin ədəbi "nəbzi"



**Cənubi Azərbaycan və otaylı ədəbiyyat mövzusu hər zaman bizim üçün aktual olub. Ötən əsrin 40-cı illərində orada milli hökumət qurulması ilə ədəbi aləmdə intibah dövrü yaşanıb. Ünlü qələm sahiblərimiz Cənuba gedərək qəzet, jurnal buraxıblar. Mirzə İbrahimov, Mir Cəlal, Balaş Azəroğlu, Söhrab Tahir, Mədinə Gülgün, Hökümə Bülluri, Əli Tudə, Səhənd, Səməd Behrəngi və başqaları ədəbiyyat sahəsində öz fəallıqları ilə cənublu-şimallı ədəbiyyatımızın inkişafına misilsiz xidmət göstəriblər. Amma İranda "Şahnamə" təfəkkürü cövlan etdiyi üçün Pişəvəri hökuməti süquta uğrayıb və nəticədə, Cənubdakı ədəbi proses parçalanıb. Millətin tarixi tale yaddaşını qələmə alan Söhrab Tahir əbəs yerə deməyib:**

*İki bölünməkdən elə qorxmuşam,*
*Çöpü də ikiyə bölmərəm daha.*

*Yaxşı ki, Məhəmmədhüseyn Şəhriyarın, Süleyman Rüstəmin, Bəxtiyar Vahabzadənin məlum şeir və poemaları genetik kodlarımızı yox olmağa qoymayıb. Şükürlər olsun ki, iki bölünmüş xalqın ruhu, mənəviyyatı ayrılmaz qalıb. Süleyman Rüstəm bunu gözəl ifadə edib:*

*Bilirsən ki, suya xəncər, qılınc vursan da ayrılmaz,*
*Ürək birdir, bədən birdir o sahildə, bu sahildə.*

*Vahid Azərbaycan məsələsində ən çox məhz ədəbiyyat xadimlərimiz bir-birinin səsinə səs veriblər. Ötən dövrlərdə Cənubda nəşr olunan anadilli mətbu orqanlarda – "Dədə Qorqud", "Varlıq", "Koroğlu", "Çənlibel", "Araz", "Azərbaycan" və "Odlar yurdu"nda güneyimizin "nəbzi" döyünüb. Yəni, İranın başı Tehran olsa da, ürəyi daim Təbriz olub.*

*Müstəqilliyimiz dövründə ədəbi əlaqələr bir qədər genişlənsə də, Cənub ədəbiyyatında dar ağacı, ağrı, zülm, ayrılıq, həsrət mövzusu qalıb və bu gün qonşu dövlətdə yaranmış irtica vəziyyəti, şovinist siyasətin inadlı təzyiqi poeziya və nəsr sahələrini də sıxışdırmaqdadır. Basqılar, qadağalar davam edir. Ancaq azadlıq duyğusunu, ümumiyyətlə, məhv etmək mümkün deyil və çağdaş Cənub ədəbiyyatı heç nəyə baxmadan yaşayır, mübarizə aparır. Güneydə klassik, ənənəvi üslubla yanaşı, modern və avanqard bir ədəbiyyat da inkişaf edir, yeni özəlliklər diqqət çəkir. Oxucuların daha yaxşı tanıdığı Rüqəyya Kəbiri, Kiyan Xiyav, Səid Muğanlı, Heydər Bayat, İsmayıl Ülkər, Hadi Qaraçay, Nadir Əzhəri, Məhəmmədrza Ləvai, Sayman Aruz, Ülkər Ucqar, Ramin Cabbarlı, Məliha Əzizpur kimi yazarların, həmçinin Toğrul Atabay, Məhəmməd Sübhdil, Murtuza Məcidfər, Nadir Paşazadə və digər ediblərin də ana dilində olan əsərləri sevilə-sevilə oxunur.*

*"Güney Azərbaycan" səhifəsini bu dəfə güneyli şairlərin yaradıcılığına həsr etmişik. Ümidvarıq ki, təqdim olunan müasir poetik nümunələr güneydə söz sənətinin bugünkü "nəbzini" tutmaqla bərabər, həm gənc müəlliflərin tanınması, həm də ədəbi əlaqələrin daha da genişlənməsi məramına xidmət edəcək.*

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

---

## Həbib SAHİR

Cənubun məğrur və mübariz şairi kimi tanınan Həbib Sahir Təbrizin parlaq ulduzlarındandır. Mənası "yatmayan" olan Sahir təxəllüsünə tam uyğun bir həyat və yaradıcılıq yolu keçib. "21 Azər" hərəkatının yaratdığı imkandan istifadə edərək ana dilində gözəl əsərlər yazıb-yaradıb. Coşğun təbli şair hər zaman farsca yazan həmsoylarını kəskin tənqid edib. Onlara üz tutaraq qəzəblə: "Yada qul ol,dərdə alış, farsca danış. Əsirliyi, dərvişliyi təlqin elə uşaqlara..." –deyib. Bütün şüurlu həyatını istibdadın tənqidinə, Azərbaycan türklərinin haqlarının qorunmasına həsr etmiş azadlıq nəğməkarı 1988-ci ildə dünyasını dəyişib.



### *BİZİM DİLİMİZ*

*Bizim türki şirin dildir,*
*Xoş sədalı zəngin dildir.*
*Dil günəşdir, işıq saçar,*
*Səadətə qapı açar.*
*Yadın dili: "boyunduruq"!*
*Bir keçiddir: buruq-buruq.*
*Gəl atəşə, qızım, yanma,*
*Tərihama çox inanma.*
*Zənci danmaz öz dilini,*
*Hindi sevər öz elini.*
*Kimsə yolun çaşıb azmaz,*
*Türki deyib, farsi yazmaz.*

## Ruqəyyə KƏBİRİ

Tibb işçisi olan Rüqəyya Kəbiri çağdaş Cənubi Azərbaycan ədəbiyyatında mifik qaynaqlardan bəhrələnən, psixoloji detallara önəm verən yazar kimi tanınır. O, Cənubi Azərbaycan ədəbiyyatında roman və səfərnamə janrını qələmə alan ilk qadın yazıçıdır. 1963-cü ildə Xoy şəhərində dünyaya gəlib. Təbriz Universitetinin tibb fakültəsində təhsil alıb. Təhsilini bitirdikdən sonra bir müddət Salmas və Təbriz xəstəxanalarında işləyib. Yaradıcılığa erkən başlasa da, uzun müddət əsərlərini nəşr etdirməyib. "Təbrizin al təbim" şeir toplusu, "İçimdəki qız", "Bu qapı heç çalınmayacaq" hekayələr toplusu, "Evim", "Yerdən uca torpaq" romanları nəşr olunub.

### *GÖZƏLİM BAKI!*

*Gözəlim Bakı!*
*Səndən aldığım ödülə deyil,*
*kirpiklərimin arxasında*
*gözlərimə toxunmadan*
*bəbəklərimə baxdın deyə,*
*duyğulanıram.*
*Yanaqlarıma,*
*dodaqlarıma bir toxunsaydın,*
*kokum sarmaş-dolaş*
*yüksələrdi Oğuz qalasına -*
*Qız qalasına.*
*Dənizə bağışladığın nəfəsin*
*Toxunsaydı nəfəsimə,*
*Xəzər dalğalanardı tənimdə...*
*Gözəlim Bakı!*
*İndisə səninlə üz-üzə, göz-gözə*
*və ağlımızda ilmək-ilmək*
*toxunan ipək buludlar*
*gözlərimin quraqlığına yağır...*

## Elşən BÖYÜKVƏND

1988-ci ildə Muğan şəhərində anadan olub. Hazırda İstanbul Yeditepe Universitetində siyasət elmləri üzrə təhsil alır. Bir sıra şeiri ingilis, rus və fars dillərinə çevrilib. Bakıda da məqalə, esse və şeirləri dərc olunub. Çağdaş Güney Azərbaycan ədəbiyyatının ünlü simalarından biri sayılır.

### *YAĞAN GÜNƏŞ*

*Küləyin dili ilə yağan*
*günəşdən soruş*
*Qızların ruh usandıran*
*qızmarlığını.*
*İlmələri sökülüb*
*dodaqdan qopunca*
*Uçuşan kəpənəklərdən soruş*
*Şeirin azğınlığını.*
*Sıxınca qızıl üzüklü misralarını*
*Beytə çevrilir əllər*
*və əriyir qafiyələr.*
*Sürməli sözün*
*pəncərəsidir gözlərin,*
*Göyqurşaqlı dalğalar*
*Dodağından süzər, süzülər.*
*Səssizliyə oraqlanan*
*səsin sünbüllərinə*
*Küləyin dili ilə yağan*
*günəşdən soruş*
*Göylə dənizin öpüşməsini*
*və buludların doğulmasını.*

## Çalğın MƏHƏMMƏD

Tanınmış güneyli şair Məhəmməd Çalğın 1977-ci il martın 21-də Təbrizdə anadan olub. Şeirləri türkdilli ölkələrdə müntəzəm olaraq dərc olunur. Səkkiz il öncə Bakıda Şairlər günü tədbirlərində iştirak edib. Xalq yazıçısı Anarın təşəbbüsü ilə Yazıçılar Birliyinin üzvlüyünə qəbul edilib. Şairlər günündə Müşfiq mükafatına layiq görülüb.

### *DƏRD - DÜŞÜNCƏ*

*Sətir sətir oxuduğun kitablar.*
*Dərd, yeni qürurun*
*vitrinlərə əl açması,*
*Gözləri anamın şəvə*
*muncuğuna bənzəyən qızın*
*Əzrayılla qoşulub qaçması,*
*Dərd, yeni mən -*
*qanadından yaralanmış*
*göyərçinəm*
*elə keçmə böyrümdən.*
*Dərd, yeni sən*
*Göy məscidin həyətindəki*
*dərdlərin suyu çox şirindir, giləm!*
*Ooooy, Təbrizim,*
*Dərdlərini görəndə ölürəm...*

## Rəsul YUNAN

Şair, yazıçı, tərcüməçidir. 1969 ilində Urmiya gölünə yaxın bir kənddə doğulub. Rəsul Yunan əsərlərini Azərbaycan və fars dillərində yazır. İndilikdə Rəsul Yunan Tehranda yaşayır. "Camaka", "Taksi", "Sənin xoş iyin", "Duel" kimi əsərləri nəşr olunub.

### *SƏNİ DÜŞÜNMƏK*

*Səni düşünmək,*
*Həyatı düşünməkdir.*
*Torpaq altında*
*Dar-düdük bir qəbirdə*
*Günəşi düşünməkdir.*
*Qarlı gecədə,*
*Qıfıllanmamış qapılara,*
*Qaçmağə düşünməkdir*
*həbsxanada.*
*Səni düşünmək dəyərlidir,*
*Ən azı*
*Adamın qəlbindən*
*Bir bulaq coşar,*
*Bir at gələr orada su içər,*
*Bir quş gələr orada oxuyar...*

## Çağla NURVƏŞ

17 iyun, 2002-ci ildə Təbrizdə anadan olub. Humanitar elmlər fakültəsində təhsil alıb. O, 30 kitabın Güney Azərbaycanda əski əlifbada tərcüməçisi kimi tanınır. "Niyar karvanı", "Dəlilərin sevgisi" və yaxında nəşr ediləcək "Balıqsız dəniz" adlı romanların müəllifidir. Maraqlı şeirləri də var. Obrazlı ifadə tərzi, şablondan qaçmaq, bədii lövhələr yaratmaq bacarığı hiss edilir.

### *SEVGİLİM*

*Sevgilim,*
*Məni aramaq istəyirsənsə*
*Xiyabanlarda*
*Yetim uşağın əllərində*
*qırmızı gülün üstündə*
*yatan tozam.*
*Bilmirəm yaşamı*
*mən necə,*
*hara yozam?*
*Sevgilim,*
*Mən illərdir kitabxanalarda*
*Kitabların*
*Yuxuya keçmiş sətirləriyəm.*
*Gecə-gündüz*
*Çalışan fəhlələrin*
*alnındakı təriyəm.*

*Sevgilim,*
*Mən,*
*Mən çox yaxındayam,*
*Məni uzaqlarda axtarma!..*



## Susən Nəvadeye RƏZİ

1963-cü ildə Təbriz şəhərində ziyalı ailəsində anadan olub. 1990-cı ildən şeirləri, nağılları mətbuatda çap edilir. Eyni zamanda bu tayın qəzet və jurnallarından bədii mətnləri köçürüb (əlifbasını dəyişib) Güneydə çapa verir. İndiyə kimi 3 kitabı – "Şəlalələr şələsi" (şeirlər), "Arzuların yeni Gülşən bağı" (nəsr), "Ənnəmnən mən" (folklor) çap olunub.

### *BİZİM ÜRƏK*

*Bizim ürək*
*Alma ağacları gül açanda, açar,*
*Tənbəkigülü Şahgölüdə*
*ətir saçanda açar.*
*Bizim ürək ceyran kimidir, -*
*Dağda-daşda ovçu əlindən*
*ürkək-ürkək qaçanda açar.*
*Quş kimidir bizdə ürək*
*Göy məscidin təvafına gedər,*
*Ərkin başına*
*dolanıb uçanda açar.*
*Bizim ürək şairdi, şair!*
*Təbrizi şərbət kimi*
*Qurtum-qurtum içəndə açar...*

## Ədalət DUMAN

### *İLAHİ, NƏ OLDU, SÖNDÜ ÇIRAQLAR?*

*Uzaq olsaydı da o işıltılar,*
*Görəndə ürəkdə işıq doğardı.*
*Onların sozalmış şüalarından*
*Bizim kəndimizə sevinc yağardı.*

*Zülmət gecələrdə ulduz sayağı*
*Sayrışa-sayrışa görünərdilər.*
*Həyalı - istəkli bir qız sayağı*
*Duman yaylıqlarda bürünərdilər.*

*Araz aramızda yoxlamırdı gah,*
*Körpüsüz adlayıb gəlirdi işıq,*
*Qaranlıq təməldən laxlaşırdı gah*
*Bütün zülmətləri dəlirdi işıq.*

*Bir gecə ayı görməyəndə biz*
*Sabahı boranlı qarlı duyardıq,*
*Nə vaxt ki onlardan görünərdi iz.*
*Özümüzü dövlətli - varlı duyardıq.*

*İndi çıraqları sönük görəndə*
*Elə bil, ömrümün çırağı sönür.*
*Bir xalqın bəxtini dönük görəndə*
*Kədər parça-parça qəlbimi yonur.*

*İlahi, nə oldu, söndü çıraqlar?*
*İndiki dünyanın işıq vaxtıdı.*
*İzləri zülmətə döndü çıraqlar*
*Çün dünya şeytanın qızıl taxtıdı.*

*Qəlbi qaranlıqlar zülmət törətdi,*
*Zülmətdən törənən fəlakət olar.*
*Harda Ədaləti şər büdürətdi*
*Orda çiçəklər də açmamış solar.*

## Əfrasiyab NURƏLİ

### *EL-OBAMIZ BATIB AHA*

*Bir ürəyi iki yerə paralayıb*
*bölən kimdir?*
*Güney-guzey Azərbaycan,*
*bizi ayrı salan kimdir?*

*Qərib yerdə saldıq binə,*
*biz də düşdüy yaman günə,*
*Alışmışıq sinə-sinə,*
*qayğımıza qalan kimdir?*

*Yaltaq olub aramızda,*
*çarasızdır, çaramızda,*
*Hey qan axır yaramızdan,*
*köç təbili çalan kimdir?*
*Hələ qaçqın əsirlərin,*
*şelləmişik qəm-kədərin,*
*Şuşa-Laçın-Kəlbəcərin,*
*torpağını alan kimdir?*

*Baxan yox savab günaha,*
*el-obamız batıb aha,*
*Nurəli tək, bir də daha,*
*xalq halına qalan kimdir?*

## Vəli ŞAHMƏHƏMMƏD

### *DÜNYA*

*Birini elindən uzaq atırsan,*
*Birini qultək bağlı satırsan,*
*Birinin namına zəhər qatırsan,*
*Birinin namına bal-baha dünya.*

*Bir kəs tanımır ki, səni dannıya,*
*Rəhmin gəlmir sənin heç bir canlıya.*
*İstərsən, yurdunda bayquş banlaya,*
*Hər nə bacarsan çap-tala dünya,*

*Haqq sözü tapdanır, qadın ya ağa*
*Çünki ləçək fərman verir ...*
*O çəkir arana, bu çəkir dağa,*
*Odur ki, düz gəlmir hal-hala dünya.*

*Əlindən yaxıldı oyaq sinələr,*
*Oldu sözlə dolu ocaq sinələr.*
*Nallanmış atlara yalaq sinələr,*
*Dəyir sinələrdə nal-nala dünya.*

*Nurdurlu Vəliyə demə lal olar,*
*Səni düşündükcə göz yaşı dolar.*
*Gec-tez etdiklərin bərməla olar,*
*Hələ eyiblərin dal-dala dünya.*

*Türkiyə seçkilər qarşısında*

# Səsvermə gününə 4 həftə qalmış siyasi peyzaj...

**Türkiyədə bu il mayın 14-də keçiriləcək seçki kampaniyası özünün "qaynar" fazasına daxil olub. Namizədlərin seçicilərlə görüşləri artıq sıx, intensiv xarakter alıb. Siyasi ehtiraslar güclənir və tərəflərin mübarizə əzmi ortadadır.**



Bu həftənin əvvəlində siyasi partiyaların parlamentə namizədlərinin adları açıqlanıb. Diqqətçəkən məqam budur ki, "Cümhur İttifaqı"ndakı yekdil mövqe və viziondan fərqli olaraq, "Millət İttifaqı"nda birləşən partiyalar siyasi baxımdan yekcins deyil. Onların bir çoxu hətta siyasi spektrin əks qütblərini təmsil edir.

"Cümhur İttifaqı" Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə dörd partiyadan təşkil olunub. Bunlar 2018-ci il prezident seçkilərində 43 faiz səs toplayan Ədalət və İnkişaf Partiyası (AKP), 11 faiz səs qazanan Milli Hərəkat Patiyası (MHP) və seçicilərin cəmi iki faizinin dəstəyinin əldə edən daha iki partiyalardır.

"Cümhur İttifaqı" o dönəmdə səsvermənin nəticələrinə görə əsas rəqibini birdən-birə iyirmi iki faiz qabaqlaya bilmişdi. Hazırkı dövlət başçısı isə prezident seçkilərində ümumi səslərin 52 faizini toplamağa nail olmuşdu.

Kamal Kılıçdaroğlunun rəhbərlik etdiyi "Millət İttifaqı"nda altı partiya təmsil olunur. Bu seçki blokundakı iki aparıcı partiya – CHP beş il əvvəlki seçkilərdə 23 faiz, "İyi Paryiya" (İP) isə 10 faiz səs toplaya bilmişdi. K.Kılıçdaroğlunu dəstəkləyən digər dörd partiya o dönəmdə ümumi səslərin yalnız 2 faizini əldə edə bilmişdi.

"Millət ittifaqı"nı "Altılı masa" da adlandırırlar. Yuxarıda qeyd etdiyimiz kimi, bu blokda siyasi spektrin müxtəlif qütblərində yerləşən partiyalar təmsil olunur. Məsələ burasındadır ki, CHP özünü solçu və dünyəvi partiya hesab edir. İP isə, əksinə, qatı millətçi partiya kimi tanınır. Partiyanın lideri vətəndaşlığı olmayanları dərhal ölkədən qovmağı tələb edir.

Bu siyasi blokdakı kiçik partiyalar da mühafizəkar mövqe sərgiləyirlər. Faktiki olaraq, bu partiyalardan birinin başçısını bir neçə il əvvəl "Şəriət qaydaları"nı dəstəkləməkdə suçlamışdılar. Günahlandıranların da çoxu CHP funksionerləri idi. İndi isə bir vahid siyasi blokdan çıxış edirlər?! Təəccüblüdür, deyilmi?

"Millət İttifaqı"nda təmsil olunan partiyaların parlament üzvlüyünə təqdim etdikləri namizədlərin siyasi baxışları və seçkiqabağı ritorikası cəmiyyətdə müəyyən anlaşılmazlıq, hətta böhran anları yaradır. Belə ki, "Ərdoğan getməlidir!" şüarı altında CHP-çilərlə olan radikal dinçi namizədlərə də səs verməlidirlər.

"Millət İttifaqı"nı nüfuzdan salan başqa bir cəhət isə budur ki, eyni siyasi çətir altında ölkədə son 40 ildə 50 min dinc insanın ölümündə günahlandırılan terrorçu kürd yaraqlılarını faktiki olaraq dəstəkləyən Xalq Demokratik Partiya (HDP) da yer alıb. Xatırladaq ki, HDP 2018-ci il seçkilərində ümumi səslərin 18 faizini toplayıb. Partiya prezidentliyə öz namizədini irəli sürməsə də R.T.Ərdoğanın əsas rəqibi olan K.Kılıçdaroğlunu dəstəkləyir.

Cəmiyyətin böyük bir qismində, istər solçular, istərsə də sağçılar arasında kürd terror təşkilatını pisləmək əvəzinə, onu "qürurla" dəstəkləyən HDP-yə qarşı kəskin qəzəb və hiddət var. Əhalini çaşdıran başqa bir məqam isə budur ki, "Altılı masa"nın 10 nəfərdən ibarət komissiya üzvləri iqtidara gəldikləri təqdirdə ölkəni eyni komanda idarə etmək niyyətindədir. Bu amil hətta müxalifətdən olan seçiciləri də dərindən düşünməyə vadar edir.

Bilkənd Universitetinin professoru Əmirullah Məmmədov hesab edir ki, regional və qlobal təhlükələrin yaratdığı təhdidlər, ağırlaşan iqtisadi və sosial durum seçim zamanı vətəndaşları daha qətiyyətli və daha çevik siyasi xətt yürüdən R.T.Ərdoğanın lideri olduğu "Cümhur İttifaqı"na üstünlük verməyə sövq edə bilər.

Bu il fevralın 6-da Türkiyədə baş verən dəhşətli zəlzələdə on minlərlə insan həlak oldu, milyonlarla sakin ev-eşiyini itirdi. Zəlzələdən qısa vaxt keçməsinə baxmayaraq, ölkədə çox sayda daimi yaşayış evləri ucaldılıb. İnsanlara mümkün olan bütün yardımlar göstərilir. Nəticədə, müxalifətin gözləntilərinin əleyhinə olaraq, insanların R.T.Ərdoğana və onun komandasına inamı daha da artdı.

R.T.Ərdoğan özünün seçki kampaniyasını bir çox böyük layihələrin açılışı və yenilərinin təməllərinin qoyulması, ölkə iqtisadiyyatına yeni, iri sərmayələrin cəlb edilməsi ilə davam etdirirsə, müxalifət liderləri heç də yüksək seçki fəallığı ilə seçilmirlər. Onlar əvvəlki kimi, yenə də öz aralarında vaxt itkisinə səbəb olan mənasız görüşlər keçirməkdə davam edir və insanları ruhlandıra bilmirlər.

Bütün hallarda hər iki tərəfi təmsil edən partiyalar və onların yetkililəri ötən seçkilərdə olduğu kimi, bu dəfə də öz namizədlərinin təbliği üçün əllərindən gələni etməyə çalışacaqlar. Kimin bu seçkiləri udacağını söyləmək isə çox çətindir.

Əlbəttə, ehtimallar, fərziyyələr söyləmək asandır. Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl bir vaxtlar demişdi ki, siyasətdə 24 saat böyük vaxtdır, yəni, hər dəqiqənin öz hökmü var. Bu fikir Türkiyənin çağdaş siyasi həyatı üçün çox aktual səslənir.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*



**Fikrət SADIQOV,**
**siyasi icmalçı**

Türkiyədə prezident və parlament seçkiləri kampaniyası bir çox başqa böyük dövlətlərdə olduğu kimi, siyasi ehtiraslar və emosiyalarla müşayiət olunur. Bu, təbii bir prosesdir. Bəzi siyasi qüvvələr hazırda çox gurultulu bəyanatlarla çıxış edirlər, bir-birlərini, xüsusilə indiki iqtidarı tənqid edirlər.

Amma reallıq odur ki, qardaş ölkədə hazırkı iqtidar səviyyəsində siyasi qüvvə, demək olar ki, yoxdur. Mən Ərdoğana rəqib ola biləcək güclü, xarizmatik siyasətçi görmürəm.

Müxalifət liderlərinin arasında yekdil, vahid mövqe də yoxdur. Bəzi hallarda bir-birlərindən küsürlər, bir-birlərinə qarşı ittihamlar irəli sürülər.

Düzdür, ana müxalifət partiyası – CHP lideri Kamal Kılıçdaroğlu müxalifətçi siyasətçilər arasında nisbətən seçilir. Amma digər liderlərin bu seçkilərdə ciddi uğur əldə edəcəyini düşünmürəm.

Eyni zamanda biz görürük ki, son illər Türkiyə beynəlxalq münasibətlər sistemində çox güclü bir oyunçuya çevrilib. Bir çox aparıcı dövlətlər, istər ABŞ, istərsə də Rusiya olsun, eləcə də əksər nüfuzlu beynəlxalq təşkilatlar Türkiyə ilə hesablaşırlar.

Bu da indiki dövlət başçısı R.T.Ərdoğanın uğurlu daxili və xarici siyasətinin nəticəsidir. Onun liderliyi ilə Türkiyə, həqiqətən, güclü dövlətə çevrilib. Bu, bir reallıqdır ki, Türkiyə xarici siyasətdə ədalətli, humanist mövqedən çıxış edən güclü dövlət kimi qəbul olunur.

Bir çox obyektiv səbəblərdən ölkədə iqtisadi çətinliklər mövcuddur, maliyyə problemləri də tam həllini tapmayıb. Ola bilsin ki, indiki mərhələdən sonra Türkiyədə müəyyən bir problemlər yaransın. Bir daha qeyd edirəm ki, bunlar obyektiv amillərlə bağlıdır. Ölkədə on minlərlə insan dəhşətli zəlzələnin qurbanı olub. Türkiyə bu çətinliklərin öhdəsindən gələcək.

Qeyd etmək lazımdır ki, R.T.Ərdoğanın hakimiyyəti dönəmində Azərbaycan–Türkiyə münasibətləri çox yüksək səviyyəyə yüksəlib. Biz, demək olar ki, vahid, sarsılmaz bir alyans yaratmışıq. İkinci Qarabağ müharibəsi bunu tamamilə təsdiq edir. Türkiyə 44 günlük şanlı savaşın ilk anından son günə qədər bizim yanımızda idi. Biz bütün sahələrdə bir-birimizi dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik.

Mayın 14-də Türkiyə xalqı öz müdrik seçimini edəcək. Şübhə etmirəm ki, Azərbaycan–Türkiyə münasibətləri bütün hallarda yaxın olaraq qalacaq. Bizim münasibətlər strateji xarakter daşıyan münasibətlərdir. Bu əlaqələr bundan da sonra da inkişaf edəcək.

# YAP nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir




**Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının İstanbul vilayət təşkilatında görüş keçirilib**

Görüşdən əvvəl Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və AK Parti Sədrinin birinci müavini, İstanbul millət vəkili Numan Kurtulmuş mətbuat konfransında jurnalistlərin suallarını cavablandırıblar.

Numan Kurtulmuş bildirib ki, Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın yaxın dostluq və qardaşlıq münasibətləri, dövlət qurumlarımızın da işbirliyi ilə iki qardaş ölkə arasında münasibətlər sürətlə inkişaf edərək müttəfiqlik səviyyəsinə yüksəlib.

Türkiyə–Azərbaycan dostluğunun və qardaşlığının regionda yeni reallıqlar yaratdığını söyləyən Tahir Budaqov postmüharibə dövründə Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi bərpa-quruculuq işlərində Türkiyənin ölkəmizə verdiyi dəstəyi xüsusi vurğulayıb. Qeyd edib ki, Türkiyədə zəlzələ nəticəsində zərər çəkmiş bütün bölgələrdə aparılacaq quruculuq işlərində də ölkələrimiz birlikdə olacaq, bu işləri birgə həyata keçirəcək.

O vurğulayıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi dostluq əlaqələri bütün bölgədə sabitlik və inkişaf üçün möhkəm əsaslar yaradıb. Bu proses artıq bütün dünyanın diqqətini cəlb edib, beynəlxalq güclərin maraq dairəsinə düşüb. Son illərdə Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi və liderliyi ilə həyata keçirilən tədbirlər nəticəsində türk dövlətlərinin daha da yaxınlaşmasının, vahid bir təşkilat olaraq fəaliyyət göstərməsinin şahidi oluruq. Yaranmış tarixi fürsəti düzgün qiymətləndirməli və bu imkandan türk dövlətlərinin hamısının faydalanmaq şansını əldən verməməliyik.

**Rusiyanın Ukraynada xüsusi hərbi əməliyyatı bütün şiddəti ilə davam edir. Dünən RF Müdafiə Nazirliyinin sözçüsü İqor Konaşenkov bildirib ki, rus ordusu bir neçə istiqamətdə hücum əməliyyatları həyata keçirib, bəzi hissələrdə uğurlar mövcuddur. Məlumatı "İnterfaks.ru" verib.**

Onun sözlərinə görə, Baxmut (ruslar Artyomovsk deyirlər) istiqamətində döyüşləri "Vaqner"in hücum dəstələri həyata keçirir, onlara Hərbi Hava Qüvvələrinin aviasiyası dəstək verir. Hava qüvvələri Ukrayna hərbçilərinin döyüş zonasına hərbi sursat gətirməsinin qarşını alır.

Bununla yanaşı, dünən "Vaqner" hərbi qrupunun rəhbəri Yevgeni Priqojinin mətbuat xidməti onun yeni məlumatını yayıb. UNİAN-ın verdiyi məlumatda bildirilir ki, Proqojin Rusiya hakimiyyətinə TO-ya üzv olması istiqamətində heç bir addım atmırlarsa, bu, bizim üçün qəbuledilməzdir. Vilnüsdə NATO Kiyevin üzvlüyünə doğru addım atmalı və təhlükəsizlik zəmanətləri baxımından nə baş verəcəyinə qərar verməlidir".

Bütün bunlarla yanaşı, bəzi Avropa liderləri son günlərin hərbi məlumatlarına əsaslanaraq Ukraynanın əks-hücumundan irəliləyiş gözləmədiklərini bəyan edirlər. Daha real nəticə kimi onlar Ukrayna ordusunun 30 km irəliləyə biləcəyini göz-

# Ukrayna NATO-ya üzvlüyə ümid bəsləyir



xüsusi hərbi əməliyyatı dayandırmağı və işğal olunmuş ərazilərdə möhkəmlənməyi məsləhət görüb: "İdeal variant müharibənin başa çatdığını elan etmək, hamıya xüsusi hərbi əməliyyatda Rusiyanın planlaşdırdığı nəticələrin əldə olunduğunu açıqlamaqdan ibarətdir. Ukraynanın xeyli döyüşçüsünü öldürdük və əməliyyat tapşırığının tamamlandığını söyləyə bilərik", - deyə Priqojin bildirib.

Ukrayna tərəfinin məlumatında isə bildirilir ki, dünən axşam saatlarında Ukraynanın Slavyansk şəhərinə Rusiyanın "S-300" zenit-raket kompleksi vasitəsilə hücum həyata keçirilib. Ukrayna DİN-in məlumatına görə, yaşayış məntəqələrinə endirilən zərbələr nəticəsində 6 nəfər ölüb, 18 dinc sakin yaralanıb. Ərazidə xilasetmə əməliyyatı aparılıb.

Ukrayna Silahlı Qüvvələri Baş Qərargahının məlumatına görə, ötən sutka ərzində rəqibin müxtəlif istiqamətlərdə 56 hücumunun qarşısı alınıb. Hücumlar əsasən Baxmut, Liman, Avdeyevka və Marinck istiqamətində olub. Baxmut şəhəri uğrunda şiddətli göyüşlər gedir.

Dünən, eyni zamanda Ukrayna Prezidenti Volodimir Zelenski ilə Böyük Britaniyanın Baş naziri Rişi Sunak arasında telefon danışığı olub. Zelenski bildirib ki, Sunakla cəbhədəki vəziyyəti ətraflı müzakirə edib. Tərəflər həm də Rusiyaya qarşı birgə mübarizə və Ukraynaya dəstəklə bağlı fikir mübadiləsi aparıblar.

Ukrayna xarici işlər naziri Dmitri Kuleba isə ölkəsinin NATO-ya qarşı tələblərini səsləndirib. Onun fikrincə, NATO-nun Vilnüs sammitində Ukraynanın alyansa tamhüquqlu üzv kimi daxil olması ilə bağlı dəvətdən başqa heç bir qərar Kiyevi qane etməyəcək.

Kuleba deyib: "Əgər onlar bizə NATO ilə əməkdaşlığı dərinləşdirmək üçün bəzi müsbət şeylər təklif etməyə çalışırlarsa, eyni zamanda Vilnüsdə Ukraynanın NA-

ləyirlər. Çünki ruslar artıq əllərində olan ərazilərdə kifayət qədər möhkəmlənə biliblər. Bu barədə "Bloomberg" yazıb.

Ukraynadakı vəziyyətin təhlil olunduğu yazıda qeyd edilir ki, Qərb rəsmiləri müharibədə hazırkı durumun Kiyevin 2022-ci ilin sonunda uğurlu əks-hücuma keçərək xeyli ərazini geri qaytardığı vəziyyətdən xeyli fərqli olduğunu düşünürlər. O vaxt Ukrayna özünün uğurları ilə Rusiyanı və müttəfiqlərini təəccübləndirə bilmişdi: "Bu, Ukrayna qüvvələrinin 2023-cü ildə müharibəni Ukraynanın xeyrinə çevirəcək yeni irəliləyişlər edə biləcəyinə ümidləri artırmışdı".

İndi isə Kiyevin müttəfiqləri 2024-cü ilə qədər intensiv döyüşlər aparılmasının vacibliyini düşünürlər", – deyə məqalədə qeyd olunur.

Amma müttəfiq ölkələr Ukraynaya maliyyə və hərbi yardımları dayandırmaq haqda düşünmürlər. ABŞ da Kiyevə bu il 4,9 milyard dollar əlavə büdcə yardımı göstərəcəyini bəyan edib. Dövlət Departamentinin məlumatına görə, proses Dünya Bankının mexanizmləri vasitəsilə həyata keçiriləcək.

"Əlavə 4,9 milyard dollar bu ilin sentyabrında ödəniləcək. Avropa İttifaqı, Beynəlxalq Valyuta Fondu və digər təşkilatların dəstəyi ilə yanaşı, bu maliyyələşmə də Ukrayna hökumətinin ölkə əhalisinə vacib xidmətləri göstərməsinə imkan verəcək", - Dövlət Departamentinin məlumatında bildirilir.

Məlumatda o da qeyd olunur ki, Vaşinqton indiyədək Kiyevə 18 milyard dollar vəsait ayırıb, amma Ukraynanın bərpası üçün lazım olan maliyyəni "yalnız özəl sektorla sıx əməkdaşlıq yolu ilə" təmin etmək olar.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

# Türk çempion İrəvan qələbəsini Azərbaycana həsr etdi

**İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında türkiyəli idmançı qızıl medal qazanıb.**




45 kiloqram çəki dərəcəsində çıxış edən Cansu Bektaş fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, birdən qaldırmada 72 kiloqramın öhdəsindən gələrək qızıl medala sahib olub.

"Aldığım medalı azərbaycanlı qardaşlarıma həsr edirəm, onları çox sevirik. Biz hər zaman sizin yanınızdayıq!" – deyə atlet qeyd edib.

Cəsur və qeyrətli türk qızını layiqli qələbə münasibətilə təbrik edirik. İdmançılarımıza göstərdiyi həmrəyliyə görə isə oxucularımız adından "Çox sağ ol, Cansu Bektaş!" deyirik.

***"Xalq qəzeti"***

## "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

*Lot –2. "5 ədəd su anbarının (Qaraçay, Qudyalçay, Qusarçay, Vəlvələçay və Türyançay çaylarında) texniki-iqtisadi əsaslandırmanın hazırlanması" layihəsi çərçivəsində "4 ədəd su anbarının (Qaraçay, Qudyalçay, Qusarçay və Vəlvələçay çaylarında) texniki-iqtisadi əsaslandırmanın hazırlanması" işlərinin satın alınması məqsədilə*

# AÇIQ TENDER ELAN EDİR

Satınalan təşkilatın adı– Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

Əlaqələndirici şəxs– Qulam Şamil oğlu Aslanov (S .A.A.).

Satınalan təşkilatın ünvanı– Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti-69a.

Əlaqələndirici şəxsin emaili– tomiobm@mst.gov.az

Əlaqə nömrəsi– (012) 431 08 64.

Satınalma predmetinin adı– "4 ədəd su anbarının (Qaraçay, Qudyalçay, Qusarçay və Vəlvələçay çaylarında) texniki-iqtisadi əsaslandırmasının hazırlanması".

Ünvanı–Quba və Qusar rayonlarının inzibati ərazisi.

İşlərin qısa təsviri: Ümumi su tutumları 159 milyon kubmetr, o cümlədən: Quba rayonuna məxsus 27900 hektar ərazinin suvarma suyu ilə təmin edilməsi üçün ümumi su tutumları 142 milyon kubmetr üç ədəd (Qaraçay, Qudyalçay və Vəlvələçay üzərində) və Qusar rayonuna məxsus 20600 hektar ərazinin suvarma suyu ilə təmin edilməsi üçün ümumi su tutumu 17 milyon kubmetr olan bir ədəd (Qusarçay üzərində) su anbarlarının texniki-iqtisadi əsaslandırmalarının hazırlanması.

İşlərin yerinə yetirilmə müddəti – 8 aydır.

Tender təkliflərinin qiymətləndirilməsi meyarları:

Texniki təklif - 10 bal, o cümlədən:

- iddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi tələb etmədiyi halda, bu meyar üzrə müəyyən olunmuş maksimal 10 balla qiymətləndiriləcəkdir. Əgər, iddiaçı tender təklifində 20 faizdən artıq avans ödənişi tələb edərsə, onda həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 20 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaq, (20 – X)/20x10 X - tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi.

Ən az qiymət təklifi – 90 baldır.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi kadr və maliyyə imkanlarına malik olmaqla yanaşı, iddiaçı son 10 (on) il ərzində baş podratçı (əsas layihəçi) kimi su tutumu 40 milyon kubmetrdən az olmayaraq ən çoxu oxşar 4(dörd) iş görmə təcrübəsinə malik olmaqla bərabər ümumi su tutumları 160 milyon kubmetr və qulluq etdikləri suvarma sahəsi 50,0 min hektardan az olmamaq şərtilə su anbarlarının texniki-iqtisadi əsaslandırmalarının tərtib edilməsini əhatə etməlidir (təhvil-təslim aktları və işbitirmə sənədləri təqdim etməlidir).

İştirak haqqı– 5500 (beş min beş yüz) manat (iştirak haqqının məbləği "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunun 29.1 maddəsinə müvafiq olaraq müəyyənləşdirilir).

İddiaçılar iştirak haqqını ödədikdən sonra satınalan təşkilata rəsmi müraciət etməklə tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Tikilməkdə olan meliorasiya və irriqasiya obyektlərinin birləşmiş müdiriyyəti

VÖEN– 1300300711

h/h – AZ 10 IBAZ 380700194497 16100216

"Azərbaycan Beynəlxalq Bankı"nın Yasamal filialı

m/h –AZ03NABZ01350100000000002944

Kod– 805562

VÖEN– 9900001881

SWIFT : IBAZAZ2X (AZIPS-in üzvü)

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tender təklifi təkliflərin açıldığı gündən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır. Tender təklifi Azərbaycan dilində tərtib edilməlidir (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

2. Tender təklifi qiymətinin 1 faizi məbləğində tender təklifinin təminatı (bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır (bank tərəfindən təqdim edilməlidir).

3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış.

(vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əsli və ya notarial təsdiq edilmiş surətinin yerləşdirilməsi zəruridir);

4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.

(son maliyyə dövrünə olan məlumatı əks etdirməsi sənədin əsli və ya notarial təsdiq edilmiş surətinin yerləşdirilməsi zəruridir);

5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.

(bank tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əslinin və ya notarial təsdiq edilmiş surətinin yerləşdirilməsi zəruridir);

6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə. (kommersiya və hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrindən çıxarış iddiaçı tərəfindən təqdim edilməli, nizamnamənin, dövlət reyestrindən çıxarışın və şəhadətnamənin notarial qaydada təsdiq olunmuş formatında yerləşdirilməsi zəruridir);

7. Rekvizitlər (iddiaçının və ya bankın imzası və möhürü ilə təsdiq edilməsi zəruridir);

8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.

(Sənədlər DİN və ya "Asan xidmət" tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı, sənədin əslinin və ya notarial təsdiq edilmiş surəti zəruridir);

Sənədin verilmə tarixi elan verilmiş aydan etibarən olmalıdır __ _______ (ay il)

9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması.

(sənədlər vergi xidməti tərəfindən təqdim edilməli, cari rübü əhatə etməli, sənədin əslinin və ya notarial təsdiq edilmiş surəti zəruridir).

10. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin və etibarlılığının olması.

İddiaçının ixtisas göstəriciləri əsas şərtlər toplusunun 3-cü "əsas şərtlər toplusunun məlumat xəritəsi" bölməsinin 13.3.8-ci bəndində verilmiş tələblərə uyğun gəlməlidir. İxtisas göstəriciləri haqqında məlumat əsas şərtlər toplusunun 8-ci "standart formalar" bölməsinin, 7-ci "podratçının ixtisas göstəriciləri haqqında məlumat" qoşmasında göstərilmiş forma və qaydada təqdim olunmalıdır.

İddiaçının adları qeyd olunan işçi qüvvəsi haqqında əlavə olaraq aşağıdakı sənədlər təqdim edilməlidir:

– layihənin baş mühəndisi haqqında – layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (ümumi izahat kitabının titul vərəqində və layihə cizgilərində künc ştampında) adı və imzası olan sənədin surəti;

- topoqraf haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə layihənin baş mühəndisi tərəfindən verilən texniki tapşırıq sənədində adı və imzası olan sənədin surəti;

- hidroloq haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə layihənin baş mühəndisi tərəfindən verilən texniki tapşırıq sənədində adı və imzası olan sənədin surəti;

- mühəndis-hidrogeoloq haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (mühəndis-geologiya bölməsi kitabının titul vərəqində) adı və imzası olan sənədin surəti;

- ətraf mühit və iqlim dəyişmələri üzrə mütəxəssis haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (ekologiya bölməsi kitabının titul vərəqində) adı və imzası olan sənədin surəti;

- iqtisadiçı-maliyyəçi (smeta üzrə mütəxəssis) haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (tikintinin toplu smetası bölməsi kitabının titul vərəqində) adı və imzası olan sənədin surəti;

- meliorasiya qurğularının planlaşdırılması və layihələndirilməsi üzrə mühəndis (TTL) haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (tikintinin təşkili layihəsi bölməsi kitabının titul vərəqində) adı və imzası olan sənədin surəti;

- nasos stansiyaları və mexaniki avadanlıqlar üzrə mühəndis haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (nasos stansiyaları və mexaniki avadanlıqlar bölməsi kitabının titul vərəqində) adı və imzası olan sənədin surəti;

- elektrik mühəndisi haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə layihənin baş mühəndisi tərəfindən verilən texniki tapşırıq sənədində adı və imzası olan sənədin surəti;

- avtomatika mühəndisi haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə layihənin baş mühəndisi tərəfindən verilən texniki tapşırıq sənədində adı və imzası olan sənədin surəti;

- inşaat mühəndisi (konstruktor) haqqında - layihələndirdiyi bütün obyektlər üzrə siyahı cədvəli və hər bir obyekt üzrə ekspertizadan keçən təstiqedici sənəddə (konstruksiya bölməsi üzrə vərəqin künc ştampında) adı və imzası olan sənədin surəti;

- (iddiaçı tərəfindən təqdim edilməli).

11. İddiaçının mikro, kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması.

(Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməli sənədin əslinin və ya notarial təsdiq edilmiş surətinin təqdimatı zəruridir);

Sənədin qüvvədə olma müddəti "Tələb olunan sənədlərin son təqdim olunma tarixini əhatə etməlidir" __ ____ ________ (gün, ay, il)

12. İddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması. (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməlidir).

13. Satınalma müqaviləsini bağlamaq səlahəyyətinin olması.

(İmza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmri, sənədin əslii və ya notarial təsdiqini təqdim etməsi zəruridir).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda 3 və 13-cü sıralarda göstərilən sənədləri 25 may 2023-cü il saat 17.00-a (tender təkliflərinin açılışına 7 (yeddi) bank günü qalmış) qapalı zərfdə üzərində əsli və surəti göstərilməklə Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.

İddiaçılar tender təklifi və bank təminatını isə 5 iyun 2023-cü il saat 17.00-a qədər (tender təkliflərinin açılışına 1 (bir) bank günü qalmış) ) qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 6 iyun 2023-cü il saat 15.00-da açılacaqdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

*Sərgi salonlarında*

# Miniatürlərin nağıl dünyası

**Azərbaycanda qrafika sənətinin ilk nümunələrinə ta qədimdən rəssamların qrafik əsər lövhələrində, eləcə də Qobustan qaya rəsmlərində rast gəlinir. Təsviri sənətdə müəyyən üslubların məcmusu kimi dəyərləndirilən miniatür isə həm də müasirlik daşıyıcısı sayılır...**



Rəssamlar İttifaqının Vəcihə Səmədova adına Sərgi salonunda nümayiş etdirilən "Ənənə və müasirlik" miniatür sərgisi dediklərimizin sübutudur. Bol və parlaq rənglərlə zəngin olan sənət nümunələri əlvanlığı ilə



göz oxşayır. Rəngarəng miniatürlər, illüstrasiyalarda təbiət bütün gözəlliyi ilə canlanır. Nizami Gəncəvi, eləcə də digər klassiklərimizin əsərlərinə, o cümlədən nağıllara çəkilmiş miniatürlər seyrçiləri heyran edir.

**Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov** sərgi ilə bağlı fikirlərini bölüşür və nümayiş etdirilən sənət nümunələri arasında tanınmış rəssamlarla yanaşı, gənclərin də maraqlı əsərlərinin olduğunu deyir: "Miniatür sərgisi açmaq indi o qədər də asan deyil. Miniatür tarixdə elə bir zirvəyə qalxıb ki, ənənəmizdən istifadə etməklə yeni əsərlər yaratmalıyıq. Gənclərin böyük yaradıcılıq potensialına inanırıq".

**Daha bir istedadlı gənc rəssam – Gülxanım Əmirli** ilə həmsöhbət oluram. Rəssamlıq Akademiyasının qrafika fakültəsində təhsil aldığını deyir. Sərgidə onun qarışıq texnikalı dörd işi nümayiş etdirilir. Nizami Gəncəvinin "Leyli və Məcnun", "Əflatunun çalğı aləti" əsərlərinə çəkdiyi illüstrasiyalarla tanış oluruq. Onu da öyrənirik ki, gənc rəssam 2020-ci ildə Rumıniyada "Nağıllar aləmi" sərgisində "Tıq-tıq xanım" əsərinə görə qızıl medal qazanıb.

**3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzinin "Palitra" rəsm studiyasının rəhbəri Nərmin Abdullayeva** da sərgi iştirakçıları arasındadır. O, öz yaradıcılığını inkişaf etdirməklə yanaşı, uşaqlara da bu sənətin sirlərini həvəslə öyrətdiyini deyir: "Sərgiyə Qarabağ mövzusunda miniatür əsərim də daxil olmaqla, silsilə işlərimi təqdim etmişəm. Sərgiyə tələbələrim də qatılıblar. Miniatür sənətinə ölkəmizdə dəyər verilməsi, sərgilərin təşkili bizi çox sevindirir".



Aprel ayının 20-dək davam edəcək sərgiyə yaradıcı insanların, miniatürsevənlərin axını davam edir. Əminik ki, bu tədbir gələcək minatür rəssamlarının yetişməsi, formalaşması üçün bir stimul rolunu oynayacaq.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# Özbəkistanda Natəvanın əsərlərinin təqdimatı

**Şuşa şəhərinin Türk dünyasının Mədəniyyət paytaxtı elan edilməsi ilə əlaqədar Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun və Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə Özbəkistanda keçirilən "Şuşa günləri" çərçivəsində Daşkənddəki Turan Kitabxanasında Xurşidbanu Natəvanın əsərlərinin özbək dilində nəşrinin təqdimatı keçirilib.**




Tədbiri giriş sözü ilə açan kitabxananın direktoru, Özbəkistanın Fəxri Mədəniyyət işçisi Dildora Abduazizova Şuşa günləri tədbirlərinə ev sahibliyi etmələrindən böyük fəxarət hissi keçirdiklərini qeyd edib. AMM-nin direktoru Samir Abbasov Özbəkistanda ilk dəfə olaraq keçirilən "Şuşa günləri" tədbirləri haqqında məlumat verib, Mədəniyyət Mərkəzi tərəfindən il ərzində Şuşaya dair layihələrin keçiriləcəyini vurğulayıb.

Özbəkistan Yazıçılar İttifaqının sədr müavini, Xalq şairi Qayrat Məcid, tərcüməçi-şair Şaxlo Qasımova, yazıçı-publisist, Xurşidbanu Natəvan haqqında sənədli filmin müəllifi Ülviyyə Heydərova 2021-ci ildə Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə iki əsr öncə Şuşada fəaliyyət göstərmiş "Məclisi-fəramuşan" poeziya məclisinin özbək və azərbaycanlı şairlərin iştirakı ilə bərpa edilməsi və Şuşada hər iki ölkə şairlərinin iştirakı ilə baş tutan poeziya məclisinə dair təəssüratlarını bölüşmüşlər.

Özbəkistan Ali Məclisinin deputatı, Özbəkistan–Azərbaycan Dostluq Cəmiyyətinin üzvü Gülbahar Saidqaniyeva iki ölkə arasında ölkə başçılarının uğurlu siyasəti ilə inkişaf edən əlaqələrdən danışıb, mədəni əlaqələrin tərəqqisindən məmnunluğunu ifadə edib. Azərbaycan Milli Məclisinin deputatı, Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan–Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Tamam Cəfərova Azərbaycan–Özbəkistan dostluğunun tarixindən, dövlət başçılarının görüşləri barədə danışaraq, iki ölkə parlamentləri arasında yüksək səviyyəli əlaqələr barədə məlumat verib.

Sonda Günay Əfəndiyeva qonaqlara və təşkilatçılara xatirə hədiyyələri təqdim edib.

"Xurşidga yetar boshim" adlı kitab Turan Kitabxanasına və tədbir iştirakçılarına hədiyyə edilib.

***Qulu KƏNGƏRLİ***

**Daşkənd**

# B İ L D İ R İ Ş

"Xalq qəzeti"nin 3 və 17 mart 2023-cü il tarixli nömrələrində dərc edilmiş tenderdə "Əlicançay su anbarının xidmət sahəsinin (magistral və paylayıcı kanallar, meliorativ tədbirlər) layihə sənədlərinin hazırlanması" obyektinin tender predmeti üzrə tələb olunan sənədlərin təqdim edilmə vaxtı 19 aprel 2023-cü il, tender təklifinin açılış tarixi isə 28 aprel 2023-cü il göstərilmişdir.

Qeyd edilən müddətlər arasında "Ramazan bayramı" günləri olduğundan tender təkliflərinin açılış tarixi 3 bank günü uzadılır.

Tender təklifinin və təminatının təqdim edilmə tarixi 2023-cü il mayın 3-nə, açılış tarixi isə 2023-cü il mayın 4-nə qədər uzadılır.

*Dostluq meridianı*

# Bakının şəhər qardaşı – Sarayevo



**“Aprelin 13-də Sarayevoda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Bosniya və Herseqovinanın Rəyasət Heyəti tərəfindən verilən rəsmi nahardan sonra Prezident İlham Əliyevə xizək hədiyyə edilib. Bildirilib ki, tamamilə əl işi olan bu xizəyin orijinalını 1984-cü ildə keçirilmiş Qış Olimpiya Oyunları zamanı bosniyalı idmançı istifadə edib. Bu hədiyyə məxsusi olaraq İlham Əliyev üçün hazırlanıb”.**

Bu rəsmi xəbər məni xəyalən 1980-ci ildə bir günlük qonağı olduğum Sarayevo şəhərinə qaytardı. Prezident İlham Əliyevin Bosniya və Herseqovinaya səfəri zamanı dediyi kimi, 1972-ci ildə – hələ Sovet İttifaqı və Yuqoslaviyanın mövcudluğu dövründə Bakı və Sarayevo arasında qardaşlaşma sazişi imzalanmışdır. İndi bu qardaşlığın yarım əsrlik tarixi var, hazırda iki müstəqil dövlət olan dost ölkələr və onların paytaxtları arasında əlaqələr sürətlə inkişaf edir.

Hər iki şəhər üçün əlamətdar olan qardaşlaşma sazişi imzalanandan səkkiz il sonra, 1980-ci ilin oktyabr ayında Yuqoslaviyada keçirilən basketbol üzrə Avropa çempionatına ezam olunan sovet jurnalistləri qrupuna mən də daxil idim. Yuqoslaviyada avtobusla paytaxt Belqraddan çempionatın təşkil olunduğu və böyüklüyünə görə Bosniyanın ikinci şəhəri Banya-Luka şəhərinə gedərkən bir gün Sarayevoda olmaq imkanı qazandıq. Şəhərlə tanışlıq zamanı Narinka adlı bələdçi xanım Bosniya və Herseqovinanın ən böyük şəhəri, qədim tarixə malik Sarayevo haqqında bizə məlumat verərkən bildirdi ki, şəhərin adı saray sözündən götürülüb, tərcüməsi Saray və onu əhatə edən ərazi, oba deməkdir.

Sarayevonu tərk edib Banya-Luka şəhərinə gəldikdə isə xoş bir sürpriz baş verdi. Çempionatın gedişini işıqlandırmaq üçün bir çox ölkədən gəlmiş jurnalistlər mətbuat mərkəzində qeydiyyatdan keçərkən bir nəfərin burada Bakıdan, Azərbaycandan kimsənin olub-olmadığını soruşduğunu eşitdim. Həmkarlarım dərhal məni göstərdilər. Deme, bizim Yuqoslaviyaya səfərimizdən bir neçə il əvvəl Bakıda olmuş Sarayevo şəhərinin nümayəndə heyətinin tərkibinə o da daxil imiş. Özünü Hüseyn Huciç kimi təqdim edən həmin şəxs Bakı təəssüratları haqqında danışarkən səfər günlərində bizim “İdman” – ”Sport” qəzetlərinin o zamankı redaktor müavini, mərhum həmkarım Aqşin Kazımzadə ilə tanış olduğunu da bildirdi.

Söhbət zamanı Hüseyn 1984-cü ildə Sarayevoda keçiriləcək XIV Qış Olimpiya Oyunlarına hazırlıq üzrə Təşkilat Komitəsinin üzvü olduğunu, mətbuat, informasiya xidmətinin tərkibində çalışdığını, sarayevoluların bu böyük ümumdünya idman hadisəsinə səylə hazırlaşdıqlarını da söyləyib, həmin Olimpiadanın Təşkilat Komitəsinin üzvlüyünü bildirən vizit kartını mənə təqdim etdi.

Bu qeydləri qələmə alarkən internetdən əldə etdiyim məlumata görə, Sarayevoda Qış Olimpiya Oyunları 1984-cü il fevralın 8-dən 19-dək keçirilmiş və Olimpiadada 49 ölkənin 1272 təmsilçisi iştirak etmişdir. Bu rəqəmlər o vaxta qədər keçirilən Qış Olimpiya Oyunları üçün rekord göstərici idi.

Basketbol üzrə Avropa çempionatının mətbuat mərkəzindəki həmin görüş Sarayevo Qış Olimpiadası – 1984-ün Təşkilat Komitəsinin üzvü Hüseyn ilə ilk və son görüşüm oldu. Belə ki, biz jurnalistlər hər gün çempionatın oyunlarını izləmək üçün idman sarayına tələsirdik, onun isə Olimpiadaya hazırlıqla əlaqədar öz işləri var idi.

Amma yaxşı yadımdadır ki, çempionat başa çatan axşam biz Banya-Lukadan Belqrada qayıdarkən bələdçimiz avtobusda əlində bir bağlama mənə yanaşıb: “Hüseyn xahiş etdi ki, bunu sizə çatdırım” – dedi. Bağlamanın içindəkilər isə üzərində Olimpiadanın rəmzləri əks olunmuş müxtəlif suvenirlər idi...

Bosniya və Herseqovinanın baş şəhəri qardaş Sarayevo artıq 39 ildir tarixdə XIV Qış Olimpiya Oyunlarının paytaxtı kimi yaşayır. Azərbaycan da öz növbəsində Avropa Oyunlarının vətəni olması ilə qürur duyur. Səkkiz il əvvəl, 2015-ci ilin iyun ayında həmin Oyunların ölkəmizin gözəl paytaxtı Bakıda necə parlaq, bəlkə də, təkrarolunmaz bir bayrama çevrildiyini təkcə Avropa yox, bütün dünya gördü. Onda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın başçılıq etdiyi Təşkilat Komitəsi yarışları ən yüksək beynəlxalq səviyyədə təşkil etmiş və çoxminli iştirakçıların da, rəsmi şəxslərin də böyük rəğbətini qazanmışdı. Bakı ilk Avropa Oyunlarının paytaxtı kimi bir tarix yazdı.

**Oqtay BAYRAMOV,**
**Əməkdar jurnalist**

# Türkiyənin “İMECE” peyki kosmosa göndərilib

**Bu il aprelin 15-də Türkiyə vaxtilə saat 09:47 radələrində Amerikanın Vandenberq kosmodromundan Yerin məsafədən zondlanması üçün “İMECE” peyki kosmosa göndərilib. Bu peyk Türkiyənin Kosmik Texnologiyalar Tədqiqat İnstitutunun (TÜBİTAK UZAY) mütəxəssisləri tərəfindən yaradılıb.**




Qeyd edək ki, “SpaceX” şirkəti peykin buraxılmasını əlverişsiz hava şəraiti səbəbindən bir neçə dəfə təxirə salıb. TÜBİTAK UZAY mərkəzində peykin buraxılması prosesini Türkiyənin milli müdafiə naziri Hulusi Akar, mərkəzin sədri Həsən Mandar və başqaları müşahidə ediblər.

Peykin çəkisi 680 kiloqram, istismar müddəti 5 ildir. Bu peyk planetin istənilən nöqtəsində yüksəkkeyfiyyətli (ayırdetmə qabiliyyəti 1 metrə qədər olan) təsvirlər almağa imkan verəcək.

“İMECE” peykinin imkanları hədəflərin aşkar edilməsindən və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasından başlamış aqrar sektorun inkişafına sərmayə qoyulmasına qədər geniş spektri əhatə edir. “SpaceX” şirkətinin daşıyıcı raketi Türkiyənin daha 3 peykini orbitə çıxaracaq: KILIÇSAT, PLAN-S və CONNECTA T2.1. Gələcəkdə belə peykləri ixrac etmək də planlaşdırılır.

**“Xalq qəzeti”**

# Həyat texnologiya relsində...

**Texnologiya hər gün sürətlə inkişaf edir. Bəzi insanlar texnologiyaya çox əhəmiyyət verməsə də, digərləri ən son texnoloji xəbərləri daim izləyir və ondan yüksək səviyyədə yararlanırlar. Artıq texnoloji yeniliklərdən, demək olar ki, həyatımızın hər sahəsində istifadə edirik. Bəs texnologiya həyatımıza necə təsir göstərir? Gəlin birlikdə texnologiyanın gündəlik həyatımıza təsirini araşdıraq.**



**Ünsiyyət.** Pandemiya dövrü bizi texnologiyaya daha da yaxınlaşdırdı. Uzaqda olan ailəmiz, dostlarımız və sevdiklərimizlə “Zoom” və müxtəlif proqramlar vasitəsilə asan və sağlam şəkildə ünsiyyət saxlaya bilirik.

**Təhlükəsizlik.** Bu gün gündəlik işlərimizin çox hissəsini internet vasitəsilə edirik, onlayn alış-verişlər, onlayn ödəmələr və s. kimi. Texnologiya isə bizə onlayn hərəkətlərimizi qorumağa kömək edir. Parol menecerləri, VPN xidmətləri, antivirus proqramları və s. məlumatlarımızı təhlükəsiz saxlamağa kömək edən əla texnologiyalardır.

**Alış-veriş.** Alış-veriş etmək üçün artıq evdən çıxmağımıza ehtiyac yoxdur. Çoxumuzun planşet, noutbuk və ya smartfonu olduğu üçün istədiyimiz hər şeyi virtual mağazalardan ala bilirik.

**Məlumat əldə etmək.** Bu gün hansısa məlumatı öyrənmək çox asandır. Əvvəllər bir mövzu haqqında daha çox öyrənmək üçün kitabxanaya getməli olurduq. İndi isə texnologiyanın inkişafı sayəsində təsəvvür edə bildiyimiz hər şey haqqında məlumatı olan yüz minlərlə vebsayt var.

**Sosial həyat.** Həyatımızdakı digər mühüm dəyişiklik sosial medianın tətbiqidir. Artıq “Snapchat”, “TikTok”, “İnstagram” və digər sosial şəbəkə platformaları bizə dostlarımızın və ya milyonlarla izləyicisi olan məşhurların həyatı haqqında real vaxt ərzində asan məlumat almağa imkan verir.

**İş.** 2020-ci il bir çox mənfi səbəblərə görə yaddaşımızdan silinməyəcək, lakin ən müsbət cəhətlərindən biri evdən işləməyin geniş şəkildə qəbul edilməsi oldu. Artıq mütləq işə gedib-gəlmək yoxdur. Texnoloji inkişaflar sayəsində daha çevik iş saatları, daha çox ətraf mühitə təsir, istədiyiniz yerdə işləmək yenidən mümkün oldu.

**Sağlamlıq.** Texnologiya sayəsində artıq sağlamlığımıza nəzarət edən cihazlar var. Ən yaxşı nümunə kimi, “Apple Watch” hazırda dünyada ən çox istifadə edilən ağıllı saatdır. Onun vasitəsilə indi ürək döyüntülərimizi və qan təzyiqimizi izləyə bilirik, yuxu rejimimizə, hərəkət zamanımıza nəzarət edirik.

**Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”**

*Sağlamlıq guşəsi*

## Acın imanı olmaz...

***Amerikalı alimlər insan orqanizmində olan mikrobların əhval-ruhiyyəyə təsir etmək qabiliyyətini, əsasən də aqressiya yaradan səbəbi aşkar ediblər. Öyrəniblər ki, ac olduqda aqressivliyi yaradan Clostridium perfringens bakteriyasıdır. Aqressiya növlərinə görə beş yerə bölünür:***

1. Fiziki aqressiya–fiziki təsir göstərməklə;
2. Dolayısı aqressiya–gizli yolla konkret şəxsə yönləndirilməyən;
3. Qıcıqlanma– xarici qıcıqlandırıcılara qarşı yüksək həssaslıq, sərt emosional reaksiya;



4. Şifahi (verbal) aqressiya–neqativ hisslərin söz üsulu ilə büruzə verilməsi;
5. Neqativizm – qoyulmuş qaydalara qarşı passiv və ya aktiv əks- reaksiya.

Torpaqda yaşayan çubuqşəkilli bakteriya olan Clostridium perfringen qida maddələri olmadıqda insanı qıcıqlandıran zərərli toksinlər istehsal edir. Həmin toksinlər əsəb sistemini oyadır və bu zaman insan həddindən artıq aqressivlik nümayiş etdirir. Bununla belə, elm adamları apardıqları tədqiqatlarla prosesi ləngitməyi öyrəniblər. Bu kəşfin antibiotiklərsiz heyvanlar və insanlar üçün yeni müalicə üsullarının tapılmasına kömək etdiyi güman edilir.

## Bacarmırsan? – “Yox!” de!

***İnsanlar bəzi hallarda bizdən çox da ciddi olmayan tələbi pozmağımızı xahiş edirlər. Məsələn, rəsmi mövqeyimizdən istifadə etmək, yollarda sürət həddini aşmaq və s. Unutmayın, qaydaları və qanunları pozmaq həmişə ciddidir və buna görə də “yox!” deməlisiniz.***

Bu kateqoriyaya, həm də sizin ixtisas sahənizə aid olmayan sorğular daxildir. Bu işdə nə edə biləcəyinə əmin deyilsən? Elə isə “Yox!”– deməkdən çəkinməyin.

Bəzən insanlar bizdən müəyyən hisslər, davranışlar gözləyirlər. Ancaq bu hissləri yaşamırsınızsa, qəti şəkildə “yox!” demək düzgün olacaq. Lazım gələrsə, imtinanızın səbəblərini açıq şəkildə izah edin. Sağlamlığınıza təhlükə yarada biləcək müraciətlər də cavabsız qalmalıdır.

Bundan əlavə, heç kimin etik inancınızı pozmasına icazə verməyin. Tutaq ki, siz manipulyasiyaya, yalan danışmağa, qeyri-etik davranışa, oyun qaydalarını pozmağa, istər biznes olsun, istərsə də münasibətlərə qarşısınız, amma sizdən bunları etmək tələb olunur.



“Yox!”– deyin və reaksiya barədə düşünməyin.

Siz “yox!” dedikdən sonra insanların nə düşündüyü sizi narahat etməməlidir.

## Qarğıdalı saçağı möcüzədir

***Qarğıdalı hamının sevdiyi bitki növüdür. Qoxusu və dadı ilə hər kəsin ağız dadına uyğundur. Xüsusilə yay aylarında qaynadılmış qarğıdalı çox yeyilir, həmçinin konserv kimi salatlarda da istifadə edilir.***

Qarğıdalı əsrlər boyu Çin təbabətində müalicə məqsədilə istifadə olunub. Çoxumuz qarğıdalı saçaqlarını ayıraraq zibil qutusuna atırıq. Bilmirik ki, bu saçaqlar xəstəliklərlə mübarizədə çox güclü təsirə malikdir.

Qarğıdalı saçaqlarını dəmləyib içmək böyrək üçün çox xeyirdir. Bununla immuniteti gücləndirmək, orqanizmi xəstəliklərdən qorumaq mümkündür.

Eyni zamanda, həzm sisteminin nizamlı işləməsinə kömək edir. Bağırsaqları işlədən bu çay qəbizlik problemini də aradan qaldırır.



Qarğıdalı çayı, revmatizm və sümük xəstəliklərinə də yaxşı təsir göstərir. Sakitləşdirici təsiri ilə bədəni stressdən azad edir. Qarğıdalı saçağında çoxlu C və K vitaminləri var. Zəngin kalium və antioksidant mənbəyidir.

Dəri və ürək xəstəliklərinin müalicəsində istifadə edilir. Sızanaq və qara nöqtələrin yaranmasının qarşısını alır. Yaxşı nəticə əldə etmək üçün qarğıdalı saçağı qaynadılıb suyu soyuducuya qoyulur. Vaxtaşırı dəri onunla masaj edilir. Həmçinin saçı nəm saxlayır və qırılmasının qarşısını alır, tökülməsini dayandırır. Bunun üçün həmin çayı saça çəkib bir müddət saxlamaq lazımdır.

**Z.BƏŞİRQIZI,**
**“Xalq qəzeti”**

## HAVA PROQNOZU

✓ *Aprelin 16-da*

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz yarımadanın bəzi yerlərində az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 10-12°, gündüz 15-19° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 772 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə az yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 4-9°, gündüz 17-22° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 2-7°, gündüz 9-14° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Şərq küləyi əsəcək. Gecə 2-7°, gündüz 9-14° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə az yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 6-10°, gündüz 17-22° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin bəzi dağlıq ərazilərdə arabir yağıntılı olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 5-9°, gündüz 17-22°, dağlarda gecə 0-5°, gündüz 5-10° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə az yağış yağacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 8-13°, gündüz 17-22° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 8-12°, gündüz 17-22°, dağlarda gecə 7-9°, gündüz 10-15° isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN

Binəqədi Rayon İcra Hakimiyyətinin kollektivi Fərhad Bayramlıya atası

**YAŞAR BAYRAMLININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Binəqədi Rayon İcra Hakimiyyətinin kollektivi Rəhman Məmmədova atası

**ELMAZ MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5008
SİFARİŞ 913
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00